

# Prezident İlham Əliyevin Türkiyəyə səfəri başa çatıb

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkiyə Respublikasına işgüzar səfəri martın 6-da başa çatıb.**

Ankaranın Esenboğa Hava Limanında dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident İlham Əliyevi Türkiyənin maliyyə naziri Mehmet Şimşek və digər rəsmi şəxslər yola saldılar.


Xalqın qəzeti!

# Xalq qəzeti

№ 51 (30745) 7 mart 2025-ci il, cümə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti


## Birinci vitse-prezident Gəncə şəhərinə səfər edib



Səhifə ⇨ 2

## Paşinyanın "göz yaşları" Moskvanı inandıracaqmı?



**Dünyadakı haypərəst dairələrin, əvvəl Ermənistan müxalifətinin, sonra ölkə rəhbərliyinin "Azərbaycanda saxlanılan erməni məhbuslarla" bağlı başlatdığı kampaniyaya baş nazir Nikol Paşinyan da qoşuldu. O da Bakıda çoxsaylı cinayətlərdə təqsirləndirilən həmyerlilərinə qarşı məhkəmə prosesinə münasibət bildirdi. Münasibət nədən ibarətdir, bu barədə söz açacağıq. Hələlik isə...**

Əvvəlki saylarımızda bildirmişdik ki, rəsmi İrəvan Bakı ilə sülh gündəmini "Azərbaycanda saxlanılan erməni məhbuslar" məsələsinə dəyişib. Məqsəd bəllidir. Ermənistan rəhbərliyi görür ki, barış sazişi ilə bağlı danışıqlarda heç nəyə nail ola bilmir, Azərbaycanı güzəştlərə məcbur etməyi bacarmır və buna görə həyasızlığa güc verir. N.Paşinyan isə ölkə parlamentindəki çıxışı ilə sübut edir ki, bu vay-şivənin başında indi o özü dayanır.

Haşiyə çıxaq ki, bu günlərədək Ermənistan hakimiyyəti revanşist-şovinist erməni müxalifəti və xaricdəki anti-Azərbaycan yönümlü dairələrin "erməni məhbuslar" məsələsi ətrafındakı şousuna qoşulmurdu. Hazırda vəziyyət kökündən dəyişmiş kimi görünür. Hesab edirik ki, bunun Azərbaycanı hansısa güzəştə məcbur etməkdən başqa da səbəbləri var.

Bu barədə söz açarkən, Ermənistanın sabiq xarici işlər naziri Vardan Oskanyanın "erməni məhbuslar" məsələsinə dair sərsəmləməsinə nəzər salaq. O demişdi ki, "məhbuslara" görə Azərbaycanla sülh danışıqlarını dayandırmaq lazımdır. Onun yanaşmasının düzgün olmadığını deyən ölkənin hazırkı XİN rəhbəri Ararat Mirzoyan bildirib ki, Ermənistan danışıqların davamında maraqlıdır. Əslində isə rəsmi İrəvanın hazırkı davranışı elə Oskanyanın "təklifinin" icrasıdır. Elə isə sual yaranır: rəsmi İrəvanın istədiyi nədir?

Erməni müxalifəti "Azərbaycanda saxlanılan erməni məhbuslarla", xüsusən Qarabağdakı keçmiş separatçı rejimin liderləri ilə bağlı məsələni bölgənin ermənilərə məxsusluğu, ərazinin ölkəmiz tərəfindən, guya, işğala məruz qalması kontekstində qaldırır. Yəni, istər-istəməz, məsələ "Qarabağın işğalı" ilə assosiasiya olunur. Nəzərə alaq ki, Ermənistan hakimiyyəti vaxtilə həm də bu səbəbdən Bakıda məhkəməsi gedən şəxslərin müdafiəsinə yönəlmiş "kampaniyalardan" uzaq dururdu. Hətta mövcud istiqamətdəki susqunluğuna görə ittihamlarla da üzləşirdi. İndi necə başa düşək? Ermənistan dolayısı ilə Azərbaycana qarşı ərazi iddiası qaldırır? Bəlkə ölkədə yenidən Qarabağa sahiblənməyi düşünənlər var?

(ardı 6-cı səhifədə)



# "Ümid" körpüsündən sarsılmaz qardaşlığa

## 33 il əvvəl kəsilən lent 1 millətin 2 dövlətinin qardaşlıq rəmzinə çevrildi

**Qardaşlığın sarsılmaz birliyə çevrilməsinin növbəti təzahürünü bütün dünya izlədi. Amma razılaşaq ki, Azərbaycan–Türkiyə münasibətləri çoxdan iki qardaş ölkənin liderlərinin qarşılıqlı səfərlərinin formatı ilə məhdudlaşmır. İndi bu münasibətlərin coğrafiyası bütün türk dünyasının sərhədləri kimi genişdir.**

Azərbaycan Prezidenti İlham Əliyevin İğdır–Naxçıvan qaz kəmərinin açılış mərasimində dediyi sözlər bu postulatın bir daha təsdiqi kimi qəbul olunmalıdır: "Bu gün Türkiyəni Azərbaycanla birləşdirən Bakı–Tbilisi–Qars dəmir yolu çox gözəl üstünlüklər təmin edir. Həm ölkələrimiz üçün, həm daha geniş coğrafiya üçün. Xüsusilə Türk dünyasını birləşdirmək üçün bu nəqliyyat bağlantısının çox böyük mənası, çox böyük faydası var və təbii olaraq, Türkiyə ilə Azərbaycan arasındakı birlik, qardaşlıq bütün Türk dünyasına böyük bir töhfədir. Türk dünyasının birləşməsi yolunda əziz Qardaşım, hörmətli Cümhurbaşqanının çox böyük rolu var. Onun liderliyi ilə həm Türkiyədə böyük uğurlar əldə edildi, həm Türk dünyasının daha da sıx birləşməsi üçün yeni imkanlar yarandı".

Bəli, həm dövlət rəhbərləri, həm də xalqlar üçün münasibətlərin qardaşlıq xarakteri daha vacib, daha səmimi və daha yaxındır. Və bu, dünya üçün unikal bir məqamdır. Axı, bu gün baş verənlərin və gələcəkdə olacaqların təməlində bizim qardaşlığımız dayanır. Bu məqamlar Azərbaycan tarixi üçün önəmlidir.

Prezident İlham Əliyev çıxışında o vaxt Naxçıvanın işğal olunmamasının səbəbləri sırasında qardaş Türkiyənin yardımlarını, "Ümid" körpüsünün istifadəyə verilməsini xüsusi qeyd etdi.

(ardı 4-cü səhifədə)

## Ağdərə Qayıdış sevincinə bürünüb



Səhifə ⇨ 11

**Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan ölkə parlementində çıxışı zamanı Azərbaycanın Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadənin bildirdiklərinə cavab verib. Qeyd edək ki, cənab Hacızadə bir neçə gün əvvəl baş nazir Nikol Paşinyanın Azərbaycan və Ermənistan arasında kommunikasiyaların açılmasına dair məqaləsinə münasibətini ifadə edərkən, əsasən üç məqamın üzərində dayanmışdı.**

Birincisi, "Otuz ilə yaxın bir müddətdə Azərbaycanın beynəlxalq səviyyədə tanınmış suveren ərazilərini işğal altında saxlamış, Azərbaycanın Naxçıvan Muxtar Respublikasının blokadaya düşməsinə səbəb olmuş Ermənistanın 44 günlük Vətən müharibəsindən sonrakı

## Ararat Mirzoyanın "kontr-arqumentləri"

### *Erməni nazir İrəvanın sülhdən uzaq mövqeyinə "rəng qatmaqla" məşğuldur*



dörd ildə də kommunikasiyaların açılması üzrə real danışıqlar prosesinə müsbət töhfə vermədiyi hər kəsə məlumdur". İkincisi, "Azərbaycanın qərb bölgələrini Naxçıvan Muxtar Respublikası ilə birləşdirən kommunikasiyaların açılması məsələsi ilə bağlı Ermənistan yazılı təsbit olunmuş və imzalanmış öhdəliklərinin mövcud olduğunu bilsə də, onları indiyə qədər yerinə yetirməyib". Nəhayət, üçüncüsü, "ümumilikdə, Ermənistanın mahiyyətcə əhəmiyyəti olmayan, icrası çətin və praktiki cəhətdən uzun marşrutlar üzrə təkliflər irəli sürməsi diqqəti prosesdən və öhdəliklərindən yayındırmaq məqsədi daşıyır. Əgər Ermənistan tərəfi həqiqətən də bölgədə kommunikasiyaların açılmasında maraqlıdırsa, öhdəliklərindən boyun qaçırmamalı və bölgədəki yeni reallıqlara uyğun şəkildə kommunikasiyaların açılması istiqamətində praktiki addımlar atmalıdır".

İlk növbədə onu demək lazımdır ki, A.Mirzoyanın cavabı həm həyasızlıq elementləri ilə zəngindir, həm də Azərbaycanın mövqeyinin kiçildilməsinə hesablanıb. O, ölkəsinin regional kommunikasiyaların açılmasına dair üzərinə heç bir öhdəlik götürmədiyini deyərək, məsuliyyətdən yayınıb. Halbuki, 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanat var. Sənəddə konkret öhdəliklər var və İrəvan həmin öhdəliklərə məhəl qoymayıb. Onu da bildirək ki, Paşinyan iqtidarı ümumən üçtərəfli bəyanatı heçə saymaq yolunu tutub. Nikol və komandası sənədin Ermənistanı 44 günlük müharibənin məğlub tərəfi kasuzunu inkar edir.

(ardı 6-cı səhifədə)

## Yenə sərhəddə təxribat: Məqsəd nədir?



Səhifə ⇨ 4

## Avropanın ABŞ-a güvənci azalıb



Səhifə ⇨ 11

## "Azərbaycan Respublikası ilə Serbiya Respublikası arasında ticarət və iqtisadi əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 7 iyun tarixli 1541 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə

*Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1** "Azərbaycan Respublikası ilə Serbiya Respublikası arasında ticarət və iqtisadi əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 7 iyun tarixli 1541 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 6, maddə 517 (Cild I) 1-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

1.1. "əmək və əhalinin sosial müdafiəsi" sözləri "maliyyə" sözü ilə əvəz edilsin;

1.2. "Azərbaycan Respublikası energetika nazirinin müavini" abzasından sonra aşağıdakı məzmunda yeni abzas əlavə edilsin:

"Azərbaycan Respublikası əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini".

**2.** Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi bu Sərəncamın 1-ci hissəsi ilə edilən dəyişikliklər barədə Serbiya Respublikası tərəfinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 6 mart 2025-ci il**

# Birinci vitse-prezident Gəncə şəhərinə səfər edib

## Ulu öndər Heydər Əliyevin abidəsini ziyarət

**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva, qızları Leyla Əliyeva və Arzu Əliyeva martın 6-da Gəncə şəhərinə səfər ediblər.**

Birinci vitse-prezident Mehriban Əliyeva, qızları Leyla Əliyeva və Arzu Əliyeva Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin Gəncə şəhərinin mərkəzində ucaldılan abidəsini ziyarət edərək, önünə gül dəstələri qoydular.

Sonra şəhər sakinləri ilə xatirə fotoları çəkdirildi.





## Mehriban Əliyeva körpələr evi-uşaq bağçasında olub



**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva və qızı Arzu Əliyeva Gəncə şəhəri 40 saylı körpələr evi-uşaq bağçasında olublar.**

Birinci vitse-prezidentə bağçanın mövcud vəziyyəti ilə bağlı məlumat verildi.

Qeyd edildi ki, bu məktəbəqədər təhsil müəssisəsi 1967-ci ildə inşa olunub. 120 yerlik uşaq bağçasında faktiki 70 uşağın təlim-tərbiyəsi aparılır. Hazırda bina yararsız vəziyyətdədir.

Birinci vitse-prezident Mehriban Əliyeva bağçada məktəbəqədər təhsilin və uşaqların təlim-tərbiyəsinin yüksək səviyyədə təşkili məqsədi ilə müvafiq tapşırıqlar verdi.

Respublikamızda yeni uşaq tərbiyə müəssisələrinin inşası, eləcə də mövcud olanların ən müasir tələblər səviyyəsində yenidən qurulması üzrə həyata keçirilən dövlət proqramları ilə yanaşı, Heydər Əliyev Fondu da bu sahəni daim diqqətdə saxlayır. Fond 2014-cü ildən etibarən "Məktəbəqədər təhsil müəssisələrinin inkişafı" proqramını həyata keçirərək, uşaqların təlim-tərbiyəsinə, onların bilikli və savadlı yetişməsinə öz töhfəsini verir.

## Gəncə terroru qurbanlarının xatirəsi əbədiləşdirilir



**Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva, qızları Leyla Əliyeva və Arzu Əliyeva Ermənistan silahlı qüvvələrinin 2020-ci ildə Gəncə şəhərinə raket hücumları nəticəsində həlak olan dinc sakinlərin xatirəsini əbədiləşdirmək üçün inşa edilən Gəncə Memorial Kompleksinin layihəsi ilə tanış olublar.**

Qeyd edək ki, kompleksin təməli 2022-ci il yanvarın 30-da Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən qoyulub.

Memorial Kompleksin ərazisi 4 hektar təşkil edəcək. Kompleksin tərkibindəki muzey binası 2 mərtəbədən ibarət olacaq. Alt mərtəbədə əsas sərgi zalı yerləşəcək. Sərgi zalından kompleksin açıq sahəsinə çıxış olacaq. Açıq sahə spiral formalı divar boyu davam edərək raketin yerdə olan izini simvolizə edəcək.

Üst mərtəbədə müxtəlif tədbirlərin keçirilməsi məqsədilə çoxfunksiyalı otaq yerləşəcək. Kompleksin ərazisində raket zərbəsinin endirildiyi binaların konservasiya edilmiş qalıqları da yer alacaq.

Gəncə Memorial Kompleksinin tikintisinin 2025-ci ilin sonuna qədər başa çatdırılması nəzərdə tutulur.

Xatırladaq ki, Vətən müharibəsi dövründə Gəncə şəhəri oktyabrın 4-ü, 5-i, 8-i, 11-i və 17-də Ermənistan silahlı qüvvələri tərəfindən müxtəlif təyinatlı "Toçka-U", "Smerç", "SCUD" və digər raket qurğularından endirilən zərbələrə məruz qalıb. Nəticədə 26 mülki şəxs həlak olub, 142 dinc sakin yaralanıb.

## 37 nömrəli tam orta məktəbdə təmir-bərpa işləri ilə tanışlıq

**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva və qızı Arzu Əliyeva Gəncə şəhər 37 nömrəli tam orta məktəbdə Heydər Əliyev Fondu tərəfindən aparılan təmir-bərpa işləri ilə tanış olublar.**



Heydər Əliyev Fondunun icraçı direktoru Anar Ələkbərov və Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov məktəbdə aparılan əsaslı təmir-bərpa işləri ilə bağlı məlumat verdilər.

Bildirildi ki, 1969-cu ildə istifadəyə verilmiş tədris müəssisəsində 700-dən çox şagirdin təhsil almaq imkanı olub. Lakin məktəb binası artıq istifadəyə yararsız olduğundan Heydər Əliyev Fondu tərəfindən 2024-cü ilin sentyabr ayından əsaslı təmir işlərinə başlanılıb. Binada təmir işlərinin bu ilin sentyabr ayında - yeni tədris ilinə qədər yekunlaşdırılması nəzərdə tutulub.



Qeyd edək ki, yeni tədris ili üçün Heydər Əliyev Fondu paytaxt Bakıda və regionlarda bir sıra məktəblərin inşasını və təmir işlərini başa çatdırmağı nəzərdə tutur.

Yarandığı gündən təhsil sahəsinə xüsusi diqqətlə yanaşan, bu sahənin inkişafını fəaliyyətinin prioritet istiqamətlərindən biri kimi müəyyənləşdirən Heydər Əliyev Fondu "Yeniləşən Azərbaycana yeni məktəb", "Təhsilə dəstək" kimi proqramlar həyata keçirərək, ölkəmizdə təhsilin inkişafına öz dəstəyini göstərir. Məktəblərdə təmir-tikinti işləri, mövcud şəraitin yaxşılaşdırılması istiqamətində dövlət tərəfindən görülən işlərlə yanaşı, Heydər Əliyev Fondu tərəfindən də həyata keçirilən layihələr təhsilin keyfiyyətinin yüksəldilməsinə yönəlib.

## Mehriban Əliyeva Perinatal Mərkəzdə

**Martın 6-da Gəncəyə səfər çərçivəsində Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva, qızları Leyla Əliyeva və Arzu Əliyeva Gəncə Şəhər Birləşmiş Xəstəxanasının Perinatal Mərkəzində olublar.**

Gəncə şəhər Birləşmiş Xəstəxanasının direktoru İlkin İsmayılov Gəncə və ətraf regionlardan olan vətəndaşlara xidmət göstərən Perinatal Mərkəz barədə məlumat verdi.

Qeyd olundu ki, Perinatal Mərkəz ana olmağa hazırlaşan qadınlara, o cümlədən dünyaya yeni göz açan körpələrə yüksəkixtisaslı diaqnostik, konsultativ və müalicə yardımı göstərən tibb müəssisəsidir.

Tibb müəssisəsindəki şəraitlə tanışlıq zamanı Perinatal Mərkəzə Heydər Əliyev Fondu tərəfindən küvəzlər və ultrasəs müayinə aparatı hədiyyə olundu.

Yeni doğulmuş körpələri ziyarət zamanı analara Fondun hədiyyələri də təqdim edildi.

Qeyd edək ki, Heydər Əliyev Fondunun fəaliyyətində prioritet istiqamətlərdən biri də səhiyyə sahəsidir. Fondun "Diabetli uşaqlara ən yüksək qayğı", "Talassemiyasız həyat naminə", "Tibb müəssisələrinin yenidən qurulması və inşası" kimi layihələr, bir çox xeyriyyə aksiyaları səhiyyə sahəsinə mühüm dəstəkdir. Paytaxt Bakı ilə yanaşı, bölgələrdə də müasir səhiyyə ocaqları inşa edilir, ən son texnologiyalı tibbi avadanlıqla təchiz olunur.



# Gəncənin Şah Abbas və Hüseyniyyə məscidləri ilə tanışlıq

**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva, qızları Leyla Əliyeva və Arzu Əliyeva Gəncə şəhərindəki Şah Abbas və Hüseyniyyə məscidlərində olublar.**



Məscidin imamı İsgəndər Məmmədov Birinci vitse-prezidentə Şah Abbas məscidi barədə məlumat verdi.

Qeyd olundu ki, məscid 1606-cı ildə Səfəvi hökmdarı I Şah Abbasın əmri ilə memar Şeyx Bahəddin Məhəmməd Amilin layihəsi əsasında inşa edilib. Şah Abbas məscidi və ya Gəncə Cümə məscidi Gəncəçayın sol sahilində, Gəncənin tarixi mərkəzində yerləşir. Məscid XVII əsrə aid Arran memarlıq üslubunda ərsəyə gətirilib.

Bu tarixi məscid memarlıq kompozisiyası, planlaşdırma, konstruktiv və bədii-dekorativ xüsusiyyətlərinə görə orta əsr Azərbaycan memarlığının portal-günbəz ənənələrini



yaşadır. Binanın memarlığında, xüsusilə günbəz və portalların həllində zəngin memarlıq ənənələrindən uğurla istifadə olunub. Bununla yanaşı, Arran memarlıq məktəbi üçün xarakterik olan lakoniklik və ifadəlilik də bu tarixi-dini abidədə əks etdirilib.

Bildirildi ki, 2008-ci ildə Prezident İlham Əliyevin təşəbbüsü ilə məsciddə bərpa və təmir işləri aparılıb. Məscidin mövcud vəziyyətinə baxış zamanı bu tarixi-dini abidənin qorunub saxlanılması istiqamətində növbəti tapşırıqlar verildi.

Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevaya, qızları Leyla Əliyeva və Arzu Əliyevaya "Qurani-Kərim" hədiyyə olundu.

Hüseyniyyə məscidinin mövcud vəziyyəti ilə tanışlıq zamanı isə bildirildi ki, XIX əsrdə inşa edilən bu dini ocaq, eyni zamanda, Tatlar məscidi kimi tanınır. İbadətgah mədrəsə, sonralar isə məscid kimi fəaliyyət göstərib. Hazırda bu tarixi-dini abidədə təmir-bərpa işlərinin aparılmasına zərurət yaranıb.

Məscidə baxış zamanı burada müvafiq işlərin görülməsinə dair tapşırıqlar verildi.

Qeyd edək ki, bütün dinlərin və etnik qrupların nümayəndələrinin bir ailə kimi mehriban, dinc şəraitdə yaşadıqları ölkəmizdə tolerantlıq ənənələrinin qorunmasına xüsusi əhəmiyyət verən Heydər Əliyev Fondunun "Tolerantlığın ünvanı - Azərbaycan" layihəsi çərçivəsində dini abidələrdə, ziyarətgahlarda və tikililərdə təmir-bərpa işləri aparılır, mövzuya aid sərgilər təşkil olunur.

# Mehriban Əliyeva Gəncədə Rus Pravoslav kilsəsində

**Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva, qızları Leyla Əliyeva və Arzu Əliyeva Gəncədə Aleksandr Nevski adına Rus Pravoslav kilsəsində olublar.**



Kilsənin baş keşişi Varfolomey Denis Sotnikov məbədin tarixi barədə məlumat verdi.

Qeyd edildi ki, Rus Pravoslav kilsəsi 1887-ci ildə inşa olunub. Məbəd həm yerli pravoslavların, həm də müsəlmanların xeyriyyə vəsaiti hesabına Bizans üslubunda kərpicdən tikilib.

Qırx dörd il ibadət evi kimi fəaliyyət göstərdikdən sonra 1931-ci ildə sovet hökuməti tərəfindən bağlanıb. 1935-1938-ci illərdə muzey binası olan məbəd bir müddətdən sonra kafedral anbar kimi istifadə edilib. Bina 1946-cı ildə Rus Pravoslav kilsəsinə



qaytarılıb və yenidən qapılarını ibadət edənlərin üzünə açıb.

Qədim interyerindəki müxtəlif ikonalar günümüzə qədər gəlib çıxıb. Bunların arasında müqəddəs Aleksandr Nevski və müqəddəs Mariya Maqdalena adına ikonaları xüsusi qeyd etmək olar.

Kilsənin yaradılmasının 110 illiyi 1997-ci ildə qeyd olunub. Kilsə tikilməsinin 130 illiyi münasibətilə 2017-ci ildə təmir edilib.

Azərbaycandakı mövcud pravoslav kilsələri arasında ən qədimlərindən olan bu tarixi abidədə bir sıra növbəti təmir işlərinin aparılmasına ehtiyac yarandığı bildirilib.

Qeyd edək ki, çoxmillətli, çoxkonfessiyalı ölkəmizdə tarixi-mədəni irsin, milli-mənəvi dəyərlərin qorunması, o cümlədən dini ibadət yerlərinin və maddi-mədəniyyət abidələrinin bərpası, mühafizəsi Azərbaycan dövləti tərəfindən daim diqqət mərkəzində saxlanılır. Prezident İlham Əliyev dini icmalara, onların rəhbərlərinə ardıcıl olaraq maddi-mənəvi dəstək göstərməklə Azərbaycanın dövlət-din münasibətlərində nümunəvi təcrübəsini dünyaya nümayiş etdirir. Birinci vitse-prezident Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu tərəfindən dinlərarası dialoqun və əməkdaşlığın gücləndirilməsi sahəsində çoxsaylı layihələr həyata keçirilir, ölkəmizdəki, o cümlədən işğaldan azad edilmiş ərazilərdəki məscid, kilsə və sinaqoqlar təmir, bərpa olunur.

***AZƏRTAC***

# Şeyxülislam Allahşükür Paşazadənin rəhbərliyi ilə nümayəndə heyəti Belçika Krallığında səfərdədir

**Qafqaz Müsəlmanları İdarəsinin sədri şeyxülislam Allahşükür Paşazadənin rəhbərliyi ilə nümayəndə heyəti Belçika Krallığında səfərdədir.**



Nümayəndə heyəti Belçika Kralı Filipin ali himayəsi və Avropa İnkişaf və Araşdırmalar Akademiyası, ICESCO, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi və Qafqaz Müsəlmanları İdarəsinin birgə təşkilatçılığı ilə Belçika və Avropada "2025 İslam Dünyası İli" çərçivəsində keçirilən tədbirlərdə iştirak edir.

Martın 6-da şeyxülislam A. Paşazadə Avropa Parlamentində yüksəksəviyyəli dəyirmi masada iştirak edib. QMİ sədri şeyxülislam A. Paşazadə dəyirmi masada çıxış edib, multikultural dəyərlər ölkəsi Azərbaycan adından xalqımızın, xüsusilə Azərbaycan Prezidenti İlham Əliyevin salamlarını və xeyir-dualarını yetirməkdən şərəf duyduğunu bildirib

Tədbir çərçivəsində Avropa İttifaqı Parlamentinin üzvü, Asiya ölkələri ilə qrupun rəhbəri, Belçikanın səhiyyə naziri Volter Beke ilə görüş, habelə Belçika rəsmisinin, EDARA sədri Brahim Laytuss, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin icraçı direktoru Rəvan Həsənovun iştirakı ilə proqram baş tutub. Proqramda şeyxülislam A. Paşazadə Azərbaycanın tolerantlıq modeli ilə bağlı nümunələrdən ətraflı bəhs edib.

# Baş Prokurorluq və Aviasiya Akademiyası əməkdaşlıq memorandumu imzalayıb



**Milli Aviasiya Akademiyasının (MAA) rektoru akademik Arif Paşayevlə Azərbaycan Respublikasının Baş prokuroru, hüquq üzrə fəlsəfə doktoru Kamran Əliyev arasında görüş keçirilib.**

Görüşdə əməkdaşlıq haqqında 2020-ci il sentyabrın 23-də imzalanmış saziş çərçivəsində MAA ilə Baş Prokurorluq arasındakı səmərəli əlaqələri, kadr hazırlığı sahəsində qarşılıqlı fəaliyyətin əhəmiyyətini, habelə əldə olunan müsbət nəticələri nəzərə alaraq əməkdaşlığın daha da genişləndirilməsi məqsədilə müvafiq razılıq əldə olunub.

Memoranduma əsasən, prokurorluq orqanlarının əməkdaşları tədrisdə, MAA-nın professor-müəllim heyəti isə Prokurorluğa qəbul olunan və fəaliyyətdə olan əməkdaşlarının ixtisasartırma prosesində iştirak edəcək. Həmçinin hüquqi və elmi maarifləndirmə istiqamətində birgə təlim kursları, seminar və mühazirələr təşkil ediləcək. Bundan başqa, "Hüquqşünaslıq" ixtisası üzrə bakalavr pilləsində təhsil alan tələbələrin Prokurorluqda ictimai köməkçi (könüllü) qismində, MAA-nın professor-müəllim heyətinin Prokurorluqda qanunvericilik aktlarının hazırlanması prosesinə cəlb edilməsi nəzərdə tutulur.

***XQ***

# Azərbaycan–Gürcüstan diplomatik məsləhətləşməsi

**Martın 6-da Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov və Gürcüstanın xarici işlər naziri Maka Botçorişvili arasında telefon danışığı baş tutub.**




Tərəflər iki ölkə arasında dostluq və strateji tərəfdaşlıq münasibətlərinin cari vəziyyətini və perspektivlərini müzakirə ediblər. Ölkələrimiz arasında ali və yüksək səviyyədə mövcud siyasi dialoqun, baş tutan intensiv səfərlərin, siyasi məsləhətləşmələr mexanizminin münasibətlərimizin daha da gücləndirilməsinə töhfə verdiyi qeyd edilib. Cari ildə bu kimi siyasi təmasların daha da genişləndirilməsinin əhəmiyyəti vurğulanıb.

Nazirlər, həmçinin regional məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

# Sağlam siyasi dialoqun növbəti ünvanı – Qarabağ



**Ölkəmizdə fəaliyyət göstərən siyasi partiya nümayəndələrinin, tanınmış politoloq və siyasi şərhçilərin, habelə internet televiziya kanalları rəhbərlərinin, qəzet redaktorlarının və jurnalistlərin birgə səfərinin növbəti marşrutu martın 6-da Xankəndi, Əsgəran və Xocalıdan keçib. Belə səfərlər indiyədək Ağdam, Şuşa (2 dəfə) və Zəngilana təşkil olunub.**

Prezident İlham Əliyevin təşəbbüsü ilə ölkədə siyasi dialoq mühitinin daha da dərinləşdirilməsi, habelə milli maraqlar və dövlətçilik naminə siyasi proseslərdə etibarlı əməkdaşlıq münasibətlərinin bərqərar edilməsi məqsədilə müxtəlif layihələr icra olunur. Siyasi dialoq ilə əlaqədar bütün təşəbbüslər mətbuatda işıqlandırılır.

Konstruktiv əməkdaşlığın qurulması çərçivəsində siyasi partiya rəhbərləri üçün işğaldan azad olunmuş ərazilərə birgə səfərlərin təşkili də önəmli addımdır. Birgə səfərlərin birində ölkə siyasiləri Şuşa Bəyannaməsinin birinci ildönümü münasibətilə 2022-ci il iyunun 15-də Şuşa şəhərində keçirilmiş "Azərbaycan-Türkiyə strateji müttəfiqlik münasibətləri Qafqaz və region üçün sülh və sabitlik mənbəyidir" adlı beynəlxalq konfransda iştirak ediblər. Beləliklə, təşviq olunan dialoq mühiti sayəsində müxalif siyasi partiyalar, eyni zamanda, təşkil olunan beynəlxalq tədbirlərdə də tərəf-müqabili kimi iştirak edirlər.

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının təşkilatçılığı ilə keçirilən budəfəki səfərdə 24 siyasi partiyanın nümayəndələri, tanınmış politoloq və siyasi şərhçilər, internet televiziya kanallarının rəhbərləri, qəzet redaktorları və digər jurnalistlər iştirak ediblər.

Səfərin iştirakçıları əvvəlcə Əsgəran qala-kompleksinə baxıblar. Onlar səfər çərçivəsində Xocalı şəhərində inşa edilən Xocalı Soyqırımı Memorialında aparılan işlərlə yaxından tanış olublar. Səfər iştirakçılarına Xocalının Ballıca kəndində tikilən fərdi evlərin və infrastrukturun bərpası sahəsində görülmüş işlər barədə məlumat verilib. Xankəndi şəhərində isə 2023-cü il noyabrın 8-də Vətən müharibəsində əldə edilən Zəfərin üçüncü ildönümünə həsr olunan hərbi paradın keçirildiyi Zəfər meydanını ziyarət edən səfər iştirakçıları burada mətbuat nümayəndələrinə verdikləri müsahibələrdə öz təəssüratlarını bölüşüblər.

Səfər zamanı Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyev Xankəndi şəhərində iştirakçıların qarşısında çıxış edərək ötən dövrdə Prezident İlham Əliyevin təşəbbüsü ilə ölkədə davamlı surətdə təşviq olunan həmrəylik mühitinin strateji əhəmiyyəti və mövcud istiqamətdə görülmüş işlər haqqında məlumat verib.

Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində qazanılan şanlı Qələbənin bütün dünya azərbaycanlılarının qürur mənbəyi olduğunu xüsusi vurğulayan Administrasiya rəsmisi qeyd edib ki, Xankəndi şəhərində Zəfər meydanında ölkənin bütün əsas siyasi partiyalarının bir yerdə toplanması da Azərbaycanın siyasi tarixində əlamətdar hadisə kimi dəyərləndirilməlidir. Ədalət Vəliyev daha sonra bildirib ki, müharibə dövründə olduğu kimi hər zaman vətənpərvər qüvvələri birləşdirən əsas amil milli maraqlar və dövlətçilik mövqeyidir.

Siyasilər Xankəndi, Xocalı və Əsgəranın iqtisadi, habelə turizm potensialı ilə də tanış olublar.

Ölkəmizdə təşviq olunan dialoq mühiti konstruktiv əməkdaşlığı, dövlət naminə şəxsi ambisiyalardan imtina olunmasını, milli həmrəyliyi, habelə etibarlı münasibətləri tərənnüm edir.

***XQ***

# “Ümid” körpüsündən sarsılmaz qardaşlığa



(əvvəli 1-ci səhifədə)

Oxuculara xatırladaq ki, 1992-ci ilin martında Türkiyə tərəfindən Naxçıvana maliyyə, iqtisadi və texniki yardımın göstərilməsi, 100 milyon ABŞ dolları məbləğində kreditin ayrılması və hər il 100 tələbənin Türkiyədə təhsil almasına imkan yaradılması haqqında birgə əməkdaşlıq protokolu imzalandı. 1992-ci il mayın 28-də, xüsusilə əlamətdar məqama çevrilən Respublika Günündə ümummilli lider Heydər Əliyevin “xalqımızın ümid və arzular körpüsü adlandırdığı” Naxçıvanla Türkiyəni birləşdirən “Ümid” körpüsünün Araz çayı üzərindən açılışı oldu. Həmin dövr Azərbaycan üçün, xüsusən də Birinci Qarabağ müharibəsində blokadaya alınmış



Naxçıvan üçün ən çətin dövr idi. Amma Heydər Əliyev o ağır məqamda özünün siyasi qrossmeyster gedişləri ilə həm muxtar respublikanı real fəlakətdən qurtardı, həm də Azərbaycan–Türkiyə qardaşlığının yeni tarixinin təməlini atdı.

1999-cu ildə Azərbaycan Prezidenti kimi Naxçıvana səfərində Heydər Əliyev “Ümid” körpüsünün açılması zərurətini xatırlayaraq demişdi: “Belə bir körpü tikmək bir azərbaycanlı kimi şəxsən mənim on illər boyu qəlbimdə qalan arzum idi. İndi özümü xoşbəxt hesab edirəm ki, gördüyüm bütün başqa işlərlə bərabər, o ümid, həsrət körpüsünün qısa müddətdə tikilməsinin, yaranmasının təşəbbüsçüsü oldum. Biz dostumuz Süleyman Dəmirəl və Türkiyə hökumətinin himayəsi, köməyi ilə bunu etdik. Naxçıvan Türkiyəyə açıldı”.

33 il bundan əvvəl “Ümid” körpüsünün üzərində kəsilən açılış lenti, əslində, iki dövlətə malik bir milləti yardımdan, əməkdaşlıqdan qardaşlığının rəmzinə çevrilmiş oldu.

* * *

Prezident İlham Əliyevin keçmişə boylanaraq, 1920-ci ildə Sovet hakimiyyətinin Qərbi Zəngəzurun Azərbaycandan ayrılaraq Ermənistana birləşdirilməsini, Azərbaycanın tərkib hissəsi olan Naxçıvanla quru əlaqəsini kəsməyə xidmət edən qərarını yada salması, Birinci Qarabağ müharibəsində Naxçıvanın işğal təhlükəsi ilə üzləşdiyi barədə dedikləri özündə semantik yük daşıyırdı. Cənab Prezidentin “Türkiyə–Azərbaycan dostluq və qardaşlıq tarixində mühüm gün” kimi xarakterizə etdiyi İğdır–Naxçıvan qaz kəmərinin açılışı ötən əsrin 90-cı illərinin əvvəllərində başlamış iki dövlət və bir millət arasında qardaşlıq münasibətlərinin ən güclü bağı kimi qiymətləndirilməlidir.

Martın 5-də açılmış qaz kəmərinə gəlincə, o, Naxçıvanın enerji təhlükəsizliyini tam təmin edəcək. Azərbaycan Prezidenti çıxışında vurğuladı ki, ümumilikdə, bu gün Türkiyə ərazisindən nəql olunan Abşeron qazı bir çox ölkələrin enerji təhlükəsizliyini təmin edir. Bakı–Tbilisi–Ceyhan, Bakı–Tbilisi–Ərzurum və TANAP layihələrinin nəinki ölkələrimizi birləşdirdiyini, həm də Avrasiyanın enerji xəritəsini dəyişdiyini vurğulayan İlham Əliyev Türk dünyasının daha sıx birləşməsi perspektivini yenidən aktuallaşdırdı, bu əbədi birliyin təmin olunduğunu, münasibətlərin ortaq maraqlar və ortaq tarix əsasında qurulduğunu bütün dünyaya bəyan etdi.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın “Bir millət, iki dövlət” sözləri ilə başladığı çıxışında Azərbaycan–Türkiyə qardaşlıq münasibətlərində hər sahədə böyük irəliləyişlərin əldə edildiyinə diqqəti çəkdi: “Ölkələrimiz arasındakı münasibətlər müdafiədən ticarətə qədər çox geniş sahədə daim inkişaf edir. Şübhəsiz ki, bu əməkdaşlıqlarımız arasında bir çox layihə ilə taclandırdığımız enerji sektoru başda yer alır. Bəzilərinin xəyal hesab etdiyi Bakı–Tbilisi–Ceyhan xam neft boru kəməri kimi, “Şahdəniz” yatağının və Bakı–Tbilisi–Ərzurum təbii qaz boru kəmərinin istismara verilməsi ilə enerji əməkdaşlığımızı daha da irəliyə aparmağa nail olduq. Anadoludan keçən təbii qaz boru kəməri – TANAP vasitəsilə böyük miqdarda Azərbaycan qazının Avropaya çatdırılmasının sevincini yaşayırıq. Bu sahədə strateji və qeyri-adi layihələri həyata keçirməkdə Can Azərbaycan ilə tam uzlaşma içərisindəyik”.

Hamımız şahidik ki, Türkiyə lideri bu mövqeyini 2020-ci ilin Vətən müharibəsi günlərində də təsdiqləyib. Biz 2023-cü ildə Türkiyənin Qəhrəmanmaraşında baş vermiş dəhşətli zəlzələ zamanı eyni mənzərəni gördük. O zaman Azərbaycan qardaş ağrısına ilk reaksiya verənlərdən oldu. Azərbaycan xilasedicilərinin səyi nəticəsində 50-dən çox insan dağıntılar altından sağ-salamat çıxarıldı. Həkimlərimiz 3 mindən çox insana tibbi yardım göstərdilər. Həmçinin qardaş Türkiyəyə 5500 tona yaxın humanitar yardım yola salındı. Artıq yaralarını sağaldan Qəhrəmanmaraşda “Azərbaycan” məhəlləsi salınıb, burada Heydər Əliyev adına məktəb açılıb.

* * *

Bunları qeyd edən R.T.Ərdoğan Türkiyənin Azərbaycana hər cür dəstəyi verməyə davam edəcəyini bildirdi: “6 fevral zəlzələləri başda olmaqla, ən çətin günlərimizdə necə ki Can Azərbaycanı yanımızda gördüksə, biz də qardaşlarımızın ehtiyac duyduğu hər an yanlarında olacağıq. İnşallah, Naxçıvan ilə elektrik əlaqələrimizin də gücləndirilməsi ilə bu prosesi davam etdirəcəyik”.

Türkiyə liderinin Azərbaycan Prezidentinin səsləndirdiyi fikirlərlə vəhdət təşkil edən açıqlamaları dünənki müttəfiqlərin barışmaz rəqibə çevrildiyi, ən güclü blokların sarsılmağa başladığı çağdaş dünyamızda Türkiyə–Azərbaycan qardaşlığının daha sarsılmaz olduğu və inkişaf etdiyi qənaətini təsdiqləyir.

Məhz bu tandem bütün Türk dünyası üçün xüsusi əhəmiyyət kəsb etməklə yanaşı, öz miqyası ilə xalqlarımızı birləşdirən mənəvi, tarixi və mədəni ailəni möhkəmləndirir.

Çıxışında Azərbaycanın hər zaman Türk dünyasının birləşməsinə çox böyük önəm verdiyini qeyd edən İlham Əliyev bu birliyi əbədi etmək və ortaq maraqlar və ortaq tarix üzərində əlaqələri qurmaq üçün səylərini əsirgəmədiyini nəzərə çatdırdı: “Bugünkü mərasim bir daha Türkiyə–Azərbaycan birliyini, dostluğunu, qardaşlığını göstərir, onun əyani təzahürüdür. Əminəm ki, Naxçıvanda yaşayan 500 minə yaxın soydaşımız gözəl Ramazan ayında bu mərasimi də bayram kimi qeyd edəcək”.

İğdır–Naxçıvan təbii qaz boru kəmərini qardaşlığın yeni bir layihəsi adlandıran Türkiyə lideri bunun strateji təşəbbüsləri tamamlamaqla yanaşı, Naxçıvan ilə ortaq taleyin bir nişanəsi olduğunu bildirdi: “BOTAŞ tərəfindən inşa edilən 80 kilometr uzunluğunda, gündəlik 2 milyon kubmetrə qədər nəqletmə qabiliyyətinə malik bu kəmər xüsusilə Naxçıvanın təbii qaz ehtiyacının hamısını ən azı 30 il müddətində təmin edəcək. Beləliklə, Naxçıvanın enerji təhlükəsizliyini uzun illər təmin edəcək bir layihəni qardaşımla birlikdə ölkələrimizə qazandırmış oluruq”.

Azərbaycan–Türkiyə qardaşlıq və əməkdaşlığının sarsılmazlığından danışan Cümhurbaşqanı iki qardas ölkənin daim sülhün, sabitliyin və rifahın tərəfində olduğunu önə çəkdi: “Bölgəmizdə ancaq sülh istəyirik, əməkdaşlıq istəyirik, hamımızın birlikdə inkişaf etməsini istəyirik. Bu məqsədlə indiyədək bir sıra addımlar atdıq, səmimiyyətimizi göstərdik. İnşallah, bundan sonra da sülh, rifah və əmin-amanlıqla bağlı layihələri birlikdə həyata keçirməkdə qətiyyətliyik”.

Ortaq tariximizin meyarı sayılan dahi şəxsiyyətlərin müəyyənləşdirdiyi yol xəritəsinin 30 il düşmən əsarətində inləyən Qarabağın xilasına apardığı kimi, Türk dünyasını daha böyük hədəflərə çatdıracağına əminik. Bu, iki qardaş ölkə arasında münasibətləri “Şuşa Bəyannaməsi” ilə müttəfiqlik zirvəsinə qaldıran iki liderın çiyin-çiyinə addımladığı yoldur.

***İmran BƏDİRXANLI***
***XQ***

# Yenə sərhəddə təxribat: Məqsəd nədir?

**Cənubi Qafqazın ekologiyası, o cümlədən Azərbaycan təbiəti Ermənistan tərəfindən terrora məruz qalır. Ərazilərimizin azad edilməsi ilə ekoloji terrora qismən son qoyuldu. Lakin onun qarşısını tam almaq mümkün olmadı. Bu gün də Ermənistan ərazisində formalaşan və ölkəmizin ərazisindən keçən çaylar bu ölkənin dağ-mədən sənayesi tərəfindən zərərli maddələrlə zəhərlənir və su ehtiyatlarına külli miqdarda ziyan vurulur. Nəticədə, onlar istifadə üçün yararsız hala gəlir, bu da ixtiofaunanın kütləvi şəkildə ölümünə səbəb olur.**

Onu da xatırladaq ki, tərkibində ağır metallar olan içməli su xərçəngə və digər ciddi xəstəliklərə də səbəb olur. Belə suyu təmizləmək çətindir və bu, yalnız böyük şəhərlərdə mümkündür. Kənd sakinləri isə tez-tez çayların zəhərli suyundan istifadə edirlər. Bu azmış kimi, sərhəddə yanğınlar da törədilir. Sonuncu belə yanğın Sədərək rayonunun Heydərabad yaşayış məntəqəsi yaxınlığında baş verib. Ermənistan silahlı qüvvələrinin hərbçiləri tərəfindən həmin ərazidə yanğın törədilib. Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyinin əməkdaşları həmin yanğını çətinliklə söndürüblər.

Ölkəmizə qarşı haylar tərəfindən həyata keçirilən ekoloji terrorun məqsədi isə təbiətin, endemik bitki və heyvan növlərinin, təbii ehtiyatların məqsədli və sistemli şəkildə məhv edilməsidir. Bu, dövlət səviyyəsində həyata keçirilən siyasətdir. Qarşı tərəfin sudan ekoloji terror və təhdid kimi istifadə etməsinin, ekoloji fəlakət törətmək niyyətinin sübutudur.

Hayastanın təxribatları bunlarla bitmir. İki ölkənin şərti sərhədində mövqelərimiz vaxtaşırı atəşə tutulur. Bu günlərdə Ermənistan silahlı qüvvələrinin bölmələri Gorus rayonunun Xanazax yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərindən ordumuzun mövqelərini atıcı silahlardan atəşə tutublar. Bu barədə Müdafiə Nazirliyindən (MN) məlumat verilib. Bildirilir ki, dövlət sərhədində baş verən gərginliyə görə bütün məsuliyyət Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşür.

O da məlumdur ki, bu hadisələr birbaşa sülh prosesinə, iki ölkə arasında münasibətlərin normallaşmasına ciddi zərbədir. Bunun günahkarı təkcə Ermənistan deyil, eyni zamanda, onları müdafə edən Qərb dövlətləridir. Çünki son aylar məhz Qərbin sərgilədiyi mövqe birbaşa regionda yenidən gərginliyin artmasına xidmət edir. Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin əməkdaşı Mətin Məmmədli XQ-yə bildirdi ki, Ermənistan – Azərbaycan arasında sülh prosesinə İrəvanın intensiv olaraq hərbi gücünü artırmaq siyasəti mane olur: “Ermənistanın bu siyasətinə regionda maraqları olan bəzi güc mərkəzlərinin dəstək verməsidir. İkinci Qarabağ müharibəsi bitdikdən sonra Ermənistan hökuməti hər il hərbi büdcəni artırır. Faktlara nəzər saldıqda görmək olar ki, 2021-ci ildə Ermənistanın hərbi büdcəsi 600 milyon, 2022-ci ildə 750 milyon, 2023-cü ildə isə 35 faiz artırılaraq 1,28 milyard dollar təşkil edib. 2024 – cü ildə hərbi büdcə 1,37 milyard dollara çatdırılıb. 2025-ci ilin dövlət büdcəsində müdafiə xərcləri əvvəlki illə müqayisədə 20 faiz artaraq 1,713 milyard dollar təşkil edib.

Son zamanlar yayılmış hesabatdan da aydın olur ki, Ermənistan ümumi daxili məhsulun (ÜDM) 6 faizini hərbi xərclərə ayırır və bu rəqəm postsovet məkanında ən yüksək göstərici hesab edilir. Ermənistanın hərbi gücünü artırmasında bir sıra dövlətlər, güc mərkəzləri də yaxından iştirak edirlər. Bu sırada, xüsusilə Qərbin aparıcı dövlətlərindən biri olan Fransanı və Hindistanı qeyd etmək olar. Fransanın regionla bağlı daha böyük geosiyasi planları, iddiaları və bölgənin təhlükəsizlik mühitinə neqativ təsir imkanları olduğundan Fransa – Ermənistan



hərbi əməkdaşlığı diqqəti daha çox çəkir. Paris – İrəvan hərbi əməkdaşlığı Ermənistanın Fransadan yeni silahların alınmasını, erməni ordusunda fransız hərbiçilərin təlimlər keçməsini və digər məsələləri nəzərdə tutur. Bu dəstəklər isə İrəvanı təxribatlara yönəldir, münasibətləri gərginləşdirməyə sövq edir. Son hadisələr də bunu deməyə əsas verir”.

M.Məmmədli onu da qeyd etdi ki, son zamanlar Ermənistanın silahlandırılması prosesində müəyyən çərçivədə Avropa İttifaqı da iştirak edir. “Doğrudur, Aİ-nın Ermənistan üçün ayırdığı hərbi yardım o qədər də böyük olmasa da, bu fakt Ermənistanın silahlandırılmasına birliyin “yaşıq işıq yandırması” kimi təhlükəli tendensiyadan xəbər verir. Ermənistan – ABŞ hərbi əməkdaşlığı da möhkəmlənir”. Onu da nəzərə alaq ki, iki ölkə arasında strateji tərəfdaşlıq münasibətlərinin vacib istiqamətlərindən biri kimi hərbi, təhlükəsizlik sahəsində əməkdaşlıq qeyd olunub. Ermənistanda “Eagle Partner 2024” adlı birgə Ermənistan – ABŞ hərbi təlimləri keçirilib. Buna baxmayaraq, bu iki ölkə arasında hərbi, təhlükəsizlik sahəsində əməkdaşlıq nə dərəcə effektli olacağını indidən söyləmək çətindir. Çünki Doland Tramp hakimiyyətə gəldikdən sonra xarici yardımları dayandırır. Ermənistanın Vaşinqtondan maliyyə dəstəyi alacağı indiki vəziyyətdə inandırıcı görünmür. Hazırda Trampın bütün diqqəti ABŞ-ın bürokratik sistemi, o cümlədən məhkəmə hakimiyyəti ilə apardığı “mübarizəyə" yönəlib.

Digər tərəfdən, Trampın Ağ evə qayıtdıqdan sonra imzaladığı ilk fərmanlardan biri USAID-in ləğvi olub. Vaşinqton bu dövlət qurumundan müxtəlif regionlardakı ölkələrin daxili işlərinə müdaxilə üçün "yumşaq güc" aləti kimi istifadə edirdi: O cümlədən Cənubi Qafqazda. Xatırladaq ki, Bayden administrasiyası USAID vasitəsilə Ermənistana ayrılan yardımları kəskin şəkildə artırmışdı. Məqsəd isə Ermənistanı ABŞ-ın regional forpostuna çevirmək idi. Hazırda ABŞ Dövlət Departamenti və USAID tərəfindən Ermənistana ayrılan bütün yardım vəsaitlərinin dondurulduğu bildirilir.

**Politoloq Aydın Quliyev isə bizimlə söhbətində dedi ki, son vaxtlar sərhddə törədilən hadisələr Ermənistanın sülhə marağı olmadığını nümayiş etdirir.** Əs-



lində, bu, Ermənistana beynəlxalq miqyasdan, xüsusilə də Avropa İttifaqından verilən yanlış, qızışdırıcı dəstəyin nəticəsidir. Hazırda Ermənistan sülh sazişini imzalamağa tələsmir, Azərbaycanın verdiyi təkliflərə məhəl qoymur, daha çox pozucu hərəkətlər edir. Belə şəraitdə, əlbəttə, Ermənistanın təxribat xarakterli addımlar atması tammamilə məntiqlidir. Bu ölkəni Aİ-nin yalnış dəstəyi həvəsləndirir. Bu günlərdə Hayastana 10 milyon avrodan artıq yeni maliyyə dəstəyinin göstəriləcəyi barədə xəbərlər də hayları təxribata sövq edir.

Mülki missiyanın nümayəndələri Azərbaycanla sərhədə gəlir, mütamadi şəkildə lüzumsuz monitorinqlər aparırlar. Sərhədçilərimizə qarşı qızışdırıcı addımlar və hərəkətlərə yol verirlər. Bundan başqa, avropalı məmurların İrəvana səfərləri də artıb. Bu şəraitdə Hayastanın sərhəddə təxribat törətməsi, ona göstərilən dəstəyin birbaşa nəticəsidir. Bir tərəfdən Ermənistanın özü sülhün bərqərar olmasında maraqlı deyil. Digər tərəfdən də Ermənistanın dəstəkçisi olan beynəlxalq oyunçular onu bu sayaq addımlara sövq edirlər.

Son vaxtlar Aİ nümayəndələri belə qızışdırıcı siyasətlərini artırıblar. Onlar düşünürlər ki, ABŞ – Rusiya münasibətlərində yavaş-yavaş yumşalmalar var və bu, Moskvanı İrəvana qarşı daha güclü təzyiqlərə sövq eləyə bilər. Yəni Moskva–Vaşinqton yaxınlaşması Ermənistana yeni təzyiq imkanları açır. Bu şəraitdə Avropa rəsmiləri Ermənistanın hakimiyyətinə hərbi-siyasi, diplomatik dəstəyi artırırlar. Bu gün sərhədlərimizdə törədilən təxribatlar Aİ-nin hərbi-siyasi və diplomatik dəstəyinin nəticəsidir. Bu, birbaşa sülh prosesinə, iki ölkə arasında münasibətlərin normallaşmasına ciddi ziyan vurur.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

# Azərbaycan – Türkiyə: Naxçıvan sinerjisi



I MƏQALƏ

## Tarixi həqiqət anı

Martın 5-də Ankarada İğdır – Naxçıvan qaz kəmərinin videobağlantı formatında keçirilən açılış mərasimində Azərbaycan Prezidenti İlham Əliyev çıxışına tarixi tezislərlə başlamışdır. Dövlət başçısı vurğulamışdır ki, "Bu gün Türkiyə – Azərbaycan dostluq, qardaşlıq tarixində önəmli bir gündür – İğdır – Naxçıvan qaz xəttinin açılışı qeyd edilir".

Bu başlanğıc mühüm enerji layihəsinin iqtisadi fakt kimi reallaşmasının əhəmiyyətini qeyd etməklə yanaşı, dərin geosiyasi və geoiqtisadi anlamı olan bir həqiqətə işarədir. Bu, tarixi həqiqət anıdır ki, onun geosiyasi, dövləti, geoiqtisadi mənası Türk dünyası və müstəqil dövlət konteksti bizi duyğusal olaraq və fikrən bir əsr öncəyə aparır. O illərə ki, bu günün reallıqlarından baxaraq, ibrət dərsi götürmək və Azərbaycanın indiki fərəhli günlərinin o zaman niyə olmadığının səbəblərini dərk etmək üçün düşünməliyik. O halda Prezident İlham Əliyevin fikrində Azərbaycan və Türkiyənin iki bölgəsinin arasında təbii qaz "bağlantısının qurulması"ndan çox, iki müstəqil türk dövlətinin tarixi nailiyyətindən getdiyini yığcam ifadə etdiyini deyə bilərik. Həmişə olduğu kimi, səbəbini də aydın və konkret göstərmişdir.

Azərbaycan Prezidenti sözlərinə belə davam etmişdir: "Bildiyiniz kimi, Naxçıvan qədim Azərbaycan torpağıdır. Ancaq artıq bir əsrdən çoxdur ki, Azərbaycanın əsas hissəsindən ayrılıb. Bunun səbəbi ondan ibarətdir ki, Azərbaycan Xalq Cümhuriyyəti 1920-ci ildə süqut edəndən beş ay sonra sovet hakimiyyəti Qərbi Zəngəzuru Azərbaycandan ayırıb Ermənistana birləşdirdi və beləliklə, Azərbaycanın əsas hissəsi ilə onun ayrılmaz hissəsi olan Naxçıvanla quru bağlantısı pozulub".

Enerji layihəsinin həyata keçməsindən dövlətçilik məsələsinə tarixi rakursda keçid etmənin çox gözəl nümunəsidir. Həqiqətən, XX əsrin ikinci onilliyinin sonları və üçüncü onilliyinin əvvəllərində Azərbaycanın ölkə olaraq qanlı-qadalı mərhələni yaşamasının müxtəlif səbəbləri üzərində bir daha düşünməliyik. Anqlo-saks, Rusiya və Osmanlı imperiyalarının qarşıdurmasının yaratdığı regional geosiyasi turbulentlikdən Azərbaycan bütöv çıxa bilmədi. O dövrdə anqlo-sakslar və ruslar açıqca türklərdən güclü idilər. Onlar müxtəlif bəhanələrlə türk torpaqlarını parçalayıb qeyri-türklərə (əsasən, ermənilər və gürcülərə, lakin son həddə Rusiyaya) vermək niyyətində idilər.

Bu prosesdə Zəngəzur strateji rol oynayırdı. İki aspektdə belə idi: Birincisi, Zəngəzur Azərbaycanla Türkiyəni və deməli, ümumi halda Türk dünyasını birləşdirən coğrafi məkan və geosiyasi region kimi önəmli idi. İkincisi, məhz bu potensial roluna görə, Zəngəzur türkləri bütün anlamlarda bir-birindən ayırmaq və sonra məğlub olana qədər "vurmaq" məkanı idi.

Ermənilər, təbii ki, ikinci düşərgədəkilərin əl buyruqçusu oldular. Onların nə sivil siyasəti, nə də mərhəməti var. Rusiya imperiyası da radikalizmi və türk-müsəlmana nifrəti körükləyir, vəhşi erməni qruplarını azərbaycanlıların üstünə qısqırırdılar. Bu ədalətsiz və vəhşi səhnələrin mərkəzlərindən biri Zəngəzur oldu.

O dövrün rəsmi sənədlərindən məlum olur ki, düşmən Zəngəzurdan azərbaycanlıların həm mədəni və mənəvi, həm də fiziki izlərini itirmək üçün bütün vasitələrdən istifadə etməyə çalışırdı. Ayrıca, quldur Njdenin silahlı dəstələri azərbaycanlılara qarşı əsl soyqırımı törətməkdən çəkinmədilər. Qısa müddətdə Njdenin quldur dəstələri on minlərlə azərbaycanlını öz yurdundan deportasiya etdi. Özbaşına orada hakimiyyət qurduğunu elan etdi. Lakin sonradan bolşeviklərlə onun arasında ziddiyyət yarandı və yerini Andranik və onun vəhşi dəstələrinə verdi. Zəngəzurda onlar rusların, ingilislərin, yankilərin, fransızların, almanların açıq və gizli dəstəyi ilə azərbaycanlıları kütləvi şəkildə qətlə yetirdilər və imkan olan yerdə öz yurdlarından qovdular. Millət vəkili Musa Urudun "Zəngəzur" kitabında bununla bağlı çox sayda tarixi faktlar gətirilir. Onların yalnız bir qisminə baxaq.

### Zəngəzurda imperiya xəyanəti və erməni vəhşiliyi

M.Urud yazır ki, I Dünya müharibəsi başlananda bütün ermənilərin katolikosu V Gevorq Qafqaz canişini Vorontsov-Daşkova müraciət edərək "erməni məsələsi"ni həll etmək üçün əlverişli şərait yarandığını bildirmiş və kömək üçün yalvarmışdır. 1914-cü ilin 20 dekabrında isə o, II Nikolayla görüşmüşdür. II Nikolayın cavabı: "...Siz nə arzu edirsinizsə, yerinə yetiriləcək...". Bu vədin Zəngəzurda təzahürü azərbaycanlılara qarşı soyqırımların şiddətlənməsində əks olundu. 1918-1920-ci illərdə dünyada görünməmiş qətlləri ermənilər azərbaycanlılara qarşı törətdilər.

Bu prosesdə polkovnik Pirumov, komissar Dro, tayqulaq Andranik xüsusi canfəşanlıq göstərmişlər. Onlar bu zaman alçaqcasına azərbaycanlıları günahlandırmışlar. O dövrdə Zəngəzurun qəza rəisi olmuş Məlik Namazəliyev Azərbaycan Demokratik Respublikasının Daxili İşlər Nazirliyinə vurduğu teleqramda göstərirdi ki, ermənilərin kəndləri dağıtması nəticəsində 50 min müsəlman qaçqın düşmüş və Cəbrayıl rayonuna sığınmışdır. Rəsmi sənədlərə əsasən Zəngəzurda qısa müddətdə 115 müsəlman kəndi dağıdılmışdır. Bütün qəza üzrə 10 mindən çox müsəlman qətlə yetirilmiş və şikəst edilmişdir.

Zəngəzurun qəza rəisi N.Namazəliyevin 1918-ci il 22 sentyabr tarixli məruzəsində yazılmışdır ki, 20-yə yaxın kəndi Andranik Zəngəzur ermənilərinin xahişi ilə dağıtmışdır ("qədim və mədəni" xalqın nümayəndələrinin xahişinə diqqət edin). Ağdü və Vagədi kəndlərinin xüsusi faciələri ilə bağlı mənbələrə əsaslanan M.Urud çox ağrılı səhnələri təsvir edir. İnsan onları Qərbi Azərbaycanda və Qarabağda XX əsrin sonlarında törədilmiş cinayətlərlə müqayisə edir və göz yaşı axıtmadan keçinmək mümkün deyildir!

Doğrudanmı, "insan" adlanan məxluq bu dərəcədə vəhşiləşə bilər? Bizim, indi sual kimi ifadə etdiyimiz təəccübü zəngəzurlular real həyatda yaşamışlar. Bu, yalnız azərbaycanlıların deyil, bəşəriyyətin faciəsidir, lakin təəssüf ki, hələ də özünü böyük və güclü sayanlar bu tarixi həqiqəti etiraf edə bilmirlər! Onların ədaləti və cəsarəti çatmır!

Bir faktı da xatırladaq. 1918-ci il dekabrın 14-də Gəncə qubernatorunun vurduğu 70 saylı teleqramda deyilir ki, A.Mikoyanın təhriki ilə Andranik və Namazaspın vəhşi silahlı dəstələri Zəngəzurdan keçib Qarabağda faciələr törətmişlər. İnsanları qətlə yetirmişlər. Bu qəbildən olan və real baş verən minlərlə fakt mövcuddur. Onlara verilən siyasi və geosiyasi reaksiyalar çox düşündürücüdür.

Onları təhlil edərkən Azərbaycan Prezidentinin Zəngəzur hadisələri ilə bağlı vurğuladığı məqamların millət və dövlət olaraq bizim üçün nə dərəcədə əhəmiyyətli olduğunu anlayırsan. Prezident İlham Əliyev bu kontekstdə, sözün həqiqi mənasında, regionda Azərbaycanın dövlət, ölkə və xalq olaraq geosiyasi statusunu obyektiv müstəvidə məharətlə təqdim edir və tarixdən ibrət dərsi almağı ön sıraya çıxarır. Yuxarıda verdiyimiz sitatda bu məqam yığcam və ədalətli ifadə edilmişdir.

Belə ki, XX əsrin ikinci onilliyinin sonu üçüncü onilliyinin başlanğıcında dünyanın və regionun böyük gücləri faktiki olaraq erməni vəhşiliyini ya körükləmişlər, ya da qarşısını ala bilməmişlər. Konkret olaraq, xristian imperiyalar ermənilərdən alət kimi geniş istfadə etmişlər. Bunun qarşısını nə Osmanlı, nə də Azərbaycan Demokratik Respublikası ala bilmişdir. Rəsmi sənədlər göstərir ki, həmin dövrdə rəsmi Bakı dəfələrlə həmin imperiyaların buradakı təmsilçilərinə erməni vəhşiliyi və bunun fonunda azərbaycanlıların qurban getməsi faktını çatdırmışlar. Lakin sonucda yenə günahkar ADR çıxarılmışdır.

İmperiyalar, (onların başında Rusiya imperiyası gəlirdi), yerlərdə rəsmi nümayəndələrini özlərinin istifadə etdiyi vəhşi erməniləri təyin edir və sonra bütün işləri onların boynuna atırdılar. Bir tərəfdən ermənilərə torpaq alırdılar, digər tərəfdən isə özlərini təmizə çıxarırdılar – guya, təhrik edən onlar deyillər (dil mübahisəsinə bir də bu "mədəni davranış" işığında baxın, "yüksək səviyyəli" rusdilli ziyalılar və orda-burda yad mədəniyyətə və dilə haqq qazandırmağa çalışanlar). Bax, həm də bu kimi həqiqətlərə görə İğdır – Naxçıvan qaz bopu xətti coğrafi və maddi mənaya sığmır – onun Naxçıvanda Azərbaycan – Türkiyə sinerjisinin əsasında ümumtürk sinerjisinə verdiyi təkan əvəzsizdir!

### XXI əsrə keçmiş tarixi ədalətsizlik

Azərbaycan Prezidenti Ankarada sözlərinə belə davam etmişdir: "Bir əsrdən çox davam edən bu ədalətsizlik Naxçıvanda yaşayan bizim soydaşlarımızın həyatına çox mənfi təsir göstərmişdir. Xüsusilə Birinci Qarabağ savaşı başlayan kimi Ermənistan Qarabağı işğal etdi və eyni zamanda, Naxçıvanı blokadaya aldı. Onların planları Naxçıvanı da işğal etmək idi. Ancaq o zaman mənim atam Heydər Əliyev Naxçıvanın rəhbəri kimi buna imkan vermədi və Naxçıvanı qorumaq üçün bütün naxçıvanlılar səfərbər oldular, öz doğma torpaqlarını qorudular və işğalçını yerində oturtdular".

Burada tarixi-geosiyasi kontekstdə çox əhəmiyyətli məntiqi mahiyyət vardır. Məsələ ondan ibarətdir ki, Prezident İlham Əliyev keçən əsrin əvvəllərində Azərbaycan və həm də bütövlükdə Türk dünyasına qarşı görülən işləri ümumiləşdirərək dövlətçilik kontekstinə dəqiq qiymət vermişdir. Burada bir neçə fundamental tezis qarşılıqlı bağlantıda təqdim olunur.

Birincisi, Naxçıvan qədim Azərbaycan torpağıdır. Bütün həqiqətlərin təməlində bu tarixi gerçəklik dayanır. Kimliyindən asılı olmayaraq hər bir dövlət ondan çıxış etməlidir. Əks halda nəinki bir regionu, bütövlükdə Türk dünyasını fəlakətlər bürüyür, ədalətsizlik baş alıb gedir, etnik mənsubluğundan asılı olamayaraq, hər bir yerli xalq faciələrlə üz-üzə qalır. Məhz bu həqiqəti qəbul etmək istəməyənlər yüz ildən çoxdur ki, tarixi ədalətsizliyin davam etməsinə çalışırlar. Zəngəzur məsələsi müstəqil dövlətçilik aspektində bu məqamda geoiyasətin vacib bir faktoruna çevrilir.

İkincisi, 1920-ci ildə Qərbi Zəngəzuru Azərbaycandan qoparıb süni yaradılan Ermənistana qatmaqla müəyyən dairələr, sadəcə olaraq, Azərbaycanı ikinci dəfə parçalamadılar - onlar bu coğrafiyada geosiyasi mənzərədə öz yeri və rolu olan Azərbaycan dövlətçiliyinə ciddi zərbə vurdular. Fakt odur ki. həmin dövrdə Azərbaycanda hakimiyyətdə olanlar bu faciənin qarşısını ala bilmədilər.

Üçüncüsü, bütün bunların geosiyasi və siyasi-coğrafi nəticəsi həm ayrılıqda Azərbaycan, həm də bütövlükdə Türk dünyası üçün ağır proseslərə start verdi. Yəni həm bir türk ölkəsi kimi Azərbaycan bütövlüyünü itirdi və qlobal miqyasda türk ölkələri arasında quru əlaqə kəsildi. Türk dünyası təcrid olunmuş və parçalanmış hala düşdü. Belə şəraitdə ümumi maraqlardan danışmaq yersiz idi.

Bununla XX əsr boyu Azərbaycan Naxçıvanın qurudan təcridini, Sovet Azərbaycanı olmağı, Qarabağın işğalını, növbəti torpaq əldən vermələri, erməni deportasiyalarını və qətliamlarını yaşamalı oldu.

Proses zaman baxmından XX əsrdə bitmədi – həmin ədalətsiz və təhlükəli gedişat XXI əsrə keçdi. Bununla bir neçə məqam dövlətçilik baxımından Azərbaycan üçün dərkedilməli aktuallıq kimi özünü göstərdi.

Birincisi, Azərbaycanda dövlət quruculuğu strategiyasının kriteriyaları zamanın tələbinə elə uyğunlaşdırılmalı idi ki, XX əsrin əvvəllərində buraxılan səhvlər təkrar olmasın. İkincisi, dövlətin ərazi bütövlüyünün bərpası və suverenliyinin tam təmini əsasında yenidən türk dünyası ilə bütövləşməyin sinerji mənbəyinin Azərbaycan olmasını təmin etmək gərəkdi. Üçüncüsü, bunu məharətli siyasi-diplomatik addımlar, konkret layihələr və "bir millət, iki dövlət" kəlamı əsasında reallaşdırmaq lazımdı.

Naxçıvanın Türkiyə ərazisindən keçməklə qazla tam təmin edilməsinə nail olmaq bunların təsdiqidir. Naxçıvan artıq enerji baxımından təcriddə deyildir! "Enerji" burada həm təbii anlamında, həm də dövlətçilik aspektində işlənən anlayış kimi başa düşülür. Faktiki olaraq, Naxçıvan Türk Birliyinin sinerjisinə yenidən ciddi təkan verir. Bu, artıq növbəti mərhələdir. Onun əsas əlamətlərini Prezident İlham Əliyev açılış mərasimindəki çıxışında ifadə etmişdir.

**(ardı var)**

*Füzuli QURBANOV,*
*XQ-nin analitiki,*
*fəlsəfə elmləri doktoru*

# "Böyük manipulyator"

*Mark ENDEVELD*

*(əvvəli ötən saylarımızda)*

### "Şef" Makron mövqe seçir

Makron çox gözəl bilir ki, onun siyasətini saxlayan sütunlarından biri müdafiədir. 39 yaşında dövlət başçısı seçilən bu adam Fransanın tarixində ilk prezidentdir ki, hərbi xidmət keçməyib. Ona görə də gənc prezident həm fransızlara, həm də orduya göstərmək istəyir ki, hərbi işdə təcrübəsiz olmasına baxmayaraq, ölkədə Ali Baş Komandan odur. Bu məqsədlə o, şahmat oyununda olduğu kimi, Xarici İşlər Nazirliyi ilə Müdafiə Nazirliyi arasında elə bir kombinasiya qurur ki, hər ikisini öz əlində saxlaya bilsin.

Beləliklə, Le Drian Müdafiə Nazirliyindəki sadiq komandasından zorla ayrılıb, yaxşı tanımadığı Xarici İşlər Nazirliyinə göndərilir. Müdafiə Nazirliyinə isə Emmanuel Makron real siyasi çəkisi olmayan piyadalarını təyin edir: Birinci Silvi Qulard – keçmiş Avropa deputatı, poliqlot – yeri gəlmişkən, onu Xarici İşlər Nazirliyinə göndərmək daha məqsədəuyğun olardı – ancaq ordudan, hərbidən qətiyyən başı çıxmayan bir adam müdafiə naziri təyin olunur. Bu qadın qısa bir müddətdən sonra öz xahişi ilə istefa verən kimi prezident onun yerinə keçmiş iqtisadiyyat naziri Loran Fabiüsün keçmiş büdcə müşaviri, texnokrat Florans Parlini təyin edir. Hər şey daha aydın olsun deyə, Makron qərara alır ki, Müdafiə Nazirliyinin adını dəyişib "Silahlı Qüvvələr Nazirliyi" qoysun və bununla da hamıya göstərsin ki, Şarl De Qolun dövründə olduğu kimi, müdafiə məsələlərinə ancaq və ancaq Yelisey sarayı qərar verir və Ali Baş Komandan da onun özüdür.

2017-ci il may ayının 14-də yeni prezidentin andiçmə mərasimi günü Emmanuel Makron Yelisey tarlalarında Zəfər Tağına doğru irəliləyən hərbi maşında farağat komandası almış hərbçi kimi dayanır. Sonra Persi hərbi hospitalına gedib yaralı əsgərlərə baş çəkir. Hara baxsan, prezident ordadır: Gedib Afrika ölkələrində cihadistlərə qarşı mübarizə aparan Barkhane əməliyyatında iştirak edən hərbçilərlə də görüşür, sonra əyninə yaşıl pilot kostyumu geyinib kameraların qarşısında sualtı nüvə gəmisinin ekipajı ilə görüşür.

Müdafiə Nazirliyində Levandovski yeni padşah Makronun yeganə qurbanı deyil. 2017-ci ilin iyul ayından etibarən Fransa silahlı qüvvələrinin baş qərargah rəisi Pier de Villiye də vəzifəsindən azad edilir. Əvvəlcə, Makron qərara almışdı ki, onu bir il öz vəzifəsində saxlasın və yerinə sanballı adam tapandan sonra Levandovski kimi dalından dəysin. Amma bu çox yüksək rütbəli baş zabit, Milli Assambleyanın Müdafiə komitəsi qarşısında, prezidenti hərbi büdcəyə lazımi qədər vəsait ayırmadığı üçün tənqid edir. Bu iclas bağlı qapılar arxasında məxfi keçirilsə də, orada gedən söhbətlər hansı yollasa mətbuata sızır və beləliklə, Yelisey sarayının qəzəbinə səbəb olur. İyulun 14-də, Fransanın Milli bayramı günü, Müdafiə Nazirliyinin bağçasında, Makron ordu rəhbərlərinin qarşısındakı ilk çıxışında, Pier de Villiyeni "yerinə otuzdurur" və kobud şəkildə davakar uşaq kimi ona deyir: "Yaddan çıxarmayın ki, mən sizin şefinizəm!".

Bir neçə gün sonra Pier de Villiye prezident tərəfindən vəzifəsindən qovulur. Makron onun yerinə general Fransua Lekuantrı təyin edir. Bu 56 yaşlı yüksək rütbəli zabit, əvvəllər İraqda, Somalidə, Ruandada xidmət göstərəndən sonra ona çox strateji bir iş – əvvəlki prezidentin hakimiyyəti dövründə – Baş nazirin hərbi kabinetinin rəhbərliyi tapşırılır.

Makron Fransua Lekuantrı hələ prezident seçkilərindən əvvəl tanıyırdı və onu 2018-ci ildən etibarən Fransa silahlı qüvvələrinin baş qərargah rəisi təyin etməyi planlaşdırırdı. Onları hüquqşünas və yazıçı Fransua Süro tanış etmişdi. General Lekuantrın, Makronun xoşuna gələn başqa bir üstün cəhəti də var: O, Baş nazir Eduard Filippi yaxşı tanıyır – onlar Milli İdarəetmə Məktəbində bir dövrdə oxuyublar.

Əvvəlcə, Makron istəyirdi ki, prezident seçilən kimi bütün hərbi rəhbərləri dəyişdirsin, ancaq sonra bu fikrindən vaz keçdi. Bununla belə o, polis və daxili təhlükəsizlik məsələləri ilə o qədər də maraqlanmasa da, orduda və müdafiə məsələlərində heç nəyi əldən buraxmaq istəmir.

### Sənayeçilərə qarşı şiddətli və kəskin tənqid

14 iyul böhranından sonra dövlət başçısı hərbçilərə olan sevgisini hamıya sübut etməyə çalışır. 2015-ci ilin yanvar ayındakı terrorist hücumlarından sonra o, Sentinelle missiyasının yenidən təşkil olunduğunu elan edir və o cümlədən, bu missiyanın hərbçilərini tədricən üç yerə bölür. Ən əsas da ordunun gələcək büdcəsini 2025-ci ilə qədər təsdiqləyir və çıxışlarında bu məsələləri




dəfələrlə vurğulayır. Ancaq ümumbəşəri hərbi xidmət layihəsindən danışanda, hərbi iyerarxiyanı narahat edir.

2017-ci ilin sentyabrında Makron Yelisey sarayının bayram zalında, LREM (Respublika Hərəkətdə Partiyası) partiyasından olan deputatları, eləcə də müdafiə və kəşfiyyat sahəsinin bir neçə yüksək rütbəli rəhbərlərini qəbul edir. Sarayın qızılı tavanı altında prezident hərbi məsələlərlə bağlı "öz" konsepsiyasını, eləcə də şəxsi geostrateji baxışlarını onlara təqdim etmək üçün uzun bir monoloqa başlayır. Makron diplomatik qaydalara əməl etmədən demək istədiklərini natiqlik süzgəcindən keçirmədən gözünü yumub ağzını açır: "Mən müzakirə və dialoq tərəfdarıyam. Amma çərçivə içərisində. Mən silahlı qüvvələrin baş qərargah rəisini işdən çıxaranda hamı elə fikirləşdi ki, prezident müzakirə və dialoq tərəfdarı deyil. Bu yanlış fikirdir! Mən dialoqdayam, amma əmr edən də mənəm; mənim prezident kimi sizə ehtiyacım olsa da, siz ancaq mən dediyimi etməlisiniz...". Sonra Makron silah istehsalçılarına qarşı şiddətli və kəskin tənqidə başlayır: "Məndən əvvəlkilər hərbi doktrina sahəsinə xeyli sərmayə qoydular – niyə? Çünki silah sənayeçilərinin çaldıqları ilə oynadılar. Mənimlə o dövr bitdi. İndi bizi ehtiyacımız olmayan materialları almağa heç kim məcbur etməyəcək...".

Onun bu hay-küylü danışığı ancaq naşıları heyran edir. Nəticədə, institut auditoriyasında olduğu kimi, Makron, demək olar ki, qırx beş dəqiqə ərzində dayanmadan mühazirə oxuyur. Köhnə hərbçilərdən biri təəssüflə başını bulayıb burnunun altında narazılıqla donquldanır: "Makron ümumi formaya yaxşı bələddir, amma bu formanı təfərrüatlarla izah etməyə başlayanda axmaqlayır. Danışdıqları A-dan Z-yə qədər cəfəngiyatdır... SOS!". Nitqindən sonra, həmişə olduğu kimi, Makron bu dəfə də deputatlarının verdiyi hər bir suala uzun-uzadı cavab verir, onlara nə etmək lazım olduğunu, harada nəyi necə demək lazım olduğunu ətraflı başa salır... Makronun danışığında ideoloji korpus və dərin mənalı fikirlər tapmayan iclas iştirakçılarına elə gəlir ki, prezident onlara Siyasi Elmlər İnstitutunda olduğu kimi "düşünmək tələb etməyən yüngül və hazır ideyalar çatdırır...". Neyləmək olar, Yelisey sarayında bəzən çox az şeylə də kifayətlənirlər.

### Hərbi sənaye kompleksi

Makronun fikrində ancaq bir şey var: qırx ildən bəri respublikanın bütün sirlərinin xəzinəsi olan fransız hərbi sənaye kompleksi. Ona görə də Makron üçün bu sektorda öz mövqeyini möhkəmlətmək böyük strateji və həyati əhəmiyyət kəsb edir. Fransa silahlı qüvvələrinin baş qərargah rəisi Pier de Villiyeni vəzifəsindən azad edəndən üç həftə sonra Makron ilə Kohler bu dəfə də Baş Silahlanma İdarəsinin rəhbəri Lorant Kollet-Biyyonu işdən çıxarmaq qərarına gəlirlər. Bu məsələ mətbuatda sensasiya doğurmasa da, çox vacib bir əhəmiyyət kəsb edir. Məsələ burasındadır ki, Baş Silahlanma İdarəsi hərbi sənaye kompleksinin döyünən ürəyidir. 67 yaşlı Lorant Kollet-Biyyon doqquz il nöqsansız xidmətdən sonra general Pier dö Villiye kimi Le Driana yaxın olmağının cəzasını çəkir. Onun yerinə karyerasının bir hissəsini kosmos sənayesində keçirən, 64 yaşlı Joel Barrey təyin olunur. Təxminən 9 min 800 işçisi olan Baş Silahlanma İdarəsi ordunu silahla təchiz etmək üçün sifarişlər almaqla, texniki testlər keçirməklə, sınaq tədqiqatları aparmaqla, eləcə də hərbi texnikanı modernləşdirməklə məşğuldur. Onu da qeyd etmək lazımdır ki, fransız ordusu Baş Silahlanma İdarəsinə hər il 15 milyardlıq sifariş verir.

**(ardı var)**

XQ-nin şərhi

# Paşinyanın “göz yaşları” Moskvanı inandıracaqmı?



(əvvəli 1-ci səhifədə)

Hər halda, Paşinyan iqtidarı təmsilçilərinin Bakıda məhkəməsi davam edən ermənilərdən zəhlələrinin getdiyi məlumdur. Götürək elə, separatçı rejimdə “dövlət naziri” oyuncaq postunu tutmuş rusiyalı milyarder Ruben Vardanyanı. Rəsmi İrəvan niyə onun müdafiəsinə qalxsın? Axı Vardanyan Paşinyanı devirmək çağırışını səsləndirmişdi. O, Qarabağa, faktiki olaraq, Qarabağ klanının vaxtilə getdiyi yolda addımlamaq məqsədi ilə yerləşdirilmişdi. Ssenari belə idi: Vardanyan Qarabağa sahiblənəcək, sonra Ermənistanın rəhbəri olacaq. Eynilə ölkənin ikinci prezidenti Robert Koçaryan kimi. İndi isə Nikol Ermənistanda yeni vardanyanların peyda olmasından əndişələnir. Fikrimizi əsaslandırmaq üçün bir məqama da diqqət yetirək.

Hay siyasi kluarlarında gedən söhbətlərə görə, Ermənistan iqtidarındakılar ABŞ-da Donald Trampın prezidentliyə başlaması ilə Qərbin anti-Rusiya kampaniyasının sıradan çıxdığını görüblər. Nikol ABŞ-a səfər etsə də, orada onu sayan olmadı. Hazırda erməni hakim komandasını düşündürən məsələ, necə olursa-olsun, iqtidarı qorumaqdır. Bunun üçün isə Rusiyaya yarınmaq əsas götürülür. Məsələn, Ermənistanın “Hraparak” nəşrinin yazdığına görə, N.Paşinyan dövlət müəssisələrinə Moskva ilə üfüqi idarələrarası əlaqələrin və təmasların bərpasını, bütün tədbirlərdə, görüşlərdə iştirak etməyi tapşırıb. Nəzərə alaq ki, “Azərbaycanda saxlanılan erməni məhbuslar” məsələsi fonunda Qarabağın işğalı ritorikası isə Ermənistanın Rusiyameyilli müxalifətinə, daha dəqiq desək, rusbaşlı revanşist və şovinist kəsimə məxsus gündəlikdir. Paşinyan iqtidarı indiki davranışı ilə məhz həmin gündəliyə sahiblənir.

Nikol sözügedən gündəliyə AZAL-ın təyyarəsi ilə bağlı məsələ səbəbindən Bakı və Moskva arasındakı gərginliyə siyasi sərmayə yatıraraq sahib çıxmağı düşünür. Deməli, sülh danışıqlarını faktiki iflic duruma gətirməklə rəsmi İrəvanın qarşıdakı müddətdə hansı yolu tutacağını da proqnozlaşdırmaq mümkündür. Nikol və tərəfdarları tezliklə revanşistlər kimi, Qarabağın Azərbaycan tərəfindən, guya, işğal olunduğunu bildirsələr, bölgəni ayrıca subyekt qismində göstərməyə çalışsalar, qətiyyən təəccüblənmərik. Rəsmi İrəvanın sülh danışıqlarını dayandırdığını bəyan etməsini də proqnozlaşdıra bilərik. Hətta Paşinyanın Qarabağ da daxil olmaqla, Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini tanıdığını danması da mümkündür. Axı onun üçün nəyisə danmaq su içimi kimi bir şeydir.

Erməni iqtidarı hələlik, belə demək mümkünsə, xırda həyasızlıqlarla keçinir.

Ancaq N.Paşinyanın həyasızlığı heç də xırda deyil. Onun nə dediyini, eləcə də bir qədər əvvəl bildirdiklərimizi nəzərə alsaq, ortaya maraqlı məqamlar çıxır. O məqamlar ki, onların bütövlükdə Azərbaycan-Ermənistan sülh gündəminin hazırkı trayektoriyasına təsir göstərməyə hesablandığı qənaətini bölüşmək olar. Elə isə görək Nikol ölkə parlamentindəki çıxışında nə deyib.

Ermənistanın baş naziri bildirib ki, “bizdə məhbuslara qarşı qadağan olunmuş vasitələrdən istifadə edildiyinə dair məlumat var. Onlara işgəncə verirlər”. Göründüyü kimi, Nikol cəfəngiyyat tirajlamaqla məşğuldur. Baş nazir revanşistlərdən daha pis erməni olduğunu göstərir. Sual yaranır: Nikolun düşüncəsindəki qadağan olunmuş vasitə nədir? Belə getsə, Paşinyan və tərəfdarları tezliklə kino danışacaqlar. Məsələn, onlar sərsəmləyə bilərlər ki, Bakı həbsxanalarındakı ermənilərin bədənlərinə müxtəlif preparatlar yeridilir və bununla beyinləri yuyulur.

Diqqət yetirək, Qarabağdakı keçmiş separatçı rejimin rəhbəri olmuş Arayik Arutyunyan məhkəmədəki çıxışında bildirib ki, 44 günlük müharibə zamanı bütün əmrləri İrəvandan alırmış. O, eyni zamanda, ölkəmizin iri şəhərlərinin raket atəşinə tutulması göstərişini də Ermənistan rəhbərliyinin verdiyini vurğulayır. Görünür, məhkəmə davam etdikcə, hələ çox mətləblər üzə çıxacaq. Özünü demokrat adlandıran Ermənistan hakimiyyətinin cinayətkar mahiyyətindəki ayrı-ayrı xüsusiyyətlər də həmçinin. Belədə rəsmi İrəvan Bakı prosesini şou kimi qiymətləndirməsin, beynəlxalq miqyasda mövcud istiqamətdə təsəvvür formalaşdırmağa girişməsin, bəs nə etsin? Axı əsl həqiqətlərin üzə çıxması Nikola sərfəli deyil.

Sonda onu da deyək ki, “Azərbaycanda saxlanılan erməni məhbuslar” məsələsinə siyasi sərmayə yatıraraq ölkəmizlə sülh gündəmindən tədricən uzaqlaşma xətti götürmüş Ermənistan rəhbərliyi hakimiyyətdə qalmaq üçün özünü ən qatı revanşist kimi nəinki göstərməli, hətta təsdiqləməlidir. Elə etməlidir ki, Moskva onun “göz yaşları”na inansın...

***Ə.RÜSTƏMOV***
***XQ***

# Ararat Mirzoyanın “kontr-arqumentləri”



(əvvəli 1-ci səhifədə)

Əlqərəz, A.Mirzoyanın sözlərindən belə nəticə hasil olur ki, regional kommunikasiyaların açılması rəsmi İrəvanın “Dünyanın kəsişməsi” təşəbbüsündən qaynaqlanır. Erməni nazirin həyasızlığının ikinci göstəricisi budur. Onun daha bir həyasızlığı isə ölkəsinin öz mövqeyində ardıcıl olduğunu deməsidir. İş ondadır ki, Paşinyan iqtidarı qətiyyətsizdir və bu, dəfələrlə sübuta yetirilib.

Bəli, Mirzoyan bildirir ki, Ermənistan tezliklə regional kommunikasiyaları blokdan çıxarmağa və nəqliyyat infrastrukturunun formalaşmasına şərait yaratmağa hazırdır. Məlumdur ki, bu, mənasız söhbətdir. Həm də ona görə ki, məsələ “Dünyanın kəsişməsi” avantürası üzərindədir. O avantüra ki, Azərbaycanın Naxçıvana maneəsiz yol kontekstində irəli sürdüyü Zəngəzur dəhlizi ideyasına qarşı çıxmağı hədəfləyir. Rəsmi İrəvanın istəyi budur ki, Ermənistan regional kommunikasiyaların açar fiquruna çevrilsin, həm iqtisadi, həm də mənəvi dividend qazanaraq güclənsin. Güclənsin ki, yenidən Azərbaycana qarşı ərazi iddiasına köklənsin, itirilmişləri geri qaytarsın.

Mirzoyan, eyni zamanda, bildirib ki, Ermənistan “Dünyanın kəsişməsi” təşəbbüsü əsasında Azərbaycana konkret təkliflər verib. Təkliflərin mahiyyətinə gəlincə, nazirin dedikləri, əslində, baş nazir Nikol Paşinyanın fikirlərinin, bir növ, yığcam variantıdır. Məsələn, Mirzoyanın sözlərinə görə, regional kommunikasiyaların açılması təkcə Azərbaycanla danışıqlarla məhdudlaşan məsələ deyil. Hesab edirik ki, bu yerdə Nikolun dediklərinə diqqət yetirmək zərurəti yaranır. Erməni baş nazir məqaləsində bildirmişdi: “İndi fiziki infrastrukturun hazırlığı baxımından, məsələn, yük maşınları Kornidzor keçid məntəqəsi vasitəsilə, Laçın-Kornidzor hissəsi ilə Ermənistan Respublikasının ərazisinə daxil ola, Ermənistan-Türkiyə sərhədinə qədər yollarımızla hərəkət edərək, Marqara keçid məntəqəsindən Türkiyəyə daxil ola bilərlər. Eyni şey əks istiqamətdə də mümkündür. Bu cür tranzit yüklərin daşınması üçün fiziki infrastruktur hazırdır. De-yure qərar qəbul etmək qalır. Azərbaycan və Türkiyədə maraq olarsa, qərarı qəbul etməyə hazırıq”.

Göründüyü kimi, Paşinyan Laçın – Kornidzor – Marqara marşrutunu alternativ kimi irəli sürür. Naxçıvana yola gəldikdə, Nikolun sözlərindən belə çıxır ki, həmin marşrut ancaq dəmir yolu olmalıdır. Üstəlik, Paşinyanın ilk baxışdan şərt təsiri bağışlayan bir fikri də var. Söhbət “Ermənistandan Ermənistana yol” məntiqindən gedir. O məntiq ki, Mehri – Yerasx marşrutunun Naxçıvandan keçməsinə əsaslanır. Beləliklə, Nikol ölkəmizin bilavasitə “Azərbaycandan Azərbaycana yol” məntiqinə qarşı da çıxmış olur.

Deməli, A.Mirzoyan Paşinyanın fikrini konkretləşdirərək, regional kommunikasiyaların açılması məsələsinə Türkiyə amilini də daxil edir. Bu, faktiki olaraq, Naxçıvanı qlobal marşrutdan kənarda qoymaqdır. Erməni nazir əbəs yerə Gümrü – Qars dəmir yolundan söz açmır. İrəvanın “planına” görə, yükdaşımalar Laçından Kornidzora, ordan Maqaraya, ordan da Türkiyəyə doğru yön almalı, beləliklə, Naxçıvanın blokadası saxlanılmalıdır.

Bəli, Paşinyan iqtidarı çox yaxşı anlayır ki, Mehri – Yerasx marşrutundan söz açaraq “Ermənistandan Ermənistana yol” məntiqini qabartmaq, Azərbaycanı razı salmayacaq. Ümumən, bu məntiq yolverilməzdir. Çünki Mehridən Yerasxa yol indi də var. Naxçıvan isə Azərbaybaycanın digər ərazilərindən ayrı düşüb.

Digər tərəfdən, rəsmi İrəvan Laçın – Kornidzor – Marqara marşrutunu ona görə təklif edir ki, Türkiyənin məsələ ilə razılaşacağına ümid bəsləyir. Hesab edir ki, Ankara Bakını vəziyyətlə barışmağa çağıracaq. Qeyd edək ki, vaxtilə Nikolun qərbli dostları da belə gedişlərə baş vurmuş, amma heç bir nəticə əldə edə bilməmişdilər.

Deyəsən, Ermənistan hakimiyyəti başını tamam itirib. Birincisi, Türkiyə Azərbaycanın regional siyasətini dəstəkləyir və ölkəmizin üzərindən Ermənistanla hansısa sövdələşməyə getməz. İkincisi, ideoloji planda Naxçıvana yol, bütövlükdə türk coğrafiyasının birləşməsidir. O coğrafiyanın ki, zamanında onun qarşısını erməni amili ilə kəsmək böyük məkr, xalqımıza qarşı tarixi ədalətsizlik idi. Üçüncüsü, hazırda regional kommunikasiyaların açılması baxımından İrəvanın təklif etdiyi Laçın – Kornidzor – Marqara marşrutu tam əlverişsizdir.

Sonda belə qənaətə gəlirik ki, A.Mirzoyanın “biz regional kommunikasiyaların blokdan çıxarılması ilə Orta Asiya və Çin ilə Azərbaycanın infrastrukturu vasitəsilə əlaqələr yaratmağa can atırıq” kimi fikir bildirməsi də Ermənistan hakimiyyətinin bütün hərəkətləri kimi, manipulyativ mahiyyət daşıyır. Rəsmi İrəvanın bu manipulyasiyası isə bütövlükdə regional sülhün və sabitliyin formalaşmasına maneçilik törətməyə hesablanıb.

***Ə.CAHANGİROĞLU***
***XQ***

Replika

# Cərəyan vurmuş çolpanın “fəryadı”



**Ermənistanda Sarkis Xandanyan adlı biri var. Zahiri görünüşcə, cərəyan vurmuş çolpaya oxşayan bu məxluq ölkənin hakim “Vətəndaş sazişi” partiyasının deputatı, erməni parlamentinin xarici əlaqələr komissiyasının rəhbəridir. Yəni, o, baş nazir Nikol Paşinyanın komandasının üzvüdür.**

Beləliklə, Xandanyan bildirib ki, Azərbaycanın ermənilər üzərində qurulmuş məhkəmə prosesi ilə bağlı təqdimatları hayların hisslərinə təsir göstərmək məqsədi daşıyır. Deputatın qaldırdığı mövzu barədə başqa nələri vurğulamasına diqqət yetirəcəyik. Amma əvvəlcə bir məqamın üzərində dayanaq.

Azərbaycan haqq və ədalətin qərarlaşmasının tərəfdarıdır. Ölkəmiz istəyir ki, xalqımıza qarşı törədilmiş bəşəri cinayətlər cəzasız qalmasın. Yəni, Bakıda keçirilən məhkəmə prosesləri buna xidmət edir. Təqsirləndirilən şəxslərin günahsızlığı sübuta yetirilsə, şübhəsiz, azadlıqlarına qovuşacaq, sərbəst buraxılacaqlar. Onların təqsirli olduqları müəyyənləşsə, məsuliyyətdən qaçmaq şansları yoxdur. Bu, öz yerində.

S.Xandanyanın ermənilərin hissləri ilə oynamaq məntiqinə gəlincə, görəsən, Ermənistanda neçə nəfər var ki, belə düşünür? Nəzərə alaq ki, Bakıda məhkəməsi keçirilən şəxslərin böyük hissəsi Qarabağ klanının təmsilçisidir. O klanın ki, Sarkisin şefi Paşinyan onun üzvlərini təhqir etdiyinə görə hakimiyyətə gəlmək imkanı əldə etmişdi. Yəni, erməni xalqı Nikola “Qarabağ sevdalılarını” lənətlədiyi üçün etimad göstərmişdi.

İkincisi, məsələnin ermənilərin hissləri ilə oynanılması şəklində təqdimatı tipik xəstə təfəkkürdən qaynaqlanır. Axı bu təfəkkür sahibləri vaxtilə azərbaycanlıların hissləri ilə çox oynayıblar. Nəinki oynayıb, dinc sakinlərimizə qarşı olmazın işgəncələr verib, qarətlər, amansız qətllər törədiblər. Hələ bu azmış kimi, əməllərini ictimailəşdirməyi, yazıya, kitaba çevirməyi də yaddan çıxarmayıblar.

Yaxşı olar ki, Sarkis boş-boş danışmaqdansa, gedib Zori Balayanın “Ocaq” kitabını oxusun. Özü də təkcə oxumasın, eyni zamanda, Balayanla eyni millətin nümayəndəsi olduğuna görə utansın. Xandanyan düşünsün ki, bir azərbaycanlı uşağın dərisini diri-diri soyması ilə öyünən vəhşi də özünə hay deyir, o da. Əlbəttə, utanmağı və düşünməyi bacarırsa.

S.Xandanyan, eyni zamanda, bildirib ki, onda Bakıdakı məhkəmə prosesi ilə bağlı sərt bəyanatlar vermək, ağır sözlər işlətmək istəyi var. Guya, “kişi” qeyrətə gəlir. Ancaq son anda hövsələli davranmağı üstün tutur. Niyə? Sən demə, bu sözlər “Bakıda saxlanılan məhbuslarımızın Ermənistana qaytarılması məsələsində” faydalı ola bilməzmiş. Göründüyü kimi, Sarkis yenə tipik erməni baxışını “xoda salır”. Çünki onun üçün haqq və ədalət anlayışı yoxdur.

Əslində, S.Xandanyanın səsləndirdiyi mövqe bütövlükdə rəsmi İrəvanın kursudur. Paşinyan iqtidarı “Azərbaycanda saxlanılan erməni məhbuslar” məsələsini siyasi alver predmetinə çevirib. Nikol və tərəfdarları elə zənn edirlər ki, bu yolla Azərbaycana hansısa təzyiq göstərə, ölkəmizi güzəştlərə məcbur edə biləcəklər. “Məhbuslar” məsələsi, həmçinin Ermənistan hakimiyyətinin sülhdən uzaq mövqeyi baxımından manipulyasiyadır və bunun müxtəlif təfərrüatlarına nəzər salmışıq. Üstəlik, erməni iqtidarının həmin məsələ baxımından məkrli siyasətini, müəyyən mənada, anlamağa da çalışırıq. O mənada ki, Nikoldan və komandasından hadisə və proseslərə, haqq və ədalət prinsiplərinə normal baxış gözləmirik.

Bununla belə, yaxşı olar ki, Paşinyanın düşərgəsində təmsil olunanlar dillərinə yiyəlik edib mövzuya başqa rəng çalarları qatmasınlar. Nəzərə alsınlar ki, məhkəmə prosesinin erməni millətinə qarşı yönəldiyinə, onun təhqirinə, aşağılanmasına hesablandığına dair cəfəng və sərsəm fikrin təbliğatı son dərəcə ziyanlıdır.

Bəli, xandanyanlar, paşinyanlar və başqa yanlar, ilk növbədə, dediklərimizi düşünməli, özlərini ağıllı aparmalıdırlar. Onlar oskanyanlardan, sarkisyanlardan, koçaryanlardan, dəli və psixi xəstə yığıncağının digər təmsilçilərindən fərqli olduqlarını göstərməlidirlər. Həm də ona görə ki, dəlixanadan vətən düzəltmək olmur. Deməli, S.Xandanyan da ağıllı olub Ermənistan adlı vətənə sahib çıxsa, daha faydalıdır. Başqasının torpağında oyunbazlıq edərkən ələ keçənlərin isə vətənləri olmur.

***R.ƏVƏZ***
***XQ***

# Ermənistan KTMT-də qalır, yoxsa gedir?

## *İrəvan bu suala hələ də cavab axtarır*

**“Ermənistanın Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı (KTMT) ilə münasibətlərinin formatı dəyişməz olaraq qalır. İrəvan tərəfindən əməkdaşlığın bərpasına hazır olması barədə heç bir məlumat daxil olmayıb”.**

Bu barədə təşkilatın baş katibi İmanqali Tasmaqambetov “İzvestiya” qəzetinə müsahibəsində bildirib. “Biz İrəvanla işgüzar əlaqələri saxlayırıq. Bir daha vurğulayıram ki, Ermənistan Respublikası KTMT-də müttəfiqimiz olaraq qalır. Çünki təşkilatın bu ölkəyə qarşı öhdəlikləri var. İrəvanın KTMT ilə əməkdaşlığın bərpasına hazır olması yönündə siqnallara gəlincə, münasibətlərin formatı dəyişməyib və əvvəlki kimi qalır”, – deyə Tasmaqambetov bildirib.

Bundan əlavə, təşkilat rəhbəri KTMT Kollektiv Təhlükəsizlik Şurasının növbəti sessiyasının 2025-ci ilin sonunda keçiriləcəyini təsdiqləyib. Ənənəyə görə, iclas adətən noyabr ayında keçirilir, amma dəqiq tarix hələ müəyyən edilməyib.

Qeyd edək ki, Ermənistan baş naziri Nikol Paşinyan 3 ay bundan əvvəl KTMT çərçivəsində qəbul edilən sənədlərin İrəvanı maraqlandırmadığı, “ölkəsi ilə bu qurum arasında münasibətlərin dönüş nöqtəsini keçdiyini” bəyan etmişdi. “Biz dedik ki, KTMT-nin fəaliyyətində iştirakımızı dondururuq. Bu o deməkdir ki, biz hər hansı bir sənədin müzakirəsində iştirak etmirik. Biz, sadəcə olaraq, heç bir sənədə veto qoymuruq, çünki mahiyyət etibarilə özümüzü KTMT-dən kənarda hesab edirik, qoy nə istəyirlərsə, etsinlər. Bu vəziyyət Ermənistanın KTMT-yə qayıtmasını getdikcə çətinləşdirir, hətta qeyri-mümkün edir. Düşünürəm ki, biz burada geridönüş nöqtəsini keçmişik”, – deyən Paşinyanın



mövqeyində son vaxtlar Moskva ilə münasibətlərdə istiləşmə müşahidə olunduğu kimi, KTMT məsələsində də mövqe dəyişikliyi hiss olunmaqdadır.

“Ermənistan Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının tamhüquqlu üzvü olaraq qalır”. Bunu bir müddət əvvəl Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova ənənəvi brifinqdə deyib. “Ermənistan bütün müvafiq hüquq və öhdəliklərini özündə saxlayır. Biz bir daha təsdiq edirik ki, indiki mərhələdə İrəvanın KTMT çərçivəsində tammiqyaslı əməkdaşlığa qayıtması üçün qapılar açıqdır”, – deyə rusiyalı diplomat bildirib. M.Zaxarova sözlərinə onu da əlavə edib ki, Rusiya hər bir ölkənin öz xarici siyasət kursunu müstəqil müəyyən etmək hüququna şübhə etmir: “Bununla əlaqədar Moskva Ermənistanın KTMT çərçivəsində birgə layihələrdə iştirakının bərpasını gözləyir”.

***XQ***

# Azərbaycan texnoloji tərəqqinin önündə gedir

## *IV Sənaye İnqilabının çağırışları ölkədə həssaslıqla cavablandırılır*

**İqtisadiyyat Nazirliyi yanında IV Sənaye İnqilabının Təhlili və Koordinasiya Mərkəzinin (4SIM) icraçı direktoru Fariz Cəfərov 2024-cü ilin yekunlarına həsr olunmuş konfransda ölkəmizdə 4.0 Sənaye Mərkəzinin yaradılacağını bildirib. O, bu mərkəzin, eyni zamanda, özəl və dövlət sektorunun nümayəndələrinə müxtəlif layihələrlə tanış olmaq imkanı verəcəyini, orada texnoloji şirkətlərin öz məhsullarını təqdim edəcəyini, startapların iştirakının təmin olunacağını, 5 mindən çox insana rəqəmsal bacarıqlar öyrədiləcəyini vurğulayıb.**

F.Cəfərov qeyd edib ki, hazırda IV Sənaye İnqilabının innovasiyalarını həyata keçirən şirkətlərin reyestri yaradılır. Beləliklə, 4.0 Sənaye platforması ilə anbar xərclərinin 20-40 faiz azaldılacağı və məhsuldarlığının 15-30 faiz artırılacağı gözlənilir.

Konfransda İqtisadiyyat Nazirliyi yanında 4SIM-in 2030-cu ilədək ölkədə 650 müəssisənin rəqəmsal transformasiyasını həyata keçirməyi planlaşdırdığının və bu prosesin cari ildə başlayacağının nəzərdə tutulduğu bildirilib. Eyni zamanda, proqramın bir hissəsi olaraq, 4SIM-in həm yerli, həm də xarici mütəxəssisləri cəlb edəcəyi, onların müəssisələrə baş çəkəcəkləri, biznes proseslərini öyrənəcəkləri, sonra isə yol xəritəsini tərtib edəcəkləri, habelə əməliyyatların təkmilləşdirilməsi üçün hansı texnologiyaların tətbiqinin lazım olduğunu müəyyənləşdirəcəkləri nəzərdə tutulub. Bununla yanaşı, çıxışlarda sonradan bu texnologiya və innovasiyaları tətbiq edən fabrik və zavodların öz istehsalını təkmilləşdirəcəklərinə və daha yaxşı nəticələr əldə edəcəklərinə böyük ümid bəslənildiyi diqqətə çatdırılıb.

Qeyd edilib ki, ötən il 4SIM tərəfindən tədris proqramı çərçivəsində bir neçə müəssisədə rəqəmsal diaqnostika aparılıb. Müəssisələrin rəqəmsal transformasiyaya hazırlıq səviyyəsi ölçülüb və müvafiq yol xəritələri hazırlanıb. 4SIM-in 2025-ci ildə daha 15, 2030-cu ilə qədər isə 650 müəssisənin rəqəmsal transformasiyasına dəstək verməsi planlaşdırılıb.

Ekspertlərin fikrincə, IV Sənaye İnqilabı fiziki, rəqəmsal və bioloji müstəvilər arasındakı sərhədlərin çulğalaşmasını təsvir etmək üsuludur. Bu, süni intellekt (AI), robototexnika, əşyaların interneti (IoT), 3D çap, gen mühəndisliyi, kvant hesablamaları və digər texnologiyalarda irəliləyişlərin birləşməsidir.

Azərbaycan Prezidentinin 6 yanvar 2021-ci il tarixli fərmanı ilə yaradılan 4SIM yeni reallıqlar şəraitində ölkəmizin mövqeyini gücləndirmək, qabaqcıl texnoloji imkanlardan maksimum yararlanmaq, bu sahədə beynəlxalq təşkilatlarla əməkdaşlıq və koordinasiya həyata keçirmək məqsədinə xidmət edir. Mərkəz Azərbaycan Respublikası ilə IV Sənaye İnqilabı sahəsində fəaliyyət göstərən beynəlxalq təşkilatlarla əməkdaşlığı və bu sahədə əlaqələndirməni, həmçinin rəqəmsal iqtisadiyyat üzrə çağırışların, təşəbbüslərin, strategiyaların və layihələrin təhlilini və koordinasiyasını həyata keçirir.

Qeyd edək ki, 2020-ci il yanvarın 21-də İsveçrənin Davos şəhərində keçirilən Dünya İqtisadi Forumunda Prezident İlham Əliyev və Dünya İqtisadi Forumunun prezidenti Borge Brende arasında Dünya İqtisadi Forumunun IV Sənaye İnqilabı Mərkəzləri Şəbəkəsinin Azərbaycan Mərkəzinin yaradılması ilə bağlı niyyət protokolu imzalanıb. Bunun əsasında isə



Azərbaycanda Dünya İqtisadi Forumunun IV Sənaye İnqilabı Mərkəzləri Şəbəkəsinin Azərbaycan Mərkəzi yaradılıb. Bu, adıçəkilən qurumun ölkəmizi rəqəmsal və texnoloji mərkəzə çevirmək məqsədindən irəli gəlib.

Azərbaycan IV Sənaye İnqilabı Mərkəzi MDB məkanında yaradılan ilk bu cür qurumdur. 4SIM 2021-ci il aprelin 1-dən ölkəmizdəki bu mərkəzin fəaliyyətini də koordinasiya edir. IV Sənaye İnqilabının Təhlili və Koordinasiya Mərkəzi Dünya İqtisadi Forumunun süni intellekt və maşın öyrənməsi, əşyaların interneti və şəhər transformasiyası, eləcə də rəqəmsal ticarət və iqtisadiyyat platformaları ilə əməkdaşlıq edir.

Bu platformalar çərçivəsində iqtisadiyyatın bir çox sahələrində müxtəlif istiqamətlərdə tədbirlərin həyata keçirilməsi nəzərdə tutulub. Eyni zamanda, IV Sənaye İnqilabı Şəbəkəsinin müxtəlif ölkələrdə yaradılan mərkəzləri ilə (Türkiyə, BƏƏ, İsrail, Yaponiya) sıx əməkdaşlığın qurulması və genişləndirilməsi üçün indiyədək bir sıra layihələr gerçəkləşdirilib. 4SIM 4Sİ texnologiyalarının iqtisadiyyatın müxtəlif sahələrinə dair uğurlu həllərini özündə ehtiva edən tədqiqat sənədi hazırlayıb.

Azərbaycan IV Sənaye İnqilabı Mərkəzinin fəaliyyətinin ilk vaxtlarından etibarən, bu istiqamətdə çağırışlara start verilib. Ən müasir texnologiyaların ölkəmizə gətirilməsinə, müasir metodların, üsulların tətbiqinə başlanılıb.

Hazırda işğaldan azad edilən ərazilərimizin bərpa və yenidən qurulması, həmin ərazilərdə iqtisadi inkişafın formalaşması ilə bağlı sistemli və kompleks tədbirlər həyata keçirilir və bu zaman IV Sənaye İnqilabının çağırışları diqqətdə saxlanılır. Layihələrin gerçəkləşdirilməsi zamanı müasir iqtisadi və texnoloji innovasiyaların tətbiqinə mühüm önəm verilir. Bu isə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının yaxın gələcəkdə "ağıllı" region və "yaşıl" zona kimi dünyada tanınacağına əlverişli şərait yaradır. Zəngilanın Ağalı kəndində Azərbaycanda ilk dəfə "Ağıllı" kənd layihəsinin həyata keçirilməsi bu baxımdan mühüm önəm daşıyır.

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının digər kənd və şəhərlərində də "ağıllı" və "yaşıl" yaşayış sahələri layihələri icra olunur. "Yaşıl" və alternativ enerjinin, "ağıllı" idarəetmə sistemi reallaşdırılır, xarici investisiya əsasında alternativ enerji həlləri məqsədilə "Günəş paneli tarlası" salınır, su anbarları əsasında "ağıllı" akvakultura sistemlərinin tətbiqi diqqətdə saxlanılır.

Yeri gəlmişkən, IV Sənaye İnqilabının çağırışlarına əsaslanılaraq sənaye zonalarında sahibkarlıq fəaliyyəti üçün zəruri infrastrukturun yaradılmasına, səmərəli işin təşkilinə böyük əhəmiyyət verilir. İnnovativ sahibkarlığın inkişafında bilik iqtisadiyyatının, IV Sənaye İnqilabının elementlərinin tətbiqi, qlobal dəyər zəncirinə inteqrasiya, klasterləşmə, sənayenin rəqəmsal transformasiyası, "ağıllı" biznes modellərinin yaradılması kimi məsələlər daim önə çəkilir. Bütün bunlarla bərabər, lisenziyalar və icazələrin alınması üçün sahibkarlara "ASAN xidmət" mərkəzlərində və "KOB evləri"ndə əlverişli şərait yaradılır.

IV Sənaye İnqilabı Mərkəzinin yaradılması ölkəmizin dinamik inkişafında mühüm rol oynayır. Hazırda informasiya cəmiyyətinin intellektuallaşdırılmasına, IV Sənaye İnqilabının əsas trendlərindən biri olan süni intellekt texnologiyalarının yaradılmasına mühüm önəm verilir. Bu texnologiyaların Azərbaycanda geniş tətbiq olunması, əmək bazarında rəqəmsal transformasiyaların təsiri ilə yeni reallıqların yarandılması ilə bağlı əhəmiyyətli layihələr gerçəkləşdirilir. Məsələn, 4SİM-in "İdeyadan biznesə" layihəsi çərçivəsində regionlarda innovasiya və IV Sənaye İnqilabının texnologiyalarından istifadənin təşviqinin genişləndirilməsi məqsədilə keçirdiyi tədbirlər də məhz bunun bariz ifadəsidir.

# Dövlət Neft Fondunun gəlirləri artıb

## *Bu rəqəm ötən il 207 milyard dolları ötüb*

**Dünən Azərbaycan Respublikası Dövlət Neft Fondunun inzibati binasında "ARDNF-in media dialoqu: 2024-cü ilin investisiya yekunları və 2025-ci ilin perspektivləri" mövzusunda müzakirə formatında tədbir keçirilib.**



Dövlət Neft Fondunun risklərin idarə edilməsi departamentinin direktoru Vadim Pşeniçnıy bildirib ki, yarandığı tarixdən ötən ilin sonlarına qədər fondun xərcləri 147,3 milyard dollar, toplam gəlirlər isə 207,3 milyard dollar təşkil edib. Diqqətə çatdırılıb ki, ötən müddətdə fondun neft-qaz sazişlərindən gəlirləri 192,4 milyard dollar, investisiya gəlirləri isə 14,9 milyard dollar olub. Bununla yanaşı, hesabat dövründə fondun dövlət büdcəsinə transfertləri 132,6 milyard dollar, layihələrin maliyyələşdirilməsinə 11,9 milyard dollar, büdcədənkənar xərcləri 2,3 milyard dollar, əməliyyat xərcləri isə 0,47 milyard dolları təşkil edib.

ARDNF-nin investisiya departamentinin direktoru Fərhad Zeynalov deyib ki, fondun investisiya portfeli yaradıldığı vaxtdan 2024-cü il dekabrın 31-dək daşınmaz əmlak üzrə orta illik gəlirliliyi 2,9 faiz, ümumi qazancı isə 1 milyard ABŞ dolları təşkil edib. Hazırda Neft Fondunun daşınmaz əmlaka yatırdığı investisiyaların dəyərinin 3,5 milyard dollar, ümumi portfeldəki payının isə 5,9 faiz təşkil etdiyini diqqətə çatdıran departament direktorunun sözlərinə görə, ümumilikdə, investisiya portfelinin region və sektorlar üzrə bölgüsünün qlobal daşınmaz əmlak indeksinə uyğun aparılması planlaşdırılır.

Risklərin idarə edilməsi departamentinin aktivlərin bölgüsü, risk və gəlirliliyi şöbəsinin müdiri Toğrul Rəhimbəyli diqqətə çatdırıb ki, fond 2015-2024-cü illərdə maliyyə aktivlərinin idarə edilməsindən 7,2 milyard dollar ümumi gəlir əldə edib. Onun sözlərinə görə, həmin məbləğin 2,7 milyard dolları istiqrazlara, 3,5 milyard dolları səhmlərə, 1 milyard ABŞ dolları isə daşınmaz əmlaka investisiya qoyuluşundan əldə edilən gəlirlərin payına düşüb.

İnvestisiya departamentinin direktoru Fərhad Zeynalov çıxış edərək deyib ki, ARDNF investisiya portfelində toplanan qızıl payını 25 faizə çatdırmağı planlaşdırır. Qeyd olunub ki, 2024-cü ildə fond tərəfindən 44,8 ton qızıl alınıb ki, bunun da 41 tonu artıq ölkəyə gətirilib. Beləliklə, 2024-cü il dekabrın 31-nə fondun aktivlərində qızılın ümumi həcmi 146,6 ton (investisiya portfelinin 20,6 faizi), dəyəri isə 12,4 milyard dollar təşkil edib. Qızıl alışının 2025-ci ildə də davam edəcəyini vurğulayan fond rəsmisinin sözlərinə görə, aprel-may aylarında onun həcminin, təxminən, 170 tona çatacağı gözlənilir.

Yeri gəlmişkən, qeyd edək ki, 1999-cu ildə yaradılmış Dövlət Neft Fondunda neft-qaz müqavilələrinin həyata keçirilməsindən əldə olunan gəlirlər toplanır. 2024-cü il dekabrın 31-nə fondun aktivləri 60,031 milyard dolları məbləğində qiymətləndirilir.



# "Şahdəniz"də kompressor platforması quraşdırılacaq

## *Yeni layihə yataqdan qazın nəqlini sürətləndirəcək*

**Böyük Britaniyanın "BP plc" şirkəti "Şahdəniz" yatağında "Shah Deniz Compression" (SDC) platformasının tikintisi layihəsi üzrə yekun investisiya qərarının cari ilin iyun ayında qəbul edilməsini gözləyir. Bunu jurnalistlərə "BP-Azerbaijan"ın şirkətxarici kommunikasiyalar üzrə rəhbəri Tamam Bayatlı bildirib.**

O deyib ki, hazırda "Şahdəniz"də bütün diqqət yeni layihəyə – SDC kompressor platformasının tikintisinə yönəlib. "Biz bu layihənin Ətraf Mühitə və Sosial Sahəyə Təsirlərinin Qiymətləndirilməsi hesabatını ictimaiyyətə təqdim etmişik. Sənəd hökumətə də təqdim edilib və onun təsdiqlənməsini gözləyirik ki, bu da icra mərhələsinə keçid deməkdir. Lakin icranın başlanmasından əvvəl yekun investisiya qərarı qəbul edilməlidir, bunu yaya, ən geci ikinci rübün sonuna planlaşdırmışıq, lakin məndə olan məlumata görə, bu, iyun ayına nəzərdə tutulub", – deyə şirkət rəsmisi əlavə edib. Onun sözlərinə görə, növbəti mərhələdə layihənin həyata keçirilməsi üçün podratçılar və tikinti sahələri seçiləcək.

Şirkətin daha əvvəl yaydığı məlumata əsasən, layihəyə elektrik enerjisi ilə işləyən SDC pilotsuz kompressor platformasının tikintisi, elektrik və fiber-optik kabellərin, həmçinin "Alfa" və "Bravo" platformalarından yataqdaxili sualtı qaz kəmərlərinin çəkilməsi daxildir. Platformadan sırf kompressor qurğuları üçün nəzərdə tutulduğundan burada qazma işləri aparılmayacaq. SDC qazın kompressiyası üçün hər biri 11 meqavat gücündə 4 kompressorla təchiz ediləcək. Dənizdə texniki xidmət yükünü minimuma endirmək üçün platforma sadələşdirilmiş elektriklə çalışan əsasən heyətsiz qurğu kimi layihələndirilib.

Yeni platforma "Şahdəniz" yatağının bəzi laylarından aşağı təzyiqli qazın Səngəçal terminalına çatdırılması üçün nəzərdə tutulub. "Şahdəniz Alfa" və "Şahdəniz Bravo" platformalarından hasil ediləcək aşağı təzyiqli qaz əvvəlcə kompressiya olunmaq üçün yeni platformaya, təzyiq artdıqdan sonra isə "Səngəçal" terminalına daxil olacaq.

Qeyd edək ki, "Shah Deniz Compression" platforması "Şahdəniz Alfa" platformasından 10 kilometr, "Şahdəniz Bravo" platformasından isə 3 kilometr məsafədə suyun 85 metr dərinliyində yerləşəcək. SDC platformasının dayaq blokunun və üst tikilisinin, eləcə də sualtı infrastrukturun komponentlərinin Azərbaycanda inşa edilməsi planlaşdırılır. Tikinti sahələrində quruda inşaat və istismara verilmə fəaliyyətlərinin əksəriyyətinin 2026 və 2028-ci illər arasında həyata keçiriləcəyi gözlənilir. 2029-cu ilin yanvar-iyul aylarında "Şahdəniz Alfa", 2030-cu ilin aprel-may aylarında isə "Şahdəniz Bravo" platformalarından ilk qaz hasilatı nəzərdə tutulur.

# Mingəçevir Sənaye Parkı dünyada tanınır

## *Burada hazırlanan məhsulların çoxu ixrac edilir*

**İqtisadiyyat Nazirliyinin tabeliyində İqtisadi Zonaların İnkişafı Agentliyinin idarəçiliyində olan Mingəçevir Sənaye Parkında indiyədək 326 milyon manatlıq məhsul satışı həyata keçirilib. Bu barədə İqtisadi Zonaların İnkişafı Agentliyi məlumat yayıb.**



Bildirilib ki, sənaye parkında istehsal olunmuş məhsulların 276,6 milyon manatlıq hissəsi və ya 84 faizi ixrac edilib. Sənaye parkında görülmüş işlərə, ümumilikdə, 159 milyon manat investisiya yatırılıb. 26 hektar ərazidə yaradılmış parkda ötən müddətdə 570 daimi iş yeri yaradılıb.

Qeyd edək ki, Mingəçevir Sənaye Parkı ölkə Prezidentinin 2015-ci il 26 fevral tarixli Fərmanı ilə yaradılıb. Bundan da məqsəd ölkədə qeyri-neft sektorunun davamlı inkişafının təmin edilməsi, sahibkarlığın dəstəklənməsi, müasir texnologiyalara əsaslanan rəqabətqabiliyyətli sənaye müəssisələrinin təşkil edilməsi, eləcə də əhalinin istehsal sahəsində məşğulluğunun artırılmasından ibarətdir.

Sənaye Parkının əsas fəaliyyət istiqaməti tekstil və yüngül sənayenin inkişaf etdirilməsidir. "Mingəçevir Tekstil" Məhdud Məsuliyyətli Cəmiyyəti Sənaye Parkının rezidenti kimi qeydiyyata alınıb. Fabrikdə Almaniya, İsveçrə, Yaponiya və Türkiyə texnologiyaları əsasında "Ring" və "Open End" üsulu ilə iplik istehsal edilir.

# Enerji itkiləri azaldılır

**"Azərişıq" ASC-nin sədr müavini Ramil Yusifov Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsində keçirilən ictimai dinləmədə 2024-cü ildə Azərbaycanda 2015-ci illə müqayisədə enerji itkilərinin aşağı salınması 900 milyon kilovat/saat enerjiyə qənaət etməyə imkan verib.**

R.Yusifovun sözlərinə görə, enerji itkilərinin dinamikası 2015-ci illə müqayisədə 14 faizdən 8,5 faizə qədər azaldılıb. Bu göstəricilərin dünyanın qabaqcıl ölkələrinin nəticələrinə çatdırılması qarşıya mühüm vəzifə kimi qoyulub.

Sədr müavini Azərbaycanda elektrik şəbəkəsinin əsas hissəsinin ötən əsrin 20-60-cı illərində yaradıldığını və onun 60 faizinə qədər hissəsinin yenidən qurulmasına ehtiyac duyulduğunu qeyd edib.

***Səhifəni hazırladılar:***
***Vaqif BAYRAMOV,***
***Mirbağır YAQUBZADƏ***
***XQ***

**Naxçıvan qədim Azərbaycan torpağıdır. Naxçıvan ərazisi coğrafi cəhətdən Azərbaycanın mərkəzi – günortacı hesab edilir, geostrateji cəhətdən əlverişli bir məkanda yerləşir. Lakin 2 əsrə yaxın müddətdə Azərbaycanın Rusiya imperiyasının işğalçılıq siyasəti nəticəsində Güney Azərbaycandan sərhəd xətti ilə ayrı salınmış Naxçıvan 1 əsrdən artıq müddətdə isə daxil olduğu Quzey Azərbaycanın əsas hissəsindən aralı düşüb.**

Bu tarixi cinayəti sovet Rusiyasının himayəsi, Azərbaycan SSR rəhbərliyinin xalq və tarix qarşısında məsuliyyətsizliyi şəraitində Qafqaza gəlmə erməni toplumunun qədim türk torpaqlarında dövlət qurmağa nail olmuş "millətçi başbilənlər"i törətmişlər. Ümummilli lider Heydər Əliyev Azərbaycan müstəqilliyə qovuşandan sonra Ermənistanın ölkəmizə qarşı təcavüzkarlıq siyasətini dünyaya çatdırmaqla bağlı mübarizəsində bu tarixi gerçəyi davamlı olaraq beynəlxalq aləmin diqqətinə çatdırıb.




# Naxçıvanın blokadaya düşməsinin tarixi qaynaqları

## *Zəngəzurun Azərbaycandan qoparılması misilsiz xəyanət idi*

**İsmayıl HACIYEV,**
**AMEA Naxçıvan Bölməsinin sədri, akademik**




Prezident İlham Əliyev də son 22 ildə eyni qətiyyətlə erməni millətçilərinin Qərbi Azərbaycanda Ermənistan adlı dövlət qurduqlarını, Zəngəzurun qərbini də bu əraziyə qatmaqla Naxçıvanı Azərbaycan dövlətindən ayrı saldıqlarını dəfələrlə ən yüksək səviyyələrdə dünyaya bəyan edir. Bu günlərdə qardaş Türkiyədə işgüzar səfərdə olan dövlətimizin başçısı bu ölkənin lideri Rəcəb Tayyib Ərdoğanla İğdır–Naxçıvan qaz kəmərinin videobağlantı formatında açılış mərasimində iştirak edərkən bir daha Zəngəzur xəyanətinin tarixi nəticələrini xatırlatdı.

Naxçıvanın enerji blokadasının aradan qaldırılmasında növbəti ciddi addımın önəmini vurğulayan Azərbaycan lideri bildirdi: "Bildiyiniz kimi, Naxçıvan qədim Azərbaycan torpağıdır. Ancaq artıq bir əsrdən çoxdur ki, Azərbaycanın əsas hissəsindən ayrılıb. Bunun səbəbi ondan ibarətdir ki, Azərbaycan Xalq Cümhuriyyəti 1920-ci ildə süqut edəndən 5 ay sonra sovet hakimiyyəti Qərbi Zəngəzuru Azərbaycandan ayırıb Ermənistana birləşdirdi və beləliklə, Azərbaycanın əsas hissəsi ilə onun ayrılmaz hissəsi olan Naxçıvanla quru bağlantısı pozulub".

Prezident İlham Əliyev qeyd etdi ki, 1 əsrdən çox davam edən bu ədalətsizlik Naxçıvan əhalisinin həyatını olduqca çətin duruma gətirib: "Xüsusilə Birinci Qarabağ savaşı başlayan kimi Ermənistan Qarabağı işğal etdi və eyni zamanda, Naxçıvanı blokadaya aldı. Onların planları Naxçıvanı da işğal etmək idi. Ancaq o zaman mənim atam Heydər Əliyev Naxçıvanın rəhbəri kimi buna imkan vermədi və Naxçıvanı qorumaq üçün bütün naxçıvanlılar səfərbər oldular, öz doğma torpaqlarını qorudular və işğalçını yerində oturtdular".

Ölkəmizin rəhbəri qədirbilənliklə xatırlatdı ki, Naxçıvanın o zaman işğal altına düşməməsinin səbəblərindən biri də o zaman Naxçıvanı Türkiyə ilə birləşdirən "Ümid" körpüsün inşa edilməsi olmuşdur: "Türkiyədən gələn yardımlar Naxçıvanın qorunmasına çox önəmli töhfə vermişdir".

Göründüyü kimi, tarix heç nəyi unutmur, xüsusən, cinayət və xəyanətləri, xilaskarlıq əməllərini və qardaşlıq köməyini pozulmaz yaddaşa çevirir. Tarix anladır ki, ötən əsrin 20-ci illərində Zəngəzur xəyanəti baş verməsəydi, əsrin sonlarında işğalçı ermənistan Naxçıvana blokada məşəqqəti yaşada bilməyəçəkdi.

Rusiya imperiyasının Sovet imperiyasına çevrildiyi dövrdə Ararat Respublikası yaradılarkən daşnak hakimiyyəti Naxçıvan və Şəruru da bu qurumun tərkibində görmək istəmişdilər. Ona görə də hər istiqamətdə Naxçıvanın inkişafına mane olmuş, bir sıra ərazilərini işğal etmişdilər. Ötən əsrin 90-cı illərin əvvəllərində isə Ermənistanın millətçi rəhbərliyi, zehniyyəti xalqımıza qarşı düşmənçiliklə zəhərlənmiş toplum Naxçıvana gələn bütün kommunikasiyaları kəsmiş, diyarı blokadada saxlamış, Zəngəzur dəhlizinin açılmasına imkan verməmişlər.

Ermənistan adlandırılan dövlət tarixi Azərbaycan ərazilərində yaradılmışdır. Tarixin müxtəlif dövrlərində, xüsusilə XIX və XX əsrlərdə ermənilər bu ərazilərə köçürülmüşlər. Onlar bu ərazilərdə möhkəmləndikcə yerli azərbaycanlıları öz tarixi torpaqlarından çıxarmağa çalışmışlar. Ermənistan ərazisində qədim türkmənşəli tayfaların yaşaması barədə tarixi məlumatlar azərbaycanlıların orada miladdan əvvəl I minillikdə və erkən orta əsrlərdə yaşadığını göstərir. Ermənistan ərazisində olan coğrafi adların böyük əksəriyyəti azərbaycanlılara məxsusdur. Tarixi İrəvan əyalətlərinin, İrəvan xanlığının və İrəvan quberniyasının yaşayış məntəqə adlarının, demək olar, hamısının türkmənşəli olması bununla bağlıdır.

XIX əsrin əvvəllərində Rusiya imperiyasının Qacarlar və Osmanlı dövlətləri ilə apardığı müharibədən sonra ermənilər kütləvi surətdə Azərbaycan torpaqlarına köçürülmüşdür. Tanınmış rus tədqiqatçısı N.Şavrov ermənilərin Cənubi Qafqaza köçürülməsi prosesini və köçürülüb gətirilmiş ermənilərin sayını araşdırdıqdan sonra 1911-ci ildə yazırdı: "Hazırda Cənubi Qafqazda yaşayan 1 milyon 300 min erməninin 1 milyondan çoxu bu diyarın yerli əhalisi deyil. Onları bura biz köçürüb gətirmişik".

Köçürülən ermənilər əsasən Qarabağ, Naxçıvan, İrəvan, Zəngəzur və başqa ərazilərdə yerləşdirilirdi. Bu vaxtlarda ermənilərin dövlətləri olmamışdır. Onların əsas məqsədi bu ərazilərdə erməni millətindən olan əhalinin sayını artırmaq idi. Bu işdə onlara böyük dövlətlər, xüsusilə çar Rusiyası, daha sonra isə Sovet Rusiyası kömək edirdi.

1918-ci ildə Cənubi Qafqazda müstəqil dövlətlər yarandı. Belə dövlətlərdən biri də İrəvan xanlığı ərazisində yaradılan Ararat Respublikası idi. Bu respublika yaradılarkən onun sahəsi 9 min kvadratkilometr idi. Bununla kifayətlənməyən erməni daşnakları qonşu ərazilərə – Azərbaycan torpaqlarına göz dikir və bunları da Ermənistan dövlətinin tərkibində görmək istəyirdilər.

Belə ərazilərdən biri də Zəngəzur idi. Türkmənçay müqaviləsindən sonra Zəngəzura çar hökumətinin himayəsi altında Türkiyə və İrandan kütləvi surətdə ermənilərin köçürülməsinə başlanılmış, beləliklə qədim Azərbaycan torpağı olan Zəngəzurda süni surətdə erməni əhalisinin sayca çoxaldılması siyasəti yeridilmişdir.

Zəngəzur qədim və tarixi Azərbaycan ərazisidir. Ərazinin Zəngəzur adlanması da təsadüfi deyildir. "Zəngəzur" toponimi bu ərazilərdə yaşayan, öz igidliyi və cəngavərliyi ilə seçilən "zəngi" tayfalarının adı ilə bağlıdır. Zəngi tayfaları tarixdə görkəmli qoşun başçıları və dövlət xadimləri ilə məşhur olan bir türk boyudur. Bu boyla bağlı Azərbaycan ərazisində Zəngilan, Zəngəran, Zəngidərə, Zəngi çayı, Zəngilər, Zəngibasar və başqa onlarla coğrafi adlar mövcuddur. Ərazinin aborigen əhalisi də Azərbaycan türkləri olmuşdur. Ümumiyyətlə, Zəngəzur ərazisində minlərlə türk mənşəli coğrafi adlar məlumdur.

Erməni daşnakları 1917-ci ilin martından Zəngəzur türk-müsəlman əhalisinə qarşı soyqırıma başlamış, yüzlərlə kənd yerlə-yeksan edilmiş, on minlərlə insan məhv edilmiş, doğma yurdlarından didərgin salınmışdır.

1917-ci ilə aid statistik məlumatlara görə Zəngəzur qəzasında azərbaycanlılar 55 faiz, ermənilər isə 44,3 faiz təşkil edirdi. 1918-ci ildə Zəngəzur qəzasında mövcud olan 222 yaşayış məntəqəsindən 116-sı azərbaycanlılara məxsus idi. Daşnaklar hakimiyyətə gəldikdən sonra azərbaycanlılara qarşı soyqırımını dövlət siyasəti səviyyəsində həyata keçirməyə başladı. Andronikin, Njdenin, Dronun quldur dəstələrinin Zəngəzura basqınları 1918-ci ildə 115 Azərbaycan kəndinin viran qoyulmasına və yandırılmasına, yüz minlərlə insanın qətlə yetirilməsinə, 40 min nəfərdən artıq dinc sakinin öz doğma yurdunu tərk etməsinə səbəb oldu.

Erməni silahlı dəstələrinin azğınlığı getdikcə daha dəhşətli xarakter alırdı. Bu özbaşınalıqlara qarşı qətiyyətli mübarizə aparmaq üçün Xalq Cümhuriyyətinin Nazirlər Şurası 15 yanvar 1919-cu il tarixli iclasında Zəngəzur, Şuşa, Cavanşir və Cəbrayıl qəzaları üzrə müvəqqəti general-qubernatorluq yaradılmasını qərara aldı. Müvəqqəti general-qubernatorluğa fövqəladə səlahiyyətlər verilməsi nəzərdə tutulmuşdu.

Nazirlər Şurasının iclasında Xosrov bəy Sultanov Qarabağın general-qubernatoru vəzifəsinə təsdiq edildi.

Erməni silahlılarına cavab vermək üçün Zəngəzurun bir sıra müsəlman kəndlərində özünümüdafiə dəstələri təşkil edildi. Həmin dəstələr arasında X.Sultanovun qardaşı Sultan bəyin dəstəsi daha yüksək döyüş qabiliyyətinə malik idi. Avqust ayındakı döyüşlərdə ermənilər xeyli itki vermişdilər.

Azərbaycan hökuməti Zəngəzurda yaranmış qarışıqlığı, ermənilərin pozuculuq hərəkətlərini aradan qaldırmaq üçün müəyyən hərbi-siyasi xarakterli addımlar atmalı, bölgəyə müəyyən sayda hərbi qüvvə göndərməli oldu.

Bu zaman Azərbaycan hökuməti Qərb dövlətlərinin təklifi ilə mübahisəli məsələlərə dair konfransda iştirak etməyə razılıq verdi. Bu məsələ Dövlət Müdafiə Komitəsində də müzakirə olundu. Qəbul edilmiş qərarda silahlı qarşıdurmanın aradan qaldırılması bildirildi.

1919-cu il noyabrın 23-də Azərbaycan və Ermənistan hökumətlərinin sədrləri görüşdülər. ABŞ nümayəndələrinin vasitəçiliyi ilə təşkil edilmiş bu görüş başlıca olaraq ərazi məsələlərinin müzakirəsinə həsr edilmişdi. Azərbaycanla-Ermənistan arasında saziş imzalanır. Sazişi Azərbaycan tərəfdən N.Yusifbəyli, Ermənistan tərəfdən A.Xatisyan, ABŞ nümayəndəsi, müttəfiqlərin ali komissarının müavini C.Rey və Gürcüstanın xarici işlər naziri Gekoçkori imzalayırlar.

Bu saziş müvəqqəti xarakter daşıyırdı. Çünki sazişə görə dövlətlərarası mübahisəli məsələlərin bütün kompleksini yalnız qarşıdakı Ermənistan–Azərbaycan konfransı həll edə bilərdi. Sazişin nəticələrinə gəldikdə isə onlar Azərbaycan tərəfi üçün faydalı olmadı, əksinə onun siyasi və hərbi maraqlarına xələl gətirdi. Ermənilərin səmimi olmalarına inanan müttəfiqlərin müraciətlərini əsas tutan Azərbaycan hökuməti razılaşdırılmış məsələlərin həllini gözləmədən öz qoşun hissələrini Zəngəzurdan çıxartdı.

Saziş ərəfəsində və onun bağlandığı günlərdə belə Zəngəzurda hərbi əməliyyatları davam etdirən Ermənistan hökuməti bu şəraitdən faydalanaraq, dərhal bölgəyə əlavə nizami silahlı qüvvələr yeritdi. Nəticədə, Zəngəzur mahalının azərbaycanlı əhalisinə divan tutuldu. Zəngəzurun Oxçu, Şabadin, Pirdavdan, Atqız, Oxçu dərə və b. kəndlərinə amansız cəza verildi, talanlar edildi.

Vəziyyətin gərginləşməsi Azərbaycan Xalq Cümhuriyyətini və mahalın əhalisini ciddi əməli addım atmağa məcbur etdi. Qəzanın əhalisindən ibarət partizan dəstələri yaradılaraq cəbhə xəttində yerləşdirildi. Gəncə batalyonu Zəngəzura göndərildi. Bu tədbirlər sayəsində qısa müddətdə sakitlik yaransa da, bu çox çəkmədi.

1920-ci il aprelin əvvəllərində Tiflisdə keçirilən konfransda Azərbaycanın konfederasiya yaratmaq və onun sərhədlərini birgə müdafiə etmək haqqında təklifinə cavab olaraq Ermənistan nümayəndəsi A.Aqoranyan açıq şəkildə bildirdi ki, Ermənistan İrəvan qəzasından ibarət olan müstəqil Ermənistanın indiki sərhədlərilə razılaşa bilməz.

1920-ci il aprelin 28-də Bakıda dövlət çevrilişi nəticəsində bolşeviklər hakimiyyətə gəldilər. Rusiyanın ordu hissələri Bakını tutduqdan sonra Azərbaycanın Naxçıvan, Zəngəzur və b. bölgələrini də yenidən işğal etmək üçün xüsusi hərbi əməliyyatlar hazırladılar. Bu dövrdə Ermənistanın həmin bölgələrə dair ərazi iddiaları davam etdiyindən onunla Azərbaycan arasında hərbi-siyasi qarşıdurma nəinki səngimədi, əksinə, daha da qüvvətləndi.

1920-ci il aprelin 30-da Azərbaycan SSR XXİK-in müavini M.D.Hüseynov Ermənistan hökumətinə nota göndərdi. Bu notada aşağıdakı tələblər irəli sürülmüşdü: Üç gün müddətində Qarabağı və Zəngəzuru öz qoşunlarından təmizləmək; öz sərhədlərinə çəkilmək və millətlərarası qırğına və ədavətə son qoymaq.

Ermənistan İnqilab Komitəsi bu notanı aldıqdan sonra Rusiyanı məlumatlandırır, Qarabağda və Zəngəzurda erməni qoşunu olmadığını bildirir. Ermənistan həm də bu məsələdə Sovet Rusiyasının vasitəçilik etməsini istəyirdi. Ermənistan Qarabağı və Zəngəzuru özlərininki saydığından yalan məlumatlar verirdi. Onlar həm də Qarabağ və Zəngəzur mahallarının Türkiyə ilə birləşmə ehtimallarını irəli sürməklə Rusiyaya müəyyən eyhamlar çatdırırdı.

Sovet Rusiyası Ermənistanı da özünün asılılığına keçirmək üçün Sovet Azərbaycanının torpaqları hesabına onu sovetləşdirmək istəyirdi. Bunun üçün Azərbaycanın bir sıra ərazilərini mübahisəli sayırdı. Çiçerin Orçonikidzeyə ünvanlandığı teleqramda bildirirdi ki, "Bakıdakı böyük nüfuzundan istifadə edib Azərbaycan hökumətinin Şərur-Dərələyəz qəzasını deyil, Qarabağ və Zəngəzuru mübahisəli ərazi kimi etirafına nail olmağı xahiş edirik". İyunun 19-u teleqramında bildirirdi ki, Qarabağ, Zəngəzur, Naxçıvan, Culfa nə Ermənistana, nə Azərbaycana birləşdirilməməli, yerli sovetlərin razılığı ilə Rusiya qoşunlarının işğalı altında olmalıdırlar.

N.Nərimanovun, Gürcüstan və Ermənistan rəhbərlərinin Çiçerin və Orconikidzeyə göndərdikləri məlumat maraq doğurur: "Artıq Sovet Azərbaycanının tərkibinə daxil olan, guya mübahisəli sayılan Zəngəzur və Qarabağa gəldikdə isə qətiyyətlə bildiririk ki, bu yerlər mübahisəli ərazilər deyil və bundan sonra da Azərbaycanın hüdudlarında yerləşdirilməlidirlər. Başdan-başa müsəlmanlarla məskunlaşan, bir ildən artıqdır ki, ayrı düşən və yerli əhalinin qüvvələri ilə daşnak hökumətindən müdafiə olunan Culfa və Naxçıvan rayonları həm hərbi cəhətdən, həm də Türkiyə ilə bilavasitə əlaqə məqsədilə bizim qoşunlarla tutulmalı və Azərbaycana birləşdirilməlidirlər".

S.Orconikidze iyun teleqramında Zəngəzuru Azərbaycan ərazisi kimi qəbul etdiyi halda, Çiçerinə vurduğu iyul teleqramında Zəngəzuru mübahisəli ərazi elan edərək digər bölgələrin... Ermənistana birləşdirilməsi fikrini irəli sürmüşdü.

Zəngəzurda Sovet hakimiyyəti elan edilsə də XI Ordunun loyal mövqeyi nəticəsində Njde və Dronun silahlı qüvvələri bildiklərini edir, nəticədə ermənilər qəza inqilab komitəsi yaratdılar. Azərbaycan Gorusda Zəngəzur qəza komitəsi yaratdı və komitənin sədri Şirvani, onun müavini isə milliyyətcə erməni olan Qaragözov təyin edildilər. Ancaq təəssüf ki, Zəngəzura Sovet hakimiyyəti tərəfindən heç bir kömək və yardım göstərilmədi.

Moskvaya Zəngəzurun kimin torpağı olması o qədər də maraqlı deyildi. Ona Ermənistanda Sovet hökumətini qurmaq maraqlı idi. Sovet Rusiyası Azərbaycanda Sovet hökuməti qurulduqdan sonrakı aylarda Zəngəzuru, Qarabağ və Naxçıvanı hər bəhanə ilə Azərbaycana qaytarmağın zəruriliyini qeyd edirdisə, artıq Ermənistanda Sovet hökuməti qurulduqdan sonra Sovet rəhbərliyi başqa bir tezislə "yalnız Sovet hakimiyyəti Zəngəzuru Ermənistana birləşdirə bilər və Qarabağa muxtariyyət hüququ verə bilər" tezisi ilə çıxış etməyə başladı.

Ermənistanda Sovet hakimiyyəti qurulana qədər Stalin "Zəngəzur və Naxçıvanı Ermənistanın indiki hökumətinə vermək olmaz" deyirdisə, Ermənistanda Sovet hakimiyyəti qurulduqdan iki gün sonra – dekabrın 1-də Stalin Bakı Sovetində keçirilən iclasda N.Nərimanovu Zəngəzurun Sovet Ermənistanına verilməsi barədə bəyanatla çıxış etməyə məcbur etmişdi. Həmin bəyanatda Zəngəzur və Naxçıvan qəzaları Sovet Ermənistanının ərazisi elan edilirdi.

Stalin və Orconikidze bu "bəyanatı" tamamilə bəyəndiklərini bildirmişdilər. Orconikidze bu bəyanatı "bəşəriyyət tarixində nümunəsi olmayan mühüm əhəmiyyətli tarixi akt" kimi qiymətləndirmişdi. Stalin isə fikrini belə ifadə etmişdi: "Dekabrın 1-də Sovet Azərbaycanı mübahisəli vilayətlərdən könüllü olaraq əl çəkir. Zəngəzur, Naxçıvan və Dağlıq Qarabağın Sovet Ermənistanına verilməsini elan edir".

N.Nərimanov yanıldığını, tarixi səhvə yol verdiyini etiraf etmiş, onu millətçilikdə günahlandıranlara cavab olaraq demişdir: "Əgər Azərbaycanın müsəlman kommunistlərinin əksəriyyəti... millətçilik əhval-ruhiyyəsində olsaydı, inanın ki, Ermənistan Zəngəzuru almazdı, Gürcüstana müftə neft verilməzdi".

Beləliklə, Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra ermənilərin Zəngəzuru Azərbaycandan qoparmaq siyasəti daha da fəallaşmış, Ermənistanda sovet hakimiyyəti qurulduqdan sonra bunu həyata keçirmək mümkün olmuşdu. Sovet Rusiyasının yaxından iştirakı ilə Zəngəzur qəzası torpaqlarının böyük bir hissəsi – 4,5 min kvadratkilometr ərazisi Ermənistana ilhaq edilmişdi. Bu tarixi səhvin nəticəsində Zəngəzur mahalının qərb hissəsi itirildi və hətta Azərbaycanın 1921-ci ildə tərtib olunan xəritələrində belə Ermənistanın ərazisi kimi verildi.

Qərbi Zəngəzurun itirilməsi ilə bağlı ulu öndər Heydər Əliyev demişdir: "XX əsrin 20-ci illərində, yəni sovet hakimiyyəti təzə qurulan zaman Qafqazda respublikaların sərhədləri yaranarkən Azərbaycana qarşı ədalətsizlik edilibdir. Azərbaycanın qədim torpaqları olan Zəngəzur mahalı və başqaları Ermənistana verilibdir. Bununla əlaqədar Zəngəzurun Araz çayı sahilində olan, qədim Azərbaycan torpağı olan Mehri rayonu da Ermənistana verilibdir. Beləliklə, böyük Azərbaycan ilə onun ayrılmaz hissəsi olan Naxçıvan arasında coğrafi nöqteyi-nəzərdən müəyyən çətinliklər yaranıbdır".

Ermənistan Xalq Komissarları Sovetinin 1921-ci il 20 iyul tarixli qərarı ilə Ermənistan SSR 9-cu qəza olan Zəngəzur qəzasını yaratdı, Zəngəzur qəzasının tərkibində indiki Sisyan, Qafan, Gorus rayonları və Meğri (Mehri) rayonunun bir hissəsi daxil edildi. Zəngəzur bir tarixi vilayət kimi ləğv edildi.

Zəngəzurun Ermənistana verilməsi prosesi sonrakı illərdə də davam etdirildi. 1927-ci ildə Zaqafqaziya MİK Rəyasət Heyətinin qərarı ilə Azərbaycanın Mehri–Cəbrayıl qəzasının 27 kəndi, Zəngəzur qəzasının isə 10 min desyatindən çox yaylaq ərazisi Ermənistana peşkəş edildi. 1929-cu il fevralın 18-də isə Zaqafqaziya MİK Rəyasət Heyətinin qərarı ilə Zəngilan rayonunun daha 3 kəndi – Nüvədi, Ernəzir və Tuğut kəndləri Ermənistana verilməklə Zəngəzurda daha bir erməni rayonu – Menru rayonu təsis edildi.

Tarixi Azərbaycan torpaqları olan Zəngəzur qəzasının böyük bir hissəsinin Ermənistana ilhaq edilməsi ilə birgə Azərbaycana daha bir zərbə vurulmuş, Naxçıvan Azərbaycandan ayrı salınmışdı. Ermənilərin məqsədi Naxçıvanı ilhaq etmək idi. Naxçıvanın qəhrəman övladlarının sayəsində ermənilər buna nail ola bilmədilər. 1923-cü ildə Ermənistanın ilk baş naziri O.Kaçaznuni öz hesabatında bunu açıq etiraf etmişdir .

İkinci Dünya müharibəsi ərəfəsində Zəngəzur ərazisindən keçməklə Naxçıvan ərazisinə dəmir yolu çəkilmişdir və onun fəaliyyəti XX yüzilliyin 90-cı illərin əvvəlinə kimi davam etmişdir. Lakin Ermənistanın Dağlıq Qarabağı Ermənistana birləşdirmək siyasəti Azərbaycan-Ermənistan qarşıdurmasına və müharibələrinə gətirib çıxarmışdır. Bundan istifadə edən Ermənistan Naxçıvana gələn kommunikasıyaları Zəngəzur dəhlizində kəsmiş, nəticədə Naxçıvanın Azərbaycanla quru əlaqəsi pozulmuş, ərazi blokada vəziyyətinə düşmüşdür. Otuz ildir ki, Naxçıvan blokada şəraitində yaşayır.

Dağlıq Qarabağın və onun ətrafındakı rayonların azad edilməsi üçün 44 gün davam edən Vətən müharibəsi – İkinci Qarabağ müharibəsində Azərbaycanın qələbəsi Zəngəzuru bir daha gündəmə gətirdi. Azərbaycan Respublikasının Prezidenti, Ermənistan Respublikasının baş naziri və Rusiya Federasiyasının Prezidentinin 2020-ci il 10 noyabr bəyanatının sonuncu, 9-cu bəndində göstərilirdi ki, bölgədəki bütün iqtisadi və nəqliyyat əlaqələri bərpa ediləcək, Tərəflərin razılığı əsasında Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın qərb rayonlarını birləşdirən yeni nəqliyyat kommunikasıyalarının inşası təmin ediləcək.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "CNN Türk" televiziya kanalına müsahibəsində Zəngəzur dəhlizi məsələsindən bəhs edərkən demişdir: "Zəngəzur dəhlizinin tam fəaliyyəti üçün həm dəmir yolu, həm avtomobil yolu olmalıdır. Biz Bakıda avtomobilə əyləşib oradan rahatlıqla Türkiyəyə və Naxçıvana keçə bilərik. Bu, eyni zamanda, bölgə ölkələri üçün də yeni fürsət olacaq".

Tarixi Şuşa Bəyannaməsində Zəngəzur dəhlizinə xüsusi yer verilmişdir. Bəyannamədə deyilir ki, "Tərəflər Azərbaycan və Türkiyəni birləşdirən Azərbaycan Respublikasının qərb rayonları ilə Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikası arasında dəhlizin (Zəngəzur dəhlizi) açılmasının və həmin dəhlizin davamı kimi Naxçıvan-Qars dəmir yolunun tikintisinin iki ölkə arasında nəqliyyat-kommunikasiya əlaqələrinin intensivləşməsinə mühüm töhfə verəcəyini qeyd edirlər".

Yaradılarkən hətta 10 min kvadrat kilometr əraziyə malik olmayan Ararat Respublikası 1920-ci ilin ortalarında dövlətin adını Ermənistan Respublikasına çevirməklə Azərbaycan torpaqlarına yiyələnmək üçün himayədarlarının köməyi ilə mərhələ-mərhələ öz məqsədlərinə nail olurdular. Təbii ki, Sovet Rusiyası, sonra isə SSRİ deyilən imperiya və onun ermənipərəst rəhbərləri bu sahədə onlara hər cür kömək və yardım göstərirdilər. Ərazinin qədim sakinləri həmin ərazilərdən deportasiya olundu, qaçqın və məcburi köçkünə çevrildi.

Lakin bu ədalətsizlikləri Azərbaycan xalqı unutmur, öz tarixi torpaqlarına qayıtmaları üçün fəaliyyət göstərirlər. İkinci Qarabağ müharibəsi bunu bir daha təsdiq etdi. Sərhədlərin delimitasiya və demarkasiyası itirilmiş torpaqlarımızın qaytarılması üçün əsas verir. Bununla da 200 ildən artıq davam edən erməni ideologiyasına son qoyulacaqdır.

İbadulla Ağayev – 75

# Tanınmış epidemioloq, nurlu pedaqoq

**Xalq öz dəyərli övladları ilə tanınır və onlarla fəxr edir. Xalqımızın belə övladlarından birinin – Azərbaycan Tibb Universitetinin epidemiologiya və biostatistika kafedrasının müdiri, Əməkdar elm xadimi, Əməkdar müəllim, tibb elmləri doktoru, professor İbadulla Əliağa oğlu Ağayevin 75 yaşı tamam olur.**

İbadulla Ağayev 1950-ci ildə Sabirabad rayonunun Cəngən kəndində anadan olmuşdur. 1966-cı ildə orta məktəbi bitirdikdən sonra N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutunun müalicə-profilaktika fakültəsinə daxil olmuşdur. 1973-cü ildə ali təhsilini müvəffəqiyyətlə başa çatdırdıqdan sonra bir müddət Bakı şəhər mərkəzi təcili tibbi yardım stansiyasında səyyar həkim işləmişdir. 1976-cı ildə isə müsabiqə yolu ilə N.Nərimanov adına ADTİ-nin epidemiologiya kafedrasına assistent seçilmişdir.1979-cu ildə namizədlik dissertasiyası müdafiə edərək tibb elmləri namizədi elmi dərəcəsi almışdır. İ.Ağayev 1982-1992-ci illərdə kafedranın dosenti vəzifəsində işləmişdir.



1991-ci ildə isə İbadulla Ağayev tibb elmləri doktoru elmi dərəcəsi almaq üçün dissertasiya müdafiə etmiş, 1992-ci ildə professor elmi adı almışdır. 1992-ci ildən ATU-nun epidemiologiya və biostatistika kafedrasının müdiridir.

Tibb Universitetinin kafedra müdiri kimi ölkəmizdə minlərlə ali təhsilli tibb mütəxəssisinin hazırlanmasında, onların mənəvi keyfiyyətlərinin milli-mədəni dəyərlərimiz zəminində formalaşmasında böyük rolu olan İbadulla müəllimin zəhməti danılmazdır.

Professor İ.Ağayevin zəngin bilik və təcrübəsi, tükənməz enerjisi onun müxtəlif ictimai işlərdə, elmi-praktik cəmiyyətlərin fəaliyyətində fəal iştirak etməsinə zəmin yaradır. Belə ki, o, kafedra müdiri olmaqla yanaşı, uzun illər Səhiyyə Nazirliyinin baş epidemioloqu olmuşdur. ATU-nun nəzdində fəaliyyət göstərən dissertasiya şurasının, eyni zamanda, profil sahələr üzrə problem komissiyasının sədridir.

Professor İ.Ağayevin yaradıcı fəaliyyətinin mühüm hissəsini tədris- metodik iş təşkil edir. Bu illər ərzində İbadulla müəllim çox məhsuldar elmi fəaliyyətlə məşğul olmuşdur. O, 300 sanballı elmi əsərin müəllifidir. Onun elmi rəhbərliyi altında 40 namizədlik və 5 doktorluq dissertasiyası müdafiə edilmişdir. Professor İbadulla Ağayev epidemiologiyaya həsr olunmuş 10 dərsliyin, 15 tədris vəsaitinin, 10 elmi-kütləvi kitabçanın, 10 metodik göstərişin müəllifidir.

...Yaşının üstünə bir yaş da gəldi və ömür kitabının bir səhifəsi də çevrilərək arxada qaldı. Dönüb arxaya baxanda və yaşanmış illəri yada salanda heç bir peşmançılıq hissi ola bilməz. Əgər Vətənimiz Azərbaycanın coğrafi xəritəsini qarşımıza qoyub baxsaq və İbadulla müəllimin tələbəsi olan hər yerdə bir işıq yandırsaq, bu xəritə başdan-başa nura qərq olar. O, işıq saçan, nur paylayan, savad, bilik verən, insanlıq nümunəsi göstərən parlaq ziyalılarımızdandır. İbadulla müəllim paklıq, saflıq və səmimiyyət nümunəsidir. O, dostluqda da çox etibarlıdır. İbadulla müəllim ifrat dərəcədə sadə insandır. O qədər sadədir ki, hər adam onu başa düşə bilməz. Onu göründüyü kimi yox, olduğu kimi qəbul etmək lazımdır. O zaman bu alimin, müəllimin, insanın nəhəngliyini duymaq olar. İbadulla müəllim dünya ədəbiyyatının mükəmməl bilicisidir, klassiklərin əsərləri barədə çox yaxşı məlumata malikdir. O, yaddaşında təmiz, nurlu fikirlərlə bərabər, gözəl poeziya nümunələri də saxlayır. Danışarkən hər məqama uyğun fəlsəfi fikirlər, işıqlı və məlhəm sözlər, mənalı şeirlər seçə bilir. Bir sözlə, dərs dediyi auditoriyanı, çıxış etdiyi hər hansı bir məclisi dərhal ələ ala bilir.

İbadulla müəllim həm də, gözəl tarixçi, etnoqraf və filosofdur. Doğulduğu məmləkətin tarixini mükəmməl bilir və onu qarış-qarış gəzmişdir. O, dostluq, sədaqət, paklıq, saflıq, səmimiyyət, bir sözlə, böyük hərflərlə yazılan İNSANLIQ etalonudur.

İ.Ağayev bir alim kimi, dünyanın müxtəlif ölkələrində keçirilən elmi simpozium və konfranslarda dəfələrlə iştirak etmiş və Azərbaycanı ləyaqətlə təmsil etmişdir. O, öz sözünü lazımi məqamda deyə bilən cəsarətli, novator alimdir. Bütün qəlbi, ruhu ilə Vətəninə, xalqına bağlıdır.

Professor İbadulla Ağayev milli-mənəvi-mədəni dəyərlərimizi, adət-ənənələrimizi, poeziyamızı, musiqimizi – muğamımızı, aşıq musiqisini dərindən bilən, hərtərəfli istedada malik ziyalılarımızdandır. O, ana dilimizin incəliyinə, gözəlliyinə, dərinliyinə, zənginliyinə hakim olan alimlərimizdəndir. İstər öz peşəsinə dair, istərsə də incəsənətin ayrı-ayrı sahələrinə həsr olunmuş məruzələri, çıxışları həm məna və məzmunca, həm də dilimizin zənginliyi və gözəlliyi baxımından səlist, virtuoz ritorikası ilə dinləyicini ovsunlamaq, cəzb etmək qabiliyyətinə malikdir.

Göyçəlilərin əhatəsində böyümüş İbadulla müəllimin Göyçəyə və göyçəlilərə xüsüsi hörməti olmuş, uşaqlıqdan Aşıq Alıdan, Dədə Ələsgərdən xəbərdar olub, sonralar Zodlu Abdullaya üz tutmuş, Zodlu Abdullanın şerlərini toplayaraq kitab halına salmış, ona "Ön söz" yazaraq öz vəsaiti ilə çap etdirmişdir. 2024-cü ildə zodluların yaşadığı Göygöl rayonunda təqdimat mərasimini keçirmişdir.

Yaxından tanıdığım İbadulla müəllim dostluqda etibarlı, səmimi, sözü ilə əməli uyğun gələn, ər kişilərə məxsus mərd, dəyanətli xüsusiyyətlərə malik insandır. Onun mərhum dostumuz, 50-dən çox kitabın, məşhur "Ulu Göyçə" poemasının müəllifi, istedalı şair Eldar İsmayılla dostluğu hər kəsə nümunə ola biləcək örnəkdir. İbadulla müəllim Eldar İsmayılın yubileylərinin və yeni çapdan çıxmış bir çox kitablarının təqdimatının aparıcısı olmuşdur. Şairin "Sən məni aldada bilməzsən, dünya" kitabına "Ön sözü" də İbadulla müəllim yazmışdır.

İ.Ağayevin elmi və pedaqoji fəaliyyəti həmişə diqqət mərkəzində olmuş, lazımi dərəcədə qiymətləndirilmişdir. Belə ki, o, 2000-ci ildə Azərbaycan Respublikası Prezidentinin fərmanı ilə "Əməkdar müəllim", 2007-ci ildə isə Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə "Əməkdar elm xadimi" fəxri adlarına layiq görülmüşdür. 2000-ci ildə Rusiya Təbiət Elmləri Akademiyasının İ.P.Pavlov adına gümüş medalı ilə təltif olunmuşdur. O, həmçinin 1999-cu ildən Rusiya Təbiət Elmləri Akademiyasının, 2001-ci ildən isə Beynəlxalq Ekoenerji Akademiyasının üzvü seçilmişdir.

Sadə və təvazökar insan, yaxşı dost və məsləhətçi olan İbadulla müəllim ömrünün kamillik çağlarını şərəflə başa vuraraq aqillik dövrünə qədəm qoyur. Hazırda o, elmi fəaliyyətinin məhsuldar, pedoqoji ustalığın kamillik dövrünü yaşayır. Gələcəkdə onu Azərbaycan xalqının rifahı naminə tibb elmi və səhiyyəsinin inkişafı yolunda yeni-yeni işlər gözləyir.

Professor İbadulla Ağayev çoxşaxəli yaradıcılıq istedadına malik, geniş dünyagörüşlü elm adamı olaraq daim axtarışda olan ziyalılarımızdandır! 75 illik yubileyi münasibətilə tibb elmimizin fəxri, görkəmli alim, ziyalı dostumuz İbadulla Ağayevi təbrik edir, ona möhkəm cansağlığı, uzun ömür, yeni-yeni yaradıcılıq uğurları arzulayırıq.

***Ələddin ALLAHVERDİYEV,***
***professor***

**Moskva**

REPLİKA

# Sürət qatarında "sürət çatışmazlığı" sindromu

**Dünən səhər saatlarında yenə də Sumqayıt–Bakı istiqamətində hərəkət edən sürətli elektrik qatarında texniki nasazlıq qeydə alınıb. Həmin qatarda olan əməkdaşlarımız xəbər verirlər ki, saat 08:55-də Sumqayıt dəmir yolu stansiyasından hərəkətə başlayan Sumqayıt–Xırdalan–Bakı qatarı 09:35-də son ünvana çatmalı idi. Lakin 09:22-də Biləcəri stansiyasında dayanan qatar orada xeyli ləngiyib.**




Maşinist sərnişinlərə bunun texniki səbəblər üzündən baş verdiyini elan edib. Daha 10 dəqiqə sonra nasazlıq olduğunu yenidən bildirib və bu dəfə, nəhayət, üzrlü sayılmasını xahiş edib. Beləcə, qatar 38 dəqiqə hərəkətsiz qalıb. İşə, dərsə, həkim qəbuluna tələsən və sair bu kimi qayğıları olan sərnişinlər ictimai nəqliyyat və ya taksi ilə birtəhər gəlib vağzala çataraq (eyni zamanda, vaqonlarda yer az olduğuna görə ayaqüstə getməyi gözə almaqla) qatara minsələr də, problem yaşayıblar. Oturacaq yerlərinin sayı 396 olan 4 vaqona doluşmuş 900–1000 nəfər "texniki səbəb"dən narahatlıq keçirib və əsəbilik, giley-güzar, tənqid qaçılmaz olub. Bəziləri məcburən qatardan düşməli olublar. Qalanlar isə saat 09-35 əvəzinə, 10-13-də Bakı dəmir yolu vağzalına çatıblar.

Bildiyimiz kimi, ölkə üzrə tıxaclarda ən çox vaxt itkisi məhz Bakı–Sumqayıt avtomobil yolunda qeydə alınır. Buna görə də həmin istiqamətdə və geriyə yolçuluq edən bir çox sərnişin sürət qatarının xidmətindən istifadə edir. Gün ərzində dəmir yolu ilə 8-10 min sərnişin daşınır. O da ki, belə!.. Necə deyərlər, 3 gündənbir–5 gündənbir qatarla sərnişin daşınmasında belə hallar baş verir (Onu da deyək ki, metrodan fərqli olaraq, şəhərətrafı qatarlarda şəbəkənin kəsilməsi üzündən "Wi-Fi"dan istifadə etmək də mümkün olmur). Bütün bunlar sərnişinlərin rahat, sürətli və təhlükəsiz daşınmasına kölgə salır. Təbii olaraq, bəziləri sosial şəbəkələr, həmin qatarların gündəlik sərnişini olan əməkdaşlarımız isə qəzetimiz vasitəsilə bu nöqsanları ictimailəşdirirlər.

P.S: Oxuculara onu da xatırladaq ki, bu il yanvarın 17-də qəzetimizdə dərc olunan "Sürət qatarı beləmi olur?!" adlı replika dərc etmişdik. Həmin yazıda gün ərzində 2 dəfə – səhər və axşam vaqon qapısının açılmaması və bağlanmaması üzündən gecikmə baş verdiyi tənqid olunmuşdu. Müvafiq tədbirlərin görülməsi ilə bağlı "Azərbaycan Dəmir Yolları" QSC-yə ünvanladığımız məktuba sədrin 1-ci müavini Əlirza Süleymanovun imzası ilə aldığımız cavabda gecikmənin səbəbi izah edilməklə bərabər, baş redaktordan xahiş olunurdu ki, "qərəzli və yanlış" məlumatlar yayan əməkdaşımız barəsində müvafiq tədbir görülsün. Amma bu növbəti fakt da göstərdi ki, bizim kiminləsə heç bir qərəzimiz yoxdur, sadəcə olaraq, sərnişinlərdə narahatlıq və əsəb gərginliyi yaradan halları nəzərə çatdırırıq ki, qarşısı alınsın. "Müvafiq tədbir"i isə biz yox, müvafiq təşkilatlar görməlidirlər.

***XQ***

# Erməniəsilli şəxslərin məhkəməsində sənədlərin tədqiqi mərhələsi başlayıb

**Ermənistanın hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin hazırlanması və aparılması, soyqırımı, müharibə qanunlarını və qaydalarını pozma, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, hakimiyyəti zorla ələ keçirmə, onu zorla saxlama və digər çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilən Ermənistan Respublikasının vətəndaşları Arayik Harutyunyan, Arkadi Qukasyan, Bako Sahakyan, Davit İşxanyan, Davit Babayan, Lyova Mnatsakanyan və digərlərinin barəsində cinayət işləri üzrə məhkəmə prosesinin baxış iclası martın 6-da davam etdirilib.**



Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Camal Ramazanovdan və Anar Rzayevdən ibarət tərkibdə (ehtiyat hakim Günel Səmədova) keçirilən məhkəmə iclasında təqsirləndirilən şəxslərin hər biri bildikləri dildə tərcüməçi, habelə müdafiələri üçün vəkillərlə təmin olunub.

Təqsirləndirilən şəxslər və onların müdafiəçiləri, zərərçəkmiş şəxslərin bir qismi, onların hüquqi varisləri və nümayəndələri, habelə dövlət ittihamını müdafiə edən prokurorlar iclasda iştirak ediblər.

Məhkəmə iclasında sədrlik edən hakim əvvəlcə təqsirləndirilən şəxs Bako Sahakyana hüquqlarının müdafiəsi üçün dövlət hesabına əlavə vəkil təyin olunması barədə məlumat verərək müdafiəçisini ona təqdim edib. Bako Sahakyan yeni müdafiəçiyə etiraz etmədiyini bildirib.

Məhkəmə iclasının sədri dindirməni başlayarkən təqsirləndirilən şəxslərin hər birinə onlara elan olunmuş ittiham və həmin ittihamın hərtərəfli, tam və obyektiv baxılması üçün əhəmiyyətli olan digər hallar barədə ifadə verməyi təklif edib.

Budəfəki məhkəmə iclasında təqsirləndirilən şəxslər Davit Manukyan, Qurgen Stepanyan, Davit Allahverdiyan, Melikset Paşayan, Qarik Martirosyan, Levon Balayan, Madat Babayan sərbəst ifadə veriblər.

Sərbəst ifadə verən Ermənistanda anadan olmuş, Ermənistan Respublikasının vətəndaşı, Ermənistan silahlı qüvvələrinin hərbi qulluqçusu olmuş, general-mayor ali hərbi rütbəsində xidmət etmiş, qondarma rejimin qanunsuz silahlı birləşmələrində "komandanın 1-ci müavini", Ermənistan Respublikasının Müdafiə Nazirliyinin Baş qərargahında Kadrlar idarəsinin rəisi, korpus komandiri işləmiş təqsirləndirilən şəxs Davit Manukyan ifadəsində Azərbaycan Silahlı Qüvvələrinə qarşı döyüşdüyünü etiraf edib. O, hərbçi olduğunu, Ermənistanda xidmət etdiyini, həmçinin Birinci və İkinci Qarabağ müharibələri zamanı Ermənistan ordusunun tərkibində Azərbaycan Respublikasının Silahlı Qüvvələrinə qarşı vuruşduğunu bildirərək deyib: "Birinci müharibə zamanı xidməti mövqeyim, vəzifəm olmayıb. İkinci müharibə zamanı isə olub. Amma bütün bunlar mənim xidməti öhdəliklərimdən qaynaqlanıb. Xüsusilə müharibənin planlaşdırılması... Mənim öhdəliklərimdə, vəzifə borcumda aydın şəkildə yazılıb: "Döyüş hazırlığı ilə məşğul olmaq". Orada müharibənin planlaşdırılması yoxdur. Bu, anlaşılan deyil, əlaqəsizdir".

O, Birinci Qarabağ müharibəsi zamanı sıravi əsgər olduğunu xatırladaraq bildirib: "Mən sıravi əsgər statusunda olmuşam, döyüş əməliyyatlarında iştirak etmişəm. 1993-cü il fevralın 28-də Ağdərə istiqamətində yaralanmışam. 1994-cü ildə yenidən xidmətə qayıtmışam... Müharibədən sonra da xidmətə davam etmişəm, zabit rütbəsi almışam".

Təqsirləndirilən şəxs qondarma rejimin "Təhlükəsizlik Şurası"nın iclaslarında iştirak etmədiyini vurğulayaraq deyib: "İclaslarda əsas üzv, müşahidəçi qismində iştirak etməmişəm, onun keçirildiyi barədə də məlumatım olmayıb".

O, 44 günlük müharibə zamanı avtomobilinin "Bayraktar" PUA-sı ilə vurulduğunu da bildirərək qeyd edib: "Sürücüm yaralandı, mən isə 20 metr aralıda olduğumdan xəsarət almadım".

Davit Manukyan 2021-ci ilin dekabrında hərbi xidmətdən məzuniyyətə çıxdığını, 2022-ci ilin yanvarında isə vəzifəsini təhvil verdiyini, habelə Ermənistan Respublikasının vətəndaşlarının qondarma rejimin "ordusu"nda hərbi xidmət keçdiyini qeyd edərək diqqətə çatdırıb: "Bir qədər geriyə qayıdım. Orduda 2020-ci ildən sonra kifayət qədər ixtisarlar baş verdi. Diviziyanı da ixtisar aparıb briqada səviyyəsinə saldılar".

O, həmçinin 2020-2023-cü illər ərzində Qarabağda təxminən 10 minədək hərbi qulluqçunun olduğunu deyib. Bundan başqa, istintaq dövründə müstəntiqlərlə çox yaxşı əməkdaşlıq etdiyini söyləyib.

Təqsirləndirilən şəxs evində tapılmış silahlar barədə də danışıb: "Mənim Xankəndidəki mənzilimdə iki silahım olub. Biri tapança, o birisi isə yivli ov tüfəngi. Hər iki silah Ermənistan Respublikasının Polis İdarəsində qeydiyyatdadır".

Təqsirləndirilən şəxs Qurgen Stepanyan 2005-2007-ci illərdə Hadrutda müddətli hərbi xidmət keçdiyini, 2023-cü ildə isə döyüş postuna aparıldığını bildirərək deyib: "Sentyabrın 19-da postdan Xankəndiyə qaçmağa başladıq, yolda sizin hərbçilərlə qarşılaşdıq, onlara təslim olduq".

Təqsirləndirilən şəxs Davit Allahverdiyan isə sərbəst ifadəsi zamanı ilkin istintaqda bütün suallara cavab verdiyini və məhkəmə istintaqı zamanı da cavab verəcəyini bildirib. "Mənə qarşı münasibət insani, yaxşı olub, buna görə təşəkkür edirəm. İndi də bütün suallara cavab verməyə hazıram", - deyə o əlavə edib.

Digər təqsirləndirilən şəxs Melikset Paşayan ifadəsində ittihamlarla tanış olduğunu bildirib. O, sovet ordusunda xidmət etdiyini, 1993-cü ildə Azərbaycana qarşı döyüşlərdə iştirak etmək üçün qondarma rejimin "hərbi komissarlığı"ndan çağırış aldığını söyləyərək deyib: "1994-cü il atəşkəsinə qədər mən ancaq Ağdamda mövqe qorumuşam. 2020-ci ildə 44 günlük müharibə zamanı isə kənddəki oğlanlarla qərara gəlib mövqeləri qorumağa getdik. Üç-dörd həftə mövqe qoruduq".

Melikset Paşayan 2023-cü il sentyabrın 19-20-də Azərbaycan Ordusunun həyata keçirdiyi antiterror tədbirləri zamanı barmağından yaralandığını, sonra isə tutulduğunu bildirib.

Təqsirləndirilən şəxs Qarik Martirosyan ifadəsində Birinci Qarabağ müharibəsində Ağdam rayonunda ön postlarda olduğunu etiraf edərək bildirib: "İkinci Qarabağ müharibəsində isə Əsgəran rayonunda olmuşuq. 44 günlük müharibə zamanı da orada olmuşam".

Təqsirləndirilən daha bir şəxs Levon Balayan ifadəsində 44 günlük Vətən müharibəsi və antiterror əməliyyatları zamanı Ermənistan dövlətinin nəzarətində olan qondarma rejimin "ordusu"nda xidmət etdiyini söyləyib.

Təqsirləndirilən şəxs Madat Babayan isə 1992-ci ildə Xocalıda olduğunu etiraf edib. O vurğulayıb: "1992-ci ildə Xocalıda olmuşam. Məni çağırdılar getdim. Dedilər burada meyitlər var, gəl dəfn edək. Mən də aparıb yerini göstərdim".

Ardınca təqsirləndirilən şəxs Bako Sahakyan söz istəyərək qısa çıxış edib. O, Ermənistanın rəhbərliyi və nəzarəti altında fəaliyyət göstərən qondarma rejimin "prezidenti" kimi gördüyü işlərdən danışıb. Habelə ibtidai istintaq dövründə verilən sualları cavablandırması üçün ona geniş imkanların yaradıldığını qeyd edib.

Bundan sonra məhkəmədə sənədlərin tədqiqi mərhələsi başlayıb.

Dövlət ittihamını müdafiə edən Baş prokurorun böyük köməkçisi Vüsal Əliyev Qarabağın Azərbaycanın suveren ərazisi olmasını və Ermənistanın Qarabağı öz ərazisinə birləşdirmək niyyətini təsdiq edən tarixi sənədləri, yəni:

- DQMV Vilayət Xalq Deputatları Sovetinin "Dağlıq Qarabağ Muxtar Vilayətinin Azərbaycan SSR-dən Ermənistan SSR-ə verilməsi barədə Azərbaycan və Ermənistan SSR Ali sovetlərinə Müraciət haqqında" 1988-ci il 20 fevral tarixli qərarı;
- "DQMV-nin Azərbaycan SSR-in tərkibindən çıxarılaraq Ermənistan SSR-in tərkibinə verilməsi və bu barədə SSRİ Ali Sovetinə müraciət edilməsi haqqında" Ermənistan SSR Ali Sovetinin 1988-ci il 15 iyun tarixli qərarı;
- SSRİ Ali Soveti Rəyasət Heyətinin "DQMV-nin Ermənistan SSR-in tərkibinə verilməsi haqqında Ermənistan SSR Ali Sovetinin 1988-ci il 15 iyun tarixli qərarının və DQMV Vilayət Xalq Deputatları Sovetinin 1988-ci il 20 fevral tarixli vəsatətinin SSRİ Konstitusiyasına zidd olması barədə" 1988-ci il 18 iyul tarixli qərarı;
- SSRİ Konstitusiyasının 78-ci maddəsi;
- Azərbaycan Respublikasının dövlət müstəqilliyini bərpa etmək haqqında bəyannamə barəsində Azərbaycan Respublikası Ali Sovetinin 1991-ci il 30 avqust tarixli qərarı;
- 1991-ci il 2 sentyabr tarixli "Dağlıq Qarabağ Respublikasının elan edilməsi haqqında qərar və bəyannamə"ni və digər sənədləri təqdim edib.

Bundan sonra Baş prokurorun xüsusi tapşırıqlar üzrə köməkçisi Tuqay Rəhimli və dövlət ittihamçısı Fuad Musayev Ermənistan SSR-in ərazisində və Azərbaycan SSR-in tərkib hissəsi olan Qarabağda Ermənistan tərəfindən yaradılan və onun rəhbərliyi ilə fəaliyyət göstərən cinayətkar birliyin özəyini təşkil edən, 1980-ci illərdə Qarabağda və Ermənistanda yaradılmış 40-a qədər "Böyük Tiqran", "David Sasunski", "Arçiv", "Daşnaksakaner", "Şuşa", "Sasun", "Maral", "Ağdərə bölüyü", "Xankəndi alayı", "Sisiyan bölüyü", "Hadrut bölüyü", "Sasna Srer bölüyü", "Xaçlılar", "Erkrap-Könüllülər dəstəsi", "Malatiya", "Arabo", "Muş" və digər qanunsuz silahlı birləşmələrin yaradılması, məqsədləri, fəaliyyəti və rəhbərlərinə dair sənədləri təqdim ediblər.

Ardınca təqsirləndirilən şəxs Arkadi Qukasyana tədqiq edilmiş sənədlərə münasibət bildirməsi, qeyd olunan qanunsuz silahlı birləşmələrin rəhbərləri və iştirakçıları, Ermənistanla əlaqələri, fəaliyyəti, onun bu birləşmələrin fəaliyyətində iştirakı, Ermənistanda və Azərbaycan Respublikasının suveren ərazisi olan Qarabağda yaradılmış "Krunq" təşkilatında fəaliyyəti ilə əlaqədar həbs edilməsi, "böyük Ermənistan" və "Miatsum" cinayətkar ideologiyaları barədə suallar verilib.

Təqsirləndirilən şəxs "Krunq" təşkilatının fəaliyyətində iştirak etmədiyini, həmin dövrdəki həbsinin bu təşkilatdakı fəaliyyətinə görə olmadığını, sadalanan qanunsuz silahlı birləşmələrin rəhbərlərinin adlarının hər kəsə məlum olduğunu, o cümlədən bu gün məhkəmədə tədqiq edilən sənədlərdə bu şəxslərin adının qeyd olunduğunu, lakin özünün həmin adları çəkməyəcəyini bildirib.

Məhkəmənin növbəti iclası martın 10-na təyin olundu.

***XQ***

# Heydər Əliyev Mərkəzində italyan heykəltaraşın sərgisi



**Martın 6-da Heydər Əliyev Mərkəzində italyan heykəltaraş Cüzeppe Kartanın "Təbiətin nemətləri" adlı fərdi sərgisi açılıb.**

Ekspozisiyada böyük meyvə və tərəvəz heykəllərinin müəllifi Cüzeppe Kartanın müxtəlif əsərləri sərgilənir. Müəllif bu əsərlərin bir qismini məhz Heydər Əliyev Mərkəzindəki sərgisi üçün yaradıb və onlar ictimaiyyətə ilk dəfə Bakıda təqdim olunur.

Tədbiri açan Heydər Əliyev Mərkəzinin direktoru Anar Ələkbərov diqqətə



çatdırıb ki, Mərkəz yarandığı gündən burada çoxsaylı tədbirlər keçirilir. O, bu gün çox maraqlı heykəltaraş Cüzeppe Kartanın əsərlərinin təqdim olunacağını deyib və sərginin ərsəyə gəlməsində əməyi keçənlərə təşəkkürünü bildirib.

Anar Ələkbərov vurğulayıb ki, sərgidə Cüzeppe Kartanın 40-a yaxın əsəri təqdim olunur. Həmçinin bildirib ki, ölkəmiz bu yaxınlarda Venesiya Biennalesində də iştirak edəcək və həmin Biennaledə Heydər Əliyev Fondunun dəstəyi ilə Azərbaycanın bir sıra memarlıq əsərləri təqdim olunacaq. O qeyd edib ki, artıq bu istiqamətdə hazırlıqlara başlanılıb. Xüsusi olaraq Zəfər muzey və park komplekslərinə önəm veriləcək, Zəngilan və Şuşa məscidləri, "Ağ şəhər" Kompleksi Venesiya Biennalesində təqdim olunacaq.

İtaliyanın Azərbaycandakı səfiri Luka Di Canfrançesko sərginin təşkilinə görə Heydər Əliyev Fonduna təşəkkürünü bildirib. O, Fondun İtaliya incəsənətini, italyan mədəniyyətini hər zaman təşviq etdi-





yini diqqətə çatdırıb, yüksək səviyyədə və hərtərəfli əməkdaşlığa görə minnətdarlığını ifadə edib. Səfir bundan sonra da bir sıra digər çoxsaylı təşəbbüslərə dəstək veriləcəyini qeyd edib.

Heykəltaraş Cüzeppe Karta Heydər Əliyev Mərkəzinin gözəl, əhəmiyyətli və nüfuzlu məkanlar sırasında olduğunu bildirib. O, incəsənət sahəsində fəaliyyəti barədə məlumat verərək, artıq 30 ildir heykəltaraşlıqla məşğul olduğunu söyləyib, öz əsərlərini olduqca sadə formada ərsəyə gətirdiyini qeyd edib.

Heykəltaraş bildirib ki, yaratdığı bütün əsərləri "cücərmə" adlandırır və əsərlərində "cücərmə"ni əks etdirməyə çalışır. Onun sözlərinə görə, hər kəs öz üzərinə düşən işi etməklə təbiətə minnətdar olmalıdır.

Sonra sərgiyə baxış keçirilib.

Mərkəzin park ərazisində və sərgi zalında nümayiş olunan əsərlər arasında xüsusi sənətkarlıqla işlənilən, yaradılması böyük zaman tələb edən fındıq, moruq, şaftalı, Çili bibərinin unikal heykəlləri və instalyasiyalar yer alıb.

Əsərlər mövzunun sadəliyi baxımından tamaşaçıya çox yaxındır, eyni zamanda, təbiətin bizə bəxş etdiyi nemətlərin nə qədər dəyərli olduğunu ifadə edir. Məhz bu xüsusiyyət Cüzeppe Karta yaradıcılığının incəsənət nöqteyi-nəzərindən ümumbəşəri mesajını çatdırır.

Nar, zeytun, üzüm və s. heykəlləri Cüzeppe Kartanı dünyaya sülhü, torpağı və xalqların mədəniyyətini təbliğ edən incəsənət xadimi kimi tanıdıb. Onun sənətinin əsas mövzusu təbiət və torpağın nemətləridir. O, bu mövzunu həyatın, ümidin, yenidən doğuluşun və cücərmənin universal rəmzi kimi təsvir edir.

Avropada tanınan "Böyük bibərlər" seriyası Cüzeppe Karta tərəfindən Çin Xalq Respublikasının Siçuan əyalətinin Çonqkinq şəhəri üçün hazırlanıb. 7,5 metr hündürlüyündəki bu heykəl bölgənin rəmzi kimi əsas meydanı bəzəyir. Cüzeppe Karta nüfuzlu Dünya Çili Alyansının (World Chilli Alliance) rəmzini də yaradıb.

Müəllif "Milan Ekspo 2015"də Birləşmiş Millətlər Təşkilatının meyvə bağları konsepsiyası çərçivəsində də qırmızı bibər heykəlini təqdim edib. Həmin ilin sonunda bu heykəl onun Vətənində Sardiniya Bankının mülkiyyətinə çevrilir.

İtaliyanın Çili Bibər Akademiyası tərəfindən isə Cüzeppe Kartaya dünya üzrə "Çili bibəri səfiri" titulu verilib.

Cüzeppe Kartanın təsvir obyektlərindən biri də nardır. O, 2012-ci ildə məşhur tenor və bəstəkar Andrea Boçellinin Toskana bölgəsindəki "Sükut teatrı" üçün 9 metrlik nəhəng narla səhnə dekorasiyası hazırlayır. Daha sonra Kartanın "narlar"ı "Sükut teatrı"nın rəmzinə çevrilir.

Ümumiyyətlə, Kartanın meyvə və tərəvəz heykəllərinin dünyanın bir-birindən fərqli yerlərini bəzəməsinə dair siyahını artırmaq olar. Onun bu yaradıcılıq konsepsiyası dünyada rezonans yarada bilib.

Kartanın kompozisiyaları eşidilməyən, lakin hiss olunan həzin bir melodiyanı xatırladır, əsərləri təbiətin əbədi gözəlliyini bir daha təsdiq edir.

ABŞ, Avstraliya, Böyük Britaniya, Çin, Fransa, İsveçrə, İtaliya, Yeni Zelandiyada təşkil edilən sərgilərdə, festivallarda, Venesiya Biennalesində təmsil olunan, çoxsaylı beynəlxalq mükafatların sahibi Cüzeppe Kartanın əsərlərini paytaxt Bakıda bir ilə yaxın müddətdə izləmək mümkün olacaq.

"Təbiətin nemətləri" sərgisi Heydər Əliyev Mərkəzində 2026-cı ilin yanvar ayınadək davam edəcək.

*XQ*

---

**Xuraman Hacıyeva – 80**

# Səhnəmizin Humayı, ekranımızın Asyası

**Azərbaycan Respublikasının Xalq artisti Xuraman Hacıyeva İkinci Dünya müharibəsinin bitməsinə 2 ay qalmış Ucar rayonunun Müsüslü kəndində dünyaya göz açıb və sənəti ilə aləmə işıq saçıb.**



Hələ orta məktəb dövründən dram dərnəklərində iştirak edən, istedadı ilə seçilən Xuraman 1964-cü ildə Azərbaycan Dövlət Teatr İnstitutunun aktyorluq fakültəsinə daxil olub. İkinci kursda oxuyarkən rejissor Tofiq Tağızadənin yeni həyat verdiyi "Arşın mal alan" bədii filmində Asya roluna çəkilib. Bunu xatırlayanda Süleyman bəyə aşiq olub oxuduğu səhnə yada düşməyə bilmir:

*Gözəlim, yar gözəlim,*
*Bir sözüm var, gözəlim.*
*Bu yazıq yarına hərdən*
*Bir nəzər sal, gözəlim...*

"Arşın mal alan"dan 1 il keçincə "O geri çəkilməlidir" filmində rol alıb. Amma bundan sonra nəyə görəsə Xuraman xanım özü bir növ geri çəkilib. Teatr İnstitutunda təhsilini yarımçıq qoyaraq Gəncəyə gedib və buradakı DDT-də aktrisa işləməyə başlayıb, maraqlı rollar qalereyası yaradıb. Eyni zamanda oradakı Dövlət Pedaqoji İnstitutunun tarix-filologiya fakültəsini bitirib.



Sonra Bakıya qayıdan Xuraman Hacıyeva 1972-ci ildə Gənc Tamaşaçılar Teatrının truppasına daxil olub. Arada nəçə il Naxçıvan teatrında aktrisalıq etməsini nəzərə almasaq, Gənc Tamaşaçılar Teatrı onun əsas sənət ünvanı olub. Burada oynadığı Ceyran ("Yolda", Hüseyn Arif), Qızılgül ("Aycan", Xanımana Əlibəyli), Rəna ("Təzə şagird", Qılman İlkin), Eyzəngül ("Şirinbala bal yığır", Salam Qədirzadə), Gülsüm ("Yadındamı?", Altay Məmmədov), Gülzar ("Tamahkar", Süleyman Sani Axundov), Cemma ("Ovod", Etel Lilian Voyniç), Humay, Ceyran ("Komsomol poeması" və "Çal-oyna", İsgəndər Coşqun), Firəngiz ("Məhəbbət novellası", Şamil Xurşud və Əşrəf Hacıyev), Yetər ("Hacı Qəmbər", Nəcəf bəy Vəzirov), Mərcan, Şirin ("Mənim nağməkar bibim" və "Yazığam, sevmə məni", Əkrəm Əylisli), Cəvahir xanım, Nəzakət ("Büllur sarayda" və "Sən həmişə mənimləsən", İlyas Əfəndiyev), Səkinə ("Ərizə", Əli Əmirli), Zərnigar ("Sınaq pillələri", Ramiz Heydər), Nərgiz ("Bir sahilin adamları", Xalidə Hasilova), Pəri ("Kiçik təpə", Nəbi Xəzri), Sona xanım ("Qonşu qonşu olsa...", Rəşid bəy Əfəndiyev) səhnə obrazları aktrisanın yaradıcılıq nailiyyətləri sayılır.

Kinoda isə müəyyən fasilədən sonra "Gilas ağacı", "Bakıda küləklər əsir", "Ömrün səhifələri", "İşgüzar adamlar", "Birisigün gecəyarısı", "Hədiyyə", "Hökm" adlı filmlərdə çəkilib.

Xuraman xanım aktyor Tariyel Qasımovla yaxın dost olub. Hətta kuluarlarda onların bir-birinə isti münasibət bəslədikləri də söylənirdi. Tariyel Qasımov müsahibələrinin birində bu məsələyə belə aydınlıq gətirib: "Xuraman çox gözəl xanım idi. Mənim ən parlaq və sevilən rollarım onunla tərəf müqabili olduğum tamaşalarda bəyənilib. İndi desəm ki, bir-birimizə biganə idik, düz çıxmaz. Həmişə sevgi rolları oynadığımız üçün tamaşaçılar da elə bilirdilər ki, biz bir ailəyik. Hətta küçədə bizi yaşlı qadınlar saxlayıb, bir-birinizə çox yaraşdığımızı deyirdilər. Xuraman da onlara cavab verirdi ki, biz evli deyilik, sənət dostuyuq. Doğrudan da, münasibətlərimiz həmkarlıqdan, tərəf müqabillikdən, dostluqdan o yana keçməyib. Bəlkə də sizə qəribə gələcək, ancaq ailə quracağım xanımı da sonralar mənim üçün məhz Xuraman seçmişdi. İstəyirdi ki, hər şeyin yaxşısı mənim olsun, xoşbəxt olum".

O, öz zahiri və daxili gözəlliyi ilə səhnədə oynadığı rollara da bir gözəllik qatıb. Sənətinin parlaq ulduzu olan Xuraman Hacıyeva yaxşı xörək bişirməyi, paltar tikməyi, məclis qurmağı bacarıb. Nə qədər nikbin görünməyə çalışsa da, sonralar həyatında urcah olduğu çətinliklər onu tədricən qaraqabaq və qəmgin adama çevirib. Hətta evsiz də qalıb və o zaman bir müddət rəfiqəsi və həmkarı Məsumə Babayevanın mənzilində yaşayıb.

Aktrisa Məsumə Babayeva bir müsahibəsində deyib: "Teatra Xuraman Hacıyeva ilə birgə gəlmişik. Xuraman tamaşalarda çox rol alırdı. Digər aktrisalar da buna görə onu qısqanırdılar. Çalışırdılar ki, Xuramanı gözdən salsınlar, rollarını əlindən alsınlar. Lakin o da hamının cavabını verə bilirdi, özünü heç vaxt kimlərinsə yanında sındırmırdı. Bir ara küsüb getdi Naxçıvan Teatrına. Elə orada da Xalq artisti adını aldı. Səhnədə olanda bir üzü gülürdü, biri ağlayırdı. Evdəki problemlərini rollarına sirayət etdirməzdi".



Bu isə Xalq artisti Yasin Qarayevin fikirləridir: "Xuraman Hacıyeva səhnədə gözlənilməz vəziyyətlərdən böyük ustalıqla çıxmağı bacarırdı. Onda qeyri-adi, çoxlarında olmayan səhnə şarmı, mədəniyyəti var idi. Mən bunu sirr kimi qəbul edirəm. Xuraman səhnədə tərəf müqabilinə köklənməyi bacarırdı. Həddindən artıq həssas idi. Lirik-psixoloji rolları bacarıqla oynayırdı.

"Komsomol poeması" əsərində mən Cəlalı, o Humayı oynayırdıq. Həmin rolu Gəncə Dövlət Dram Teatrında da oynamışdı, hazırlıqlı gəlmişdi. Əsl Humay idi. Xuraman Hacıyeva böyük məktəb keçmişdi. Onunla oynamaq çox rahat idi. Sözsüz səhnələri də Xuraman xanım gözəl oynayırdı. Özü də Leyla Bədirbəylini çox sevirdi, hiss olunurdu ki, bəzi səhnələrdə ona bənzəmək istəyir. Leyla Bədirbəylini çox sevdiyi üçün qızına da Leyla adını vermişdi. Allah ona rəhmət eləsin".

Xuraman Hacıyeva 2005-ci il fevralın 5-də işdən evə gedərkən qəfildən ürəyini tutub küçədə yıxılıb. Küçədəki insanlar onu xəstəxanaya aparsalar da, aktrisanın həyatını xilas etmək mümkün olmayıb. O, 59 yaşında vəfat edib. Amma işıqlı xatirəsi ürəklərdə yaşayır.

*Ə.ƏLİYEV*
*XQ*

---

# "Rustavi – 2"də soydaşımızın ifa məharəti heyranlıq yaradıb

**Gürcüstanın "Rustavi 2" telekanalında yayımlanan "Göstər səsini" musiqili layihəsinin son buraxılışında Tbilisidəki M.F.Axundov adına Azərbaycan Mədəniyyət Muzeyinin əməkdaşı Leyla Əliyeva da iştirak edib.**



Proqramın formatı intriqaya əsaslanır: iştirakçılar arasında həm həqiqi vokalçılar, həm də sadəcə musiqi istedadına malik olduqlarını inandırmağa çalışanlar iştirak edirlər. Münsiflərin əsas vəzifəsi isə kiminsə həqiqi müğənni olub-olmadığını müəyyənləşdirməkdir.

Leyla Əliyeva əvvəlcə şounun formatına uyğun şəkildə gürcü dilində bir mahnını fonoqramla təqdim edib. Onun səhnədəki çıxışı və ifası münsiflərdə şübhə doğurub. Onlar inanmayıblar ki, o, gürcü dilində mahnı ifa edir. Nəticədə münsiflər onun həqiqi müğənni olmadığına qərar veriblər və Leylaya Azərbaycan dilində mahnı ifa etməyi təklif ediblər.

Bundan sonra Leyla münsiflər qarşısında canlı ifaya başlayıb və əsl səsini göstərib. Zalda olan hər kəs bu səsin, ifanın gözəlliyi qarşısında heyrətə gəlib. Onun ifası həm tamaşaçılar, həm də münsiflər tərəfindən gurultulu alqışlarla qarşılanıb.

Leyla Əliyeva Azərbaycanın Xalq artisti Sara Qədimovanın dillər əzbəri olmuş "Küsüb getdi" mahnısını ifa edib. Bu gözlənilməz dönüş yalnız studiyada deyil, sosial şəbəkələrdə də böyük əks-səda doğurub.

Bir çox tamaşaçı qeyd edib ki, Leyla Əliyevanın çıxışı təkcə onun vokal istedadını nümayiş etdirməyib, həm də bir daha sübut edib ki, incəsənət insanları birləşdirə, stereotipləri sındıra və dünyaya yeni baxış bucağı təqdim edə bilir. Leyla Əliyevanın çıxışı mövsümün ən yaddaqalan ifalarından biri kimi qiymətləndirilib.

*Paşa ƏMİRCANOV*
*XQ*

# Avropanın ABŞ-a güvənci azalıb

## *Fransa qitəni “nüvə çətiri” altına toplamaq istəyir*

**Dünən Brüsseldə Avropa İttifaqının (Aİ) fövqəladə sammiti keçirildi. Əsas mövzu “ReArm Europe” (Avropa ordusunun yenidən silahlandırılması) proqramının müzakirəsi oldu. Aİ-nin hərbi proqramı milli müdafiə sənayesinə investisiyaların artırılmasını və Avropa təhlükəsizliyinin təmin edilməsində ABŞ-dan asılılığın azaldılmasını nəzərdə tutur. Fransa prezidenti Emmanuel Makronun xalqa müraciətində açıqladığı tezislər də onu göstərir ki, “köhnə dünya” təhlükəsizlik və müdafiə sənayesi məsələsində böyük və ciddi dəyişikliyə hazırlaşır.**



AK rəhbəri Ursula Fon der Lyayen Aİ-nin müdafiəsini 150 milyard avro gücləndirmək planını martın 4-də təqdim etmişdi. Xanım Lyayenin proqnozlarına görə, yeni tədbirlər 800 milyard avronun səfərbər edilməsinə və Ukraynaya yardımın artırılmasına kömək edəcək. AK rəhbəri əmin olduğunu bildirmişdi ki, bu, Aİ-nin öz müdafiəsi və təhlükəsizliyi üçün məsuliyyəti üzərinə götürməyə və Ukraynaya yardımı artırmağa hazır olduğunu göstərir. Xanım Lyayenin sözlərinə görə, yeni fond vasitəsilə Aİ ölkələri müştərək alışlar həyata keçirə və hərbi texnikanın təcili tədarükü ilə Ukraynaya dəstəyini əhəmiyyətli dərəcədə artıra biləcəklər.

Prezident Vladimir Zelenski də sammitə dəvət olundu. Sammitdə Ukraynaya yardımla bağlı hər hansı bir qərarın qəbul ediləcəyi bilinmir. Məsələ ondadır ki, Ukrayna məsələsi sammitin gündəliyinə salınmışdı, lakin Macarıstan Baş naziri Viktor Orbanın etirazından sonra Aİ liderləri AK rəhbərinin təqdim etdiyi planı müzakirə edib təsdiqləyəcəklər. Bütün bunların fonunda Aİ-nin fövqəladə sammiti ərəfəsində “Euractiv” nəşri Avropa diplomatiyasının rəhbəri Kaja Kallasın Ukraynaya 20 milyard avroluq yardım paketinin ayrılması təklifinin yekun bəyanat layihəsindən çıxarıldığını yazmışdı. “Euractiv” Kaja Kallasın təşəbbüsünün Macarıstan tərəfindən əngəlləndiyini iddia edir.

Bununla belə, Brüsseldəki bir sıra mənbələr sammitin mərkəzi mövzularının - Ukraynanın müdafiəsi və Avropanın təhlükəsizliyinin bir-biri ilə sıx əlaqəli olduğunu vurğulayırlar. Sammitdə Avropa sənaye bazasının gücləndirilməsinə yönəlmiş kütləvi müdafiə investisiyaları üçün yeni alətləri təsdiq edəcəyi gözlənilir ki, bu da Aİ-nin gələcəkdə Ukraynanı dəstəkləmək qabiliyyətini gücləndirəcək. Aİ-nin məmurları bildirirlər ki, fövqəladə sammitdə qəbul ediləcək qərarlar yalnız başlanğıcdır: “Avropa tarixində yenidən silahlanmaya həsr olunmuş yeni səhifədir”. Diplomatların və rəsmilərin fikrincə, Aİ-nin bu məsələdə mövqeyi yekdildir və hətta Macarıstan ilə bağlı da heç bir problem olmamalıdır.

Bəs Budapeşt etiraz etsə, necə olacaq? Aİ mənbələri deyirlər ki, üzv ölkələr Ukrayna ilə bağlı bəyanatını Macarıstansız da qəbul etməyə hazırdırlar və bu da onlara güzəştə getmədən məsələni həll etməyə imkan verəcək. Avropa diplomatı martın 5-də keçirdiyi brifinqdə demişdi ki, “Birlik vacibdir, lakin güclü bəyanatlar da vacibdir”. Onun sözlərinə görə, Macarıstana bununla bağlı nə siyasi, nə də şifahi heç bir güzəşt müzakirə olunmur. Sözlər həlledici olacaq, 26 ölkə də çoxdur, lakin “ kənarda tək dayanmaq olduqca tənhadır”.

Beləliklə, bu təlatümlü zamanlarda Aİ-nin Ukrayna ilə bağlı mövqeyi dəyişməz olaraq qalır və Brüssel bunu 27 və ya 26 ölkə adından yeni bəyanatında vurğulamaq istəyir, həmçinin 2025-ci ildə Kiyevə yardım üçün 30 milyard avrodan çox vəsait ayırmaq niyyətindədir. Eyni zamanda, Aİ üzvlərinin əksəriyyəti, Aİ-nin yüksək rütbəli rəsmisinin sözlərinə görə, Ukraynaya qarşı daha da böyük öhdəliklər götürə biləcəklərini iddia edirlər, lakin hələlik heç kim əlavə yardım üçün konkret rəqəmlər səsləndirmir. Əlbəttə, “Qoca qitə”ni ABŞ-ın Ukraynaya və Avropaya münasibəti çox əndişələndirir. Xüsusilə də qitənin təhlükəsizlik məsələsində NATO-nun rolunun dəyişib-dəyişməyəcəyi müzakirə olunur. Bu mənada Fransa prezidenti Emmanuel Makronun son sözləri diqqəti cəlb edir.

Xatırladaq ki, martın 5-də Makron xalqa müraciətində bildirdi ki, sülh Moskvanın şərtləri ilə bağlana bilməz: “Ukraynada sülhün nə qədər tez bağlanmasından asılı olmayaraq, biz Rusiya təhlükəsini tanımalı və cavab verə bilmək üçün daha güclü silahlanmalıyıq. Çoxlu silah istehsal ediləcəyini vurğulayan Makron Fransa ordusunu da təriflədi. Onu “Avropanın ən effektiv ordusu” adlandıran Fransa prezidenti əlavə etdi ki, ölkənin üzləşdiyi təhlükələri nəzərə alaraq, onu daha da genişləndirmək lazımdır. Makron bir sıra iddialar da səsləndirdi: “2030-cu ilə qədər Rusiya ordusunu daha 3000 tank və 300 təyyarə ilə təchiz etməyi planlaşdırır. Rusiyanın Ukraynada dayanacağına kim inana bilər? Təhlükələrlə dolu bir dünyada tamaşaçı qalmaq dəlilikdir”.

Fransa prezidenti müraciətində nüvə çəkindirməsi mövzusuna xüsusi toxundu. “Mən inanıram ki, Birləşmiş Ştatlar bizim tərəfimizdə qalacaq”,- deyən Makron həm də xəbərdarlıq etdi ki, işlər başqa cür də ola bilər və Avropa təkbaşına özünü müdafiə etməli olacaq. Onun fikrincə, avropalıların ümumi “nüvə çətiri” olmalıdır. Hazırda Avropa qitəsində iki ölkənin nüvə silahı var: Fransa və Böyük Britaniya birlikdə 500-dən çox nüvə başlığına malikdir. Almaniyanın gələcək kansleri Fridrix Merts də bu imkanların “bölüşdürülməsini” müzakirə etmək arzusunu ifadə edir. Emmanuel Makron da “Köhnə dünya”nı öz nüvə çətiri altına almağa hazır olduğunu bildirir. Makronun sözlərinə görə, gələn həftə davamlı sülhün bərqərar olunmasında iştirak etmək istəyən ölkələrin dövlət başçılarını bir araya toplayacaq. Fransa prezidenti, həmçinin bildirir ki, NATO-ya sadiq qalırlar, lakin müstəqillik də gücləndirilməlidir: “Avropanın gələcəyi Vaşinqton və Moskvada həll edilməməlidir”.

Amma Makronun Avropanı “nüvə çətiri” altında toplamaq istəyi Moskvada birmənalı qarşılanmadı. Rusiyanın xarici işlər naziri Sergey Lavrov Makronun nüvə ritorikasının Rusiya üçün birbaşa təhdid olduğunu bildirdi. Rusiyalı nazirin sözlərinə görə, Fransa rəhbəri öz reputasiyasını qorumaq üçün “tamamilə düşünülməmiş hərəkətlərə əl ata bilər”. Lavrov Emmanuel Makronun Rusiyanın “Avropa və Fransaya qarşı müharibə” hazırlaması ilə bağlı bəyanatını da “ağılsız ittihamlar” adlandırdı. Öz növbəsində Kremlin mətbuat katibi Dmitri Peskov Makronun bəyanatlarını “çoxkonfrontasiyaslı” kimi qiymətləndirir və əlavə edir ki, Fransa prezidentinin nüvə ritorikası Parisin müharibəni davam etdirməyə çalışması hissi yaradır.

***Səbuhi MƏMMƏDOV***
***XQ***

# Ağdərə Qayıdış sevincinə bürünüb

## *Həsənriz kəndi də övladlarına qucaq açdı*



**Qəhrəman oğullarımızın canları, qanları bahasına azad etdikləri Qarabağda və Şərqi Zəngəzurda bərpa-quruculuq işləri gündən-günə daha geniş vüsət alır, otuz ildən artıq Vətən həsrəti ilə yaşamış keçmiş məcburi köçkünlərin köç karvanları bir-birinin ardınca ata-baba yurdlarına istiqamət götürür. Bir vaxtlar göz yaşları içində ev-eşiklərindən didərgin düşmüş insanlar indi sevinə-sevinə daimi yaşamaq üçün öz ata-baba yurdlarına qayıdırlar. Bugünlərdə Böyük Qayıdışın yeni ünvanına çevrilmiş Ağdərədə də həyat canlanır, rayonun Həsənriz kəndi mərhələli şəkildə yeni sakinlərini qarşılayır. Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq martın 6-da daha 75 keçmiş məcburi köçkünün Vətən həsrətinə son qoyuldu, 25 ailə doğma Həsənriz kəndinə qayıtdı.**

Kəndə çatan köç karvanınının qarşılanması və ailələrə evlərinin açarlarının təqdim edilməsi mərasimində Xankəndi şəhərində Ağdərə və Xocalı rayonlarında Azərbaycan Prezidentinin Xüsusi nümayəndəliyinin, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin rəsmiləri, kəndin ilk sakinləri, mətbuat nümayəndələri və digər şəxslər iştirak etdilər. Tədbirdə çıxış edən Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Prezidentin Xüsusi nümayəndəsinin müavini Səbuhi Qəhrəmanov bildirdi ki, işğaldan sonra Həsənriz kəndində yenidənqurma və bərpa işlərinə başlanılıb, kənd qısa zamanda elektrik enerjisi, içməli su və təbii qazla təmin edilib. Burada insanların yaxşı yaşaması üçün bütün zəruri infrastruktur qurulub. Artıq kəndə 50 ailənin köçürüldüyünü deyən S.Qəhrəmanov bundan sonra da köçün mərhələli şəkildə həyata keçiriləcəyini, bu məqsədlə hazırda kənddəki digər fərdi yaşayış evlərində də təmir işlərinin aparıldığını vurğuladı.

Mərasimdə çıxış edən sakinlər hərtərəfli dövlət qayğısı ilə əhatə olunduqlarına görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya təşəkkür etdilər.



Öz doğma yurduna qayıdışın sevincini yaşayan Nemət Süleymanov “Xalq qəzeti”nə açıqlamasında bildirdi ki, torpaqlarımızın mənfur erməni işğalından azad edilməsindən sonra ilk dəfədir ki, Həsənrizə gəlir, özü də daimi yaşamaq üçün:

– Sonsuz sevinc və qürur içindəyəm. 53 illik ömrümün böyük hissəsini məcburi köçkün kimi yaşadım. Ancaq Allah şükürlər olsun ki, bu gün ailəmlə birlikdə öz torpağıma qayıtmışam. Dövlətimiz var olsun, bizim rahat köçməyimiz üçün hər cür şərait yaradılıb. Həsənriz də bizi sonsuz sevgilə qarşıladı. Elə bil bu yerlər əsl sahibləri üçün darıxıblar. Möhtərəm Prezidentimizin sayəsində bu gündə biz də daha məcburi köçkün deyilik. Allah şəhidlərimizə rəhmət eləsin, qazilərimizə cansağlığı versin!

22 yaşlı Elvin də ilk dəfədir ata-babasının yurduna qədəm qoyub. Bizimlə söhbətində ilk təəssüratlarının onda böyük həyəcan yaşatdığını dedi:

– Dövlət Neft və Sənaye Universitetinin məzunuyam. İşlə də təmin olunmuşdum. Ancaq heç tərəddüd etmədən, fəxrlə, sevinc hissi ilə Həsənrizə gəldim. Buralar indiyədək görmədiyim yerlərdi. Havası, suyu, ürəkaçan mənzərələri çox xoşuma gəldi. İnşallah, bundan sonra doğma kəndimdə işləyib, işğaldan azad edilmiş torpaqlarımızın inkişaf etdirilməsində iştirak edəcəyəm. Bu, mənim üçün həm böyük məsuliyyət, həm də qürurvericidir.

Həsənrizə qədəm qoyan ailələr qarşılandıqdan sonra Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinin (ANAMA) əməkdaşları tərəfindən onlara mina və partlamamış hərbi sursatların təhlükəsi barədə ətraflı məlumat verildi. Tanımadıqları naməlum əşyalar və cisimlərdən uzaq durmaları, belə hallarla qarşılaşdıqları zaman aidiyyəti qurumlara xəbər vermələri tövsiyə olundu.

Qeyd edək, Həsənriz kəndinə ilk köç martın 3-də həyat keçirilib, 25 ailə doğma torpağına qayıdıb.

***Mahir RƏSULOĞLU,***
***XQ-nin bölgə müxbiri***

**Ağdərə**

**Qış idmanı**

**Ölkəmizdə qış idman növlərinə maraq getdikcə artır. Bu sahədə nailiyyətlərin qazanılması üçün müasir infrastruktur qurulur, idmançıların yetişdirilməsi üçün tədbirlər görülür. Təqdirəlayiq haldır ki, bu günlərdə Avrasiya Dağ Kurortları Festivalı çərçivəsində Avrasiya Dağ Kurortu Alyansına üzv dövlətlərin təlimçiləri arasında “Şahdağ”da keçirilən xizək yarışında Azərbaycan təmsilçiləri uğurla çıxış ediblər. Mariya Şerstyuk və Nurlan Abdulov yüksək ustalıq nümayiş etdirərək mükafatalayiq yer tutublar.**

# Qar üstündə xizəklə uçuş...



**Öz kateqoriyasında gümüş medal qazanan M.Şerstyuk qəzetimizə verdiyi açıqlamada ilk dəfə belə bir turnirin təşkil edildiyini və rəqabətin kifayət qədər yüksək olduğunu bildirdi:**

– Yarış dağ xizəyinin nəhəng slalom növündə keçirilirdi. Yarışda Azərbaycanla yanaşı, Rusiya, Qazaxıstan, Özbəkistandan 50-yə yaxın idmançı iştirak edirdi. Turnirdə təşkilatçılıq yüksək səviyyədə idi. Mükafatlar uğrunda gərgin mübarizə getdi. Sevinirəm ki, mükafatçılar sırasında yer tuta bildik.

**Şahdağ Xizək Məktəbinin direktoru hazırda xizək idman növləri üzrə aşağı yaş qruplarında çoxlu perspektivli idmançıların yetişdiyini vurğuladı:**

– Şahdağ Xizək Məktəbinin nəzdində Şahdağ Xizək Klubu yaradılıb. Respublikanın ayrı-ayrı şəhər və rayonlarında klubumuza bu idman növlərinin sirlərini öyrənmək çoxlu uşaq və yeniyetmələr gəlirlər. Onların arasından ən bacarıqlıları seçib, üzərində işləyir, idmançı kimi yetişdiririk. Artıq bir sıra yarışlarda uğurlar da qazanmışıq. Bu ilin yanvar ayında Ərzurumda keçirilən beynəlxalq turnirdə iştirak edən komandamız yekun nəticədə ilk 10-da qərarlaşdı. Rəqabətin çox yüksək olduğu yarışda, bu, komandamız üçün yaxşı nəticədir. Özbəkistanın Amirsoy Dağ Kurortunda həvəskarlar arasında xizək yarışı üzrə ilk Türk Dövlətləri Kubokunda isə yığmamız 2 mükafat qazandı. Təmsilçilərimizdən Ceyhun Balametov qızıl, Famil Valimotov isə bürünc medala sahib oldular. Artıq bu idman növü üzrə bacarıqlı atletlərimiz yetişir. İnanıram ki, gələcəkdə böyük nailiyyətlər əldə edəcəyik.

**Nurlan Abdulov da yarışla bağlı təəssüratlarını bölüşdü:**

– Rəqiblər arasında çox güclü idmançılar var idi. Onlardan bəziləri vaxtilə Rusiya yığma komandasında iştirak etmiş atletlər idi. Bundan əvvəl yarışlarda iştirak etmişəm. Peşəkar karyeramda ilk belə yarış idi. Gücümüzdən maksimum istifadə etdik. Daha təcrübəli idmançılar arasında yer tutmaq mənim üçün sürpriz oldu. Şahdağ Xizək Mərkəzində belə turnirlərin təşkili üçün dünya standartlarına cavab verən xüsusi xizək zolağı var. Yarışda iştirak edən xarici idmançılar da dönə-dönə etiraf edirdilər ki, müasir standartlı xizək zolağı onların çox xoşuna gəlib.

Şahdağ Turizm Mərkəzinin mətbuat katibi Orxan Bədəlov mərkəzin 2023-cü ildən Avrasiya Dağ Kurortları Alyansının üzvü olduğunu bildirdi. O qeyd etdi ki, Alyans çərçivəsində təlimçilər arasında ilk belə yarış keçirilib. Yarışda “Şahdağ”la yanaşı, Özbəkistanın Amirsoy, Qazaxıstanın Şımbulak və Oy Qaraqay, Rusiyanın Roza-Xutor Dağ Kurortlarının 50-ə yaxın xizəkçisi mübarizə aparıb. Yarışın keçirilməsində məqsəd Alyansa daxil olan dövlətlərlə idman sahəsində əməkdaşlıq əlaqələrini inkişaf etdirmək, ölkələr arasında təcrübə mübadiləsi aparmaq, xizək və snoubord idman növlərinə marağı artırmaqdır:

– Azərbaycanda son illər xizək yarışları daha tez-tez təşkil edilir. Bu ilin fevralında Türk Dövlətlərinin Dağ Kurortları İttifaqının təşkilatçılığı ilə türkdilli dövlətlərin xizək yarışı keçirildi. Həmin turnirə Azərbaycandan 7 həvəskar xizəkçi qatılmışdı. Bu yaxınlarda xizək və snoubord üzrə Heydər Əliyev Kuboku yarışları keçirdik. Ötən ildən etibarən həm idmançılar, həm də təlimçilər arasında yarışlar keçiririk.

Qeyd edək ki, martın 4-dən 6-dək Azərbaycan Avrasiya Dağ Turizmi Forumuna ev sahibliyi etdi. Tədbirdə Dövlət Turizm Agentliyinin rəsmiləri, Alyansa daxil olan Azərbaycan, Qazaxıstan, Özbəkistan, Rusiya və Cənubi Koreyanın dağ kurortlarının, həmçinin Belarus, Gürcüstan və Qırğızıstan Respublikalarının 150-yə yaxın turizm nümayəndəsi iştirak etdi. Forumda Alyansın 2025-2026-cı ilə dair fəaliyyət planı, dağ turizminin inkişafı və turizm marşrutlarının yaradılması, kurortlarda təhlükəsizliyin təşkili, Alyans ölkələri arasında əməkdaşlığın genişləndirilməsi və digər məsələlər müzakirə olundu.




Beləliklə, Azərbaycanda qış idman növlərinin inkişafı istiqamətində görülən işlər öz miqyasını daha da genişləndirir. Ümid edirik ki, idmançılarımızın sorağı gələcəkdə ən nüfuzlu yarışlardan gələcək.

***Leyla QURBANOVA***
***XQ***

## “Azneftmaşservis” ASC səhmdarlarının nəzərinə!

2 may 2025-ci il saat 9.00-da “Azneftmaşservis” ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

Yığıncağın gündəliyi:

1. ASC-nin idarəetmə orqanlarının 2024-cü ilə aid maliyyə-təsərrüfat fəaliyyəti barədə hesabatı. Dividendlərin bölüşdürülməsi.
2. İllik hesabatların təsdiq edilməsi.
3. Təşkilati məsələ. ASC-nin idarəetmə orqanlarının seçilməsi.
4. Digər məsələlər.

Ümumi yığıncağın gündəliyindəki məsələlərə aid materiallarla tanışlıq üçün iş günlərində ASC-nin rəhbərliyinə müraciət etmək olar.

Ümumi yığıncaqda bütün səhmdarların iştirakı vacibdir.

Əlaqə telefonu – (012) 514-19-50.

Ünvan-Bakı şəhəri,Dərnəgül qəsəbəsi, 2096-cı məhəllə, 507-ci küçə, ASC-nin inzibati binası.

Qeyd – səhmdarlardan xahiş edilir ki, əgər yığıncağın keçirilmə tarixi karantin dövrünə düşərsə,yaxud digər məhdudiyyətlər olarsa, onda elanda göstərilən telefonla əlaqə saxlayıb yığıncağın “online “ qaydada keçirilməsində iştirak üçün aktiv əlaqə nömrələrini təqdim edib qeydiyyatdan keçsinlər.”GoTo Meeting” saytı (936369133) kodu vasitəsilə qoşulmaq olar.

*“Azneftmaşservis” ASC-nin idarə heyəti*

## “İnturavto”ASC səhmdarlarının nəzərinə!

**26 aprel 2025-ci il saat 10.00-da “İnturavto”ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.**

Ümumi yığıncağın gündəliyi:

1.2024-cü ilin maliyyə-təsərrüfat fəaliyyətinin yekunlarına aid hesabatın müzakirəsi və təsdiqi.

2.Digər məsələlər.

Səhmdarlar yığıncağın gündəliyinə aid sənədlərlə həftənin bütün iş günlərində idarə heyətinin sədri ilə əlaqə saxlayaraq tanış ola bilərlər.

Telefon-050-211-82-64.

Ünvan -Bakı şəhəri ,Nəsimi rayonu,Xətai prospekti 40 a.

*“İnturavto”ASC -nin idarə heyətinin sədri*

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 51 (30745) 7 mart 2025-ci il, cümə

İdman

## Formula 1 hazırlığı başlandı



**Formula 1 Qatar Airways Azərbaycan Qran-Prisi 2025-ə hazırlıqlar çərçivəsində paddokun yenidən qurulmasına başlanıb.**

Bakı Şəhər Halqasından (BŞH) verilən məlumata görə, paddok hər zamankı kimi Neftçilər prospekti, Hökumət evinin qarşısında quraşdırılır.

BŞH Əməliyyat Şirkəti piyadaların və sürücülərin ehtiyatlı olmalarını xahiş edib, şəhər sakinlərinə göstərdikləri anlayışa görə təşəkkürünü bildirib.

Xatırladaq ki, Formula 1 Azərbaycan Qran-Prisi sentyabrın 19–21-də keçiriləcək.

## Xatirə turniri başa çatdı



**İctimai-siyasi xadim Qənirə Paşayevanın xatirəsinə həsr olunan qadınlararası beynəlxalq şahmat turniri başa çatıb.**

Bakıda rapid və blits üzrə təşkil edilən yarışın yekun nəticəsinə görə, Bolqarıstan təmsilçisi Nurgül Səlimova 25 xalla birinci yeri tutub. İki yarışın cəmində 22 xal toplayan Xanım Balacayeva 2-ci olub. Üçüncü yerdə isə Gövhər Beydullayeva qərarlaşıb.

## Futbol millimiz yerində sayır



**FIFA qadın futbolçulardan ibarət milli komandaların reytinq cədvəlini yeniləyib.**

Azərbaycan yığmasının da dünya reytinqindəki mövqeyi bəlli olub. Ötən siyahı ilə müqayisədə sıralamadakı yeri dəyişməyən Azərbaycan millisi (1308.45 xal) 75-ci pillədə qərarlaşıb.

Qeyd edək ki, reytinq cədvəlinə ABŞ seçməsi (2069) başçılıq edir.

*L.AZAD*
*XQ*

Dünya evimizdir

# "Qoy güllər açılsın, güllələr açılmasın!"

### *Türkiyəli xanımların Dünya qadınlarına 8 Mart töhfəsi*



**Türkiyəli xanımlar 8 Mart Beynəlxalq Qadınlar Günü ərəfəsində dünya ölkələrindəki qız, gəlin, analar üçün 75 milyon gül göndəriblər. Güllər həm təzə və ətirlidirlər, həm də çeşidləri rəngarəngdir. Aralarında qızılgüllər və qərənfillər daha çoxdur.**

"Anadolu" agentliyinin bu barədə xəbərində belə bir fakt da qeyd olunur ki, planetimizdə bu il ötən illə müqayisədə türk çiçəklərinə tələbat 10 faiz artıb. Bu, beynəlxalq bayram ərəfəsində ata, qardaş və bəylərin, eləcə də iş yoldaşların analara, qız-gəlinlərə, xanımlara gül hədiyyə etmə adətinin populyarlığının artmasının göstəricidir.

Qeyd edək ki, Türkiyədə hazırda gül istehsalı sektorunda çalışanların 80 faizindən çoxunu qadınlar təşkil edirlər. Bəzək Bitkiləri və Məhsulları İxracatçıları Birliyinin rəhbəri İsmayıl Yılmaz deyib: "Qadınlarımız bu günlərdə ölkə üzrə 60 min hektar sahədə yetişdirilən gülləri sevgi və qayğı ilə yığıb qablaşdırırlar. Bu gözəl və tər çiçəklər bütün dünyada qadınlara sevinc və təbəssüm gətirəcək".

İ.Yılmazın sözlərinə görə, bayram ərəfəsində türk çiçəklərinin əsas idxalçıları Hollandiya, Böyük Britaniya, Almaniya, Bolqarıstan və Rumıniya olub. Hətta Avropanın şərqində 3 ildir davam edən ağır müharibənin fonunda belə Rusiya və Ukraynaya türk gülləri göndərilib. Yeri gəlmişkən, sülhsevər türk qadınları çox arzulayırlar ki, ən azı bu bayram günlərində dünyanın hər yerində, eləcə də Ukrayna və Qəzzada silahlar sussunlar, danışmasınlar. Qoy toplardan, tanklardan alov saçmasın, onların lülələrindən güllər asılsın!

Bu məqamda Azərbaycanın Xalq şairi Rəsul Rzanın aşağıdakı misrasını xatırlamamaq olmur:



"Qoy güllər açılsın, güllələr açılmasın!"

Görkəmli şair sülhsevər insanların munis duyğularını necə də gözəl və dəqiq ifadə edə bilibdir! Ruhu şad olsun!

Biz isə yenidən sözü İ.Yılmaza vermək fikrindəyik. O, həmçinin bildirib ki, hazırda bütün Yer kürəsində insanlar digər hədiyyələrlə nisbətdə getdikcə daha çox diqqət və hörmət rəmzi olaraq gülləri seçir, bahalı, lakin mənasız hədiyyələrdən imtina edirlər. Bəli, güllər ən gözəl hədiyyədir!

"Anadolu" agentliyinin müxbiri qardaş ölkədə gül əkib-becərməklə məşğul olan işçilərin təəssüratlarını öyrənməyə çalışıb. Antalyada 25 ildir ki, bu sahədə çalışan Muazzez Tekeli adlı xanım bu xüsusda deyibdir: "Bir qadın üçün ən gözəl hədiyyə çiçəklərdir. Qoy bizim dünya xanımlarına göndərdiyimiz güllər onların doğmalarına, özlərinə xoş ovqat və xoşbəxtlik bəxş etsin!"

Gülçülük sahəsində 30 illik təcrübəsi olan Durai Yıldız isə rəfiqəsinin fikirlərinə bu sözləri əlavə edib: "Güllər hər bir xanıma gözəllik və enerji gətirir".

Yeri gəlmişkən, "Anadolu" agentliyinin müxbirinin hazırladığı bu xəbər fotolar və videoçarxla müşayiət olunub.

Sonda bildirək ki, dünyanın bu qarışıq dönəmində türk xanımlarının planetimizin müxtəlif guşələrinə göndərdiyi rəngarəng güllər onların həm də Yer kürəsində sülhə, əmin-amanlığa, sabitliyə çağırışıdır.

*M.HACIXANLI*
*XQ*

# Bakıda gimnastika üzrə Dünya Kuboku




**Bakıda Milli Gimnastika Arenasında idman gimnastikası üzrə Dünya Kuboku yarışı start götürüb. Əvvəlcə tədbirin açılış mərasimi keçirilib. Tədbirdə iştirakçı ölkələr təqdim olunub, dövlət bayraqları arenanın mərkəzinə gətirilib.**

Gənclər və idman naziri Fərid Qayıbov Azərbaycanda hər il gimnastikanın müxtəlif növləri üzrə mötəbər yarışların keçirildiyini deyib, əldə olunan uğurlardan danışıb. Nazir bu yarışın Azərbaycanda idman gimnastikasının inkişafında və təbliğində əhəmiyyətli rol oynayacağını, idmançıların təcrübə əldə etmələrinə şərait yaradacağını söyləyib.

Sonra Dünya Kuboku açıq elan olunub və Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib. Tədbir daha sonra bədii hissə ilə davam edib.

Qeyd edək ki, yarışda ölkəmizi kişilər arasında Nikita Simonov (halqalar), İvan Tixonov (turnik), Rəsul Əhmədzadə (sərbəst hərəkətlər, dəstəli at), Mənsum Səfərov (dayaqlı tullanma, turnik), Murad Ağarzayev (sərbəst hərəkətlər), Ramin Dəmirov (paralel qollar), qadınlar arasında Nazənin Teymurova (6 alətin hər birində) və Dəniz Əliyeva (6 alətin hər birində) təmsil edirlər.

Dörd gün davam edəcək yarışların yekununda, həmçinin ən yüksək icra xalını toplamış gimnastlara ənənəvi "AGF Trophy" kuboku da təqdim olunacaq.

Dünya Kuboku martın 9-dək davam edəcək.

*L.SABİRQIZI*
*XQ*

SAĞLAMLIQ



# Limon qat banana – sağlıq gətirsin cana

**Bananın üzərinə limon sıxıb yeməyin sağlamlığa faydaları var. Bu 2 meyvə çox istifadə edilir və qida dəyəri baxımından xeyirlidir. Həzm sistemindən immunitet dəstəyinə qədər bir çox müsbət təsiri olan bu meyvələr enerji verici və antioksidant xüsusiyyətləri ilə diqqət çəkir.**

Bəs bananın üzərinə limon sıxıb yeməyin sağlamlığa nə kimi təsirləri var?

Limon C vitamini ilə zəngin olduğu üçün immunitet sistemini gücləndirir. Banan isə immunitet funksiyalarını dəstəkləyən B6 vitamini ehtiva edir.

Banan liflə zəngin olduğu üçün bağırsaqları fəallaşdırır və həzmi tənzimləyir.

Limon isə mədə turşusunu balanslaşdırır və həzmi asanlaşdırır.

Banan tərkibində təbii şəkərlər (fruktoza, qlükoza) olduğu üçün enerji verir.

Limon isə flavonoidlərlə zənginliyi sayəsində qoruma təmin edir.

Banan maqnezium və kaliumla zəngindir, hüceyrələri yeniləyir, əzələ tutmalarının qarşısını alır.

Limon isə tərkibindəki maqnezium və kalsiumla əzələ sağlamlığını dəstəkləyir.

Banan dəri üçün nəmləndirici və qidalandırıcı xüsusiyyətlərə malikdir.

Limondakı C vitamini isə kollagen istehsalını dəstəkləyir, dərini daha parlaq edir.

*Z.HÜSEYNLİ*
*XQ*

HAVA

# Günəşli, dumanlı və buludlu



**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, martın 7-də Bakıda və Abşeron yarımadasında hava dəyişkən buludlu olacaq. Əsasən yağmursuz keçəcək. Cənub-şərq küləyi əsəcək. Gecə 2-7°, gündüz 12-17° isti olacaq. Atmosfer təzyiqi 769 mm civə sütunu, nisbi rütubət gecə 65-75, gündüz 50-55 faiz olacaq. Azərbaycanın rayonlarında əsasən yağmursuz keçəcək. Bəzi yerlərdə arabir duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 1-6°, gündüz 13-18° isti, dağlarda gecə 3° şaxtadan 2°-dək isti, gündüz 10-15° isti olacaq.**

*Q.QASIMOV*
*XQ*

## ALLAH RƏHMƏT ELƏSİN

Şirvan şəhərindən İlqar Abbasov Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradova əmisi

**BƏXTİYAR MURADOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Dillər Universitetinin rektorluğu, professor-müəllim heyəti və Həmkarlar İttifaqı Komitəsi universitetin prorektoru, dosent Vüqar Mehrabova əzizi

**BƏNÖVŞƏ ORUC QIZININ**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3366
SİFARİŞ 480
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Paşa ƏMİRCANOV

Çapa imzalanmışdır 00:00